RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 218 (9385) 7 OKTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycanla Serbiya arasında qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin inkişafı üçün yaxşı zəmin yaradılıb

### Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Milli Assambleyasının Sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçi qəbul edib.

→ 2

## Azərbaycan Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verir

### Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

→ 2

## Azərbaycan-İran dostluğu və əməkdaşlığı bütün bölgə üçün önəmli amildir

### Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.

→ 2

# Hesab verməyin zamanı çatdı



## Dövlətimizə və xalqımıza qarşı cinayətlər törətmiş canilərin hər biri Azərbaycan qanunları ilə layiq olduqları cəzalarını alacaqlar

Hələ bir neçə ay əvvəl Vaqif Xaçatryan adlı müharibə canisinin həbs olunması, əslində, ondan xəbər verirdi ki, əli xalqımızın qanına bulaşan, Xocalıda cəlladlıq edən, separatizmə dəstək verən, Azərbaycanı təhdid edən bütün qondarma rejim ünsürləri gec-tez Azərbaycan qanunları qarşısında cavab verməli olacaqlar. Bu ilin mayında Prezident İlham Əliyev Laçından separatçılara xəbərdarlıq edərək demişdi: "Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər".

Prezident İlham Əliyev dedi və etdi. Xəbərdarlıqlardan nəticə çıxarmayan, dövlətimizi təhdid edən, müharibə cinayətləri törədən, separatçılığı maliyyələşdirən Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan kimi ünsürlər indi Azərbaycan qanunları qarşısında cavab verirlər. Bu həmin Ruben Vardanyandır ki, Xankəndidə oturub terrorçuluğu maliyyələşdirir, Azərbaycana qarşı hədyanlar söyləyirdi.

Arayik Harutyunyan isə 2000-ci ildə qondarma respublikanın "prezidenti" kimi "andiçməsini" Şuşada keçirmiş, "vəzifəsinə" başladığı ilk gündən bizi əsassız iddialarla hədələmək yolu tutmuşdu. Vətən müharibəsində isə bu cani Gəncənin raket atəşinə tutulması üçün əmr verdiyi ilə qürurlanmışdı.

Ayrı-ayrı vaxtlarda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan və Bako Sahakyan da əlləri xalqımızın qanına bulaşmış canilərdir. Bu ünsürlər yəqin ki, nə vaxtsa həbs olunacaqlarına inanmaq istəməzdilər. Lakin bu, baş verdi və bir vaxtlar torpaqlarımızı işğal etmələri ilə qürurlanan, Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid edən, Şuşada yallı gedən bu ünsürlərin artıq əlləri qandallanıb. Onları qandallayan isə güclü Azərbaycan dövlətidir.

→ 9

## İlham Əliyevsiz istənilən danışıq mənasızdır

### Azərbaycan Prezidenti iştirak etmədən aparılan müzakirələr nəticəsiz qalacaq

Praqada keçirilən sammit çərçivəsində baş tutan sülh danışıqlarına ermənipərəst Fransa Prezidenti Emmanuel Makron da özünü pərçim etdi. Moldovada isə görüş daha geniş tərkibdə keçirildi və Praqadakı görüş iştirakçıları ilə yanaşı, həmin tədbirdə Almaniyanın Federal Kansleri Olaf Şolts da iştirak etdi. Amma bu, qeyri-rəsmi görüş kimi, sadəcə, müzakirə xatirinə keçirildi.

Qranada sammitində də eyni şounun davam etdirilməsi gözlənilirdi. Amma şərtləri diktə edən qalib komandan kimi İlham Əliyev bu mənasız görüşə getmədi. Bunun haqlı səbəbləri də vardı. Çünki Azərbaycanın istəyi ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu görüşdə iştirakına icazə verilməmişdi. Danışıqlar masası arxasında özünə yer tutan Fransanın Türkiyə Prezidentinin görüşdə iştirakına etiraz etməsi Bakı üçün başqa seçim yolu qoymadı. İlham Əliyev qeyri-rəsmi görüşdən imtina etdi. Xatırladaq ki, İlham Əliyev Moldovada keçirilən görüşdə Fransa Prezidenti ilə Almaniya Kanslerinin iştirakına etiraz etməmişdi.

İlk növbədə onu qeyd etməliyik ki, qeyri-rəsmi görüşdə aparılan müzakirələrin heç bir mənası yox idi. Çünki sülh danışıqları yalnız vasitəçilik missiyasını üzərinə götürən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və ya Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə Azərbaycan və Ermənistan rəhbərləri arasında aparılır. Yəni sülh danışıqlarının aparılması yalnız qalib və məğlub tərəf arasında mümkündür.

→ 7

## Milli Məclis etiraz etdi:

### Avropa Parlamentinin qətnaməsi separatizmə açıq dəstəkdir

→ 4

## Avropa Parlamenti erməni lobbisinin son səngəridir




→ 8

## Müharibə cəlladları ədalət mühakiməsi qarşısındadırlar





→ 9

## Cinayətkarların həbsi beynəlxalq hüquqa da tamamilə uyğundur





→ 9

## Böyük qayıdış proqramı sürətlə icra olunur

### Növbəti 3 ildə 100 mindən çox keçmiş məcburi köçkün yurduna qayıdacaq

→ 11

## Keşişlər və generallar Paşinyana qarşı qiyam hazırlayırlar

### Erməni Apostol kilsəsi xalqı və hərbçiləri kütləvi etiraza səslədi

→ 7

## Regionda separatizm məhv edilib

### Rusiya sülhməramlılarının Azərbaycan ərazisində fəaliyyətinə artıq ehtiyac qalmır

→ 9

MÖHTƏŞƏM 20 İL

## Hər bir azərbaycanlının Prezidenti

**Cənab İlham Əliyevin yüksək siyasi keyfiyyətləri, Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin ən layiqli yetirməsi olması hələ ölkə prezidenti olmazdan əvvəl özünü göstərmişdi.**

İlham Əliyev buna qədər Milli Məclisin deputatı, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi Heydər Əliyevin inkişaf kursunun, siyasi xəttinin həyata keçirilməsində fəal iştirak etmiş, Ulu Öndərin müəyyən etdiyi milli prioritetlərin reallaşmasına dəyərli töhfələrini vermişdi. İlham Əliyevin Avropa Şurasında həyata keçirdiyi fəaliyyət vətənə və dövlətə xidmətin ən möhtəşəm nümunələrindən idi və bundan hamımız, Milli Məclisdəki bütün deputatlar hədsiz qürur hissi keçirirdik.

### Heydər Əliyev yolunun layiqli davamçısı

Bütün bunlar cənab İlham Əliyevə cəmiyyətimizdə dərin hörmət və yüksək nüfuz qazandırmışdı. Ona görə İlham Əliyevin Baş nazir vəzifəsinə təyin edilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyevin Milli Məclisə müraciəti xalqımız tərəfindən alqışlarla qarşılanmışdı. 2 aydan bir qədər artıq davam edən baş nazirliyi dövründə cənab İlham Əliyevin ortaya qoyduğu mükəmməl nümunələr onun yüksək siyasi keyfiyyətlərini nümayiş etdirmişdi.

Ulu Öndər Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciəti isə bütün xalqımızın - dövlətçiliyimizin daha da qüdrətlənməsini, Azərbaycanın inkişafını, vətəndaşların yüksək sosial rifahını düşünən insanların arzularının bariz ifadəsi idi. Həmin müraciətində Heydər Əliyev deyirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".

→ 10

# Azərbaycanla Serbiya arasında qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin inkişafı üçün yaxşı zəmin yaradılıb

## Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Milli Assambleyasının Sədrini qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.

Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. Qonaq ilk növbədə Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Serbiya Milli Assambleyasının Sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

# Azərbaycan-İran dostluğu və əməkdaşlığı bütün bölgə üçün önəmli amildir

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş ilk növbədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.

Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu deyərək Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.

# Azərbaycan Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verir

## Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının Sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klugen Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-nin Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-nin ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının Sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.

Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.

# Gəncə şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən stadionun yenidən qurulmasının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin, tarixinin və dilinin təbliği işini genişləndirmək məqsədilə **qərara alıram:**

1. Ankara şəhərində Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanları (qurumları) tərəfindən normayaratma fəaliyyətinin təşkilində və həyata keçirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə səmərəliliyin və operativliyin təmin olunması məqsədilə, habelə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Normativ hüquqi aktlar" informasiya sistemi yaradılsın.

2. "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

3. "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

4. Müəyyən edilsin ki:

4.1. "Normativ hüquqi aktlar" informasiya sistemi (bundan sonra - Sistem) Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən normativ hüquqi aktların layihələrinin hazırlanmasını, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını və yuxarı orqanlara təqdim olunmasını elektron qaydada təmin edir;

4.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, operatoru funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Sistemin aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

6.1. Sistemin formalaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

6.2. Sistemin "Hökumət buludu"nda yerləşdirilməsi üçün texnoloji mühiti təmin etsin;

6.3. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə təmin etsin.

7. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

7.1. Sistemi mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin Sistemin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

7.2. Sistemin informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə sahib və operatorla birlikdə zəruri tədbirlər görsün.

8. "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 492; 2007, № 11, maddə 1103; 2011, № 7, maddə 645; 2014, № 3, maddə 243; 2018, № 5, maddə 948) 1-ci hissəsi ləğv edilsin.

9. Bu Fərmanın 3-cü hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.4-cü bəndi və 6-cı hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 882; 2011, № 2, maddə 143, № 6, maddə 534, № 9, maddə 810; 2012, № 1, maddə 18, № 3, maddə 248; 2013, № 5, maddə 548, № 11, maddə 1346; 2014, № 1, maddə 28, № 2, maddə 174, № 9, maddələr 1080, 1108; 2015, № 11, maddə 1361, № 12, maddə 1552; 2016, № 3, maddə 531; 2017, № 5, maddə 919; 2018, № 2, maddə 269, № 10, maddə 2043; 2019, № 4, maddə 687; 2020, № 2, maddə 166; 2021, № 12, maddə 1445; 2023, № 6, maddə 805) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi"ndə dəyişikliklər təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Baş nazir Əli Əsədov Serbiya Milli Assambleyasının Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 6-da ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçlə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Serbiya arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin səviyyəsindən məmnunluq ifadə edilib. Dövlət başçıları arasında sıx təmasların və qarşılıqlı səfərlərin münasibətlərin inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabr ayında Serbiyaya rəsmi səfəri zamanı prezidentlər tərəfindən imzalanan Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandumun dövlətlərarası əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırdığı qeyd olunub. Eyni zamanda Serbiya Prezidenti Aleksandar Vuçiçin ötən ilin dekabrında Azərbaycana işgüzar səfərinin ikitərəfli əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Baş nazir cari ilin may ayında Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak və çıxış etdiyinə görə Vladimir Orliçə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan və Serbiya həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Tərəflər ticarət dövriyyəsinin və qarşılıqlı investisiyaların artırılması istiqamətində əlavə addımların atılması zərurətini təsdiq ediblər. Bu xüsusda cari ilin aprel ayında Belqradda keçirilən birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasında əldə olunan razılaşmaların praktiki icrasının vacibliyi vurğulanıb.

Energetika sahəsində əməkdaşlığa toxunularaq ötən ilin oktyabr ayında Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyəti vurğulanıb, Bolqarıstan-Serbiya İnterkonnektoru istismara veriləndən sonra Serbiyanın da Azərbaycan qazını ala biləcəyi diqqətə çatdırılıb.

Görüşdə həmçinin iki ölkə arasında nəqliyyat-tranzit, bərpaolunan enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycanla Serbiya dost və strateji tərəfdaş ölkələrdir

Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 6-da ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçlə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə, Milli Assambleyanın Sədrinin Milli Məclisin plenar iclas zalında salamlama mərasimi olub. Milli Məclisin deputatları qonağı alqışlayıblar.

Sonra parlament spikerləri arasında görüş keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova qonağı Azərbaycan parlamentində salamlayaraq Vladimir Orliçin ölkəmizə ikinci dəfə səfər etdiyini qeyd edib, bunun ölkələrimiz arasında dostluq münasibətlərinin səviyyəsinin göstəricisi və əlaqələri bütün sahələrdə inkişaf etdirməyə hazır olmağımızın təzahürü kimi dəyərləndirib. Sahibə Qafarova Milli Assambleya Sədrinin Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakı çərçivəsində Azərbaycana, həmçinin özünün bu ilin mayında Serbiyaya rəsmi səfəri və bu səfərlər çərçivəsində aparılan müzakirələri məmnunluqla xatırladıb.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Serbiya dost və strateji tərəfdaş ölkələrdir. Prezident İlham Əliyevin dediyi kimi, Serbiya Azərbaycanın Avropada ən yaxın dostlarından biridir. Ölkə prezidentləri arasındakı dostluq münasibətləri əlaqələrimizin daha da genişlənməsində mühüm rol oynayır. Qeyd edilib ki, ikitərəfli münasibətlərin dərinləşməsində yüksək-səviyyəli səfərlər, görüşlər böyük önəmə malikdir.

Görüşdə tərəflər beynəlxalq təşkilatlarda, xüsusilə də suverenlik və ərazi bütövlüyü məsələlərində ölkələrimiz arasında tərəfdaşlığın və həmrəyliyin mövcud olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova görüşdə regionda mövcud olan vəziyyət barədə geniş məlumat verib. O diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfərdən sonra ötən üç ildə Ermənistan ölkəmizin suverenliyini və ərazi bütövlüyünü pozmaq üçün bütün vasitələrdən, o cümlədən hərbi-siyasi təxribatlar, ərazilərin minalanması, Azərbaycan ərazilərində separatizmin dəstəklənməsi kimi vasitələrdən istifadə edib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın 10 minlik silahlı qüvvələrinin, qanunsuz rejimin mövcudluğu və davamlı hərbi təxribatlar cari il sentyabrın 19-da Azərbaycanı lokal antiterror tədbirləri görməyə məcbur edib. Bu tədbirlər yalnız qeyri-qanuni hərbi birləşmələri və hərbi infrastrukturu hədəfə almış, mülki əhaliyə və obyektlərə hücum edilməmişdir. Spiker, bununla bağlı iddiaların əsassız olduğunu qeyd edib. Onun sözlərinə görə, terrorla mübarizə tədbirləri 24 saatdan az müddətdə öz məqsədlərinə çatıb. Nəticədə Ermənistanın silahlı qüvvələri ərazilərimizdən çıxarılır, separatçı rejimin qanunsuz strukturları ləğv olunub və Azərbaycan öz suverenliyini bərpa edib.

Milli Məclisin Sədri deyib ki, artıq Qarabağ bölgəsindəki etnik ermənilərin reinteqrasiya prosesinin həyata keçirilməsinə başlanılıb. Qısa müddət ərzində Azərbaycan hökumətinin xüsusi nümayəndəsinin erməni sakinlərinin nümayəndələri ilə üç görüşü keçirilib və onlara atılacaq əməli addımlarla bağlı planlar təqdim olunub. Spiker Qarabağın erməni sakinlərinə humanitar yardımların göndərildiyini, onlara miqrasiya və sosial müdafiə sahəsində yerlərdə xidmətlər göstərildiyini, müvafiq qeydiyyat proseslərinə başlanıldığını bildirib və əlavə edib ki, Azərbaycan vətəndaşlığını qəbul edəcək şəxslərin bütün hüquqları və təhlükəsizliyi təmin olunacaq.

Görüşdə iqtisadi əlaqələrin daha da dərinləşməsinin əhəmiyyəti vurğulanıb. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma işlərində Serbiya şirkətlərinin iştirak etmək istəyi diqqətə çatdırılıb.

Görüşdə humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq qeyd olunub ki, Azərbaycan və Serbiya xalqları arasında dostluq dövlətlərarası münasibətlərin inkişafı üçün möhkəm əsasdır. Şuşa şəhəri ilə Serbiyanın Novi Pazar şəhərinin qardaşlaşması bu baxımdan yüksək qiymətləndirilib.

Söhbətdə qeyd edilib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın Serbiya Respublikasına rəsmi səfəri çərçivəsində imzalanan Azərbaycan və Serbiya parlamentləri arasında anlaşma memorandumu iki ölkənin parlamentləri arasında münasibətlərin daha da genişlənməsinə xidmət edir.

Serbiya Milli Assambleyasının Sədri göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək dost Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu söyləyib. O, ölkələrimiz arasında mövcud olan sıx əlaqələrin dinamik inkişafından razılığını ifadə edərək iki ölkənin dövlət başçıları arasında münasibətlərin əlaqələrin inkişafında mühüm əhəmiyyətini qeyd edib.

Serbiyanın spikeri Azərbaycana onun ölkəsinin ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını ifadə edərək Serbiyanın da hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb.

Vladimir Orliç Qarabağda mövcud olan vəziyyətə dair faktlarla yaxından tanış olduqlarını qeyd edərək əminliklə bildirib ki, Azərbaycan Qarabağda yaşayan erməniəsilli şəxslər üçün ən yaxşı şəraiti yaradacaq. O vurğulayıb ki, hazırda dünyada mövcud olan ikili standartlar yalan məlumatların yayılmasına gətirib çıxarır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Zəngilanda Azərbaycanla İran arasında avtomobil körpüsünün təməlqoyma mərasimi keçirilib



Oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirinin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri, komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş iştirak ediblər.

Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri, çayın əvvəlki məcrasına qaytarılma məqsədilə görüləcək sahilbərkitmə və məcratəmizləmə tədbirləri və İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında inşa ediləcək yeni dəmiryolu xətti və körpülərinin planları barədə aidiyyəti dövlət qurumları tərəfindən Şahin Mustafayevə və Mehrdad Bəzrpaşa ətraflı məlumat verilib.

Həmsədrlər avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəricilərinin ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini xüsusi qeyd ediblər. Belə ki, 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək.

# Serbiya Milli Assambleyasının Sədri Vladimir Orliç Azərbaycana rəsmi səfərə gəlib



**Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliç oktyabrın 6-da ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Serbiya Milli Assambleyasının Sədrini Milli Məclis Sədrinin müavini Adil Əliyev, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev, Serbiyanın ölkəmizdəki səfiri Draqan Vladisavljeviç və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Serbiya parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda rəsmi səfərdə olan Serbiya parlamentinin Sədri Vladimir Orliçin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 6-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Adil Əliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Baş nazirin müavini Şahin Mustafayev İranın yol və şəhərsalma naziri ilə görüşüb



Oktyabrın 6-da Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev ilə İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, tərəflər bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında təməlqoyma mərasiminin keçirilməsi, müvafiq inşaat işlərinə başlanılması və inşa ediləcək yeni dəmir yolu xətti və körpülərinin planlarının müzakirəsi ilə bağlı məmnunluqlarını ifadə etdilər.

İki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə Azərbaycanla İran arasında nəqliyyat və kommunikasiya, enerji və su ehtiyatlarından istifadə ilə bağlı ikitərəfli gündəlikdə duran aktual məsələlər müzakirə edildi.

Tərəflər regionun tranzit cəlbediciliyinin artırılmasının önəmini qeyd edərək, "Şimal-Cənub" dəhlizinin vacib komponenti olan Astaraçay üzərində inşa edilmiş körpünün yaxınlaşma yollarının tikintisi və sərhəd-gömrük infrastrukturunun yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyini vurğuladılar.

Eyni zamanda Astara yük terminalının tikintisinin tezliklə başa çatdırılması üçün dövlət qurumlarına müvafiq tapşırıqlar verildi.

Görüşdə həmçinin "Xudafərin", "Qız qalası" və "Ordubad-Marazad" hidroqovşaqlarının və su-elektrik stansiyalarının tikintisi layihələrinin tezliklə yekunlaşdırılması məqsədilə işlərin sürətləndirilməsinin vacibliyi qeyd edildi.

Danışıqların yekunlarına görə, iki ölkə arasında aşağıdakı sənədlər imzalandı:

- İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur İqtisadi Rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu xəttinin və dəmir yolu körpülərinin tikintisi haqqında Niyyət Protokolu;

- Azərbaycan-İran dövlət sərhədində Ağbənd (Azərbaycan Respublikası) - Kəlalə (İran İslam Respublikası) dövlət sərhədinin buraxılış məntəqələrində Araz çayı üzərində avtomobil sərhəd körpüsünün və piyada keçidinin tikintisinə dair Birgə İşçi Qrupun həmsədrlərinin görüşünün Protokolu.

# Uduzan yenə Ermənistandır

## Yeni körpü Şərqi Zəngəzur iqtisadi rayonunun logistik mərkəzə çevrilməsinə imkan verəcək

44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə sayəsində regionda yeni siyasi və iqtisadi imkanların yaranması danılmaz reallıqdır. Bu reallığı doğuran səbəblərdən biri də odur ki, Ermənistan, Azərbaycan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanatla iki qonşu ölkə qarşılıqlı surətdə kommunikasiyaların açılması barədə razılığa gəlmişlər.



Bəyanatda bununla bağlı deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmərinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın Qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir".

Məlumdur ki, Azərbaycan bəyanatdan irəli gələn öhdəliyə əməl edərək Qarabağın Rusiya sülhməramlılarının yerləşdiyi ərazisi ilə Ermənistan arasında əlaqə yaratmaq üçün yeni yol hətta vaxtından əvvəl çəkib qurtardı. Lakin Ermənistan öz öhdəliyinə bu günədək əməl etməyib. Əksinə, Zəngəzur dəhlizinin açılmasını yubadaraq ondan ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etmək yolunu tutub.

Ermənistanın həmişə başqa ölkələrin forpostu olduğunu hamı bilir. Bu ölkənin siyasətini adətən xaricdəki qüvvələr müəyyənləşdirir. O üzdən Ermənistan rəhbərləri öz ölkələri üçün sərfəli olan bu beynəlxalq əhəmiyyətli layihənin icrasına da təkbaşına qərar verə bilmirlər.

Amma bir deyimdə vurğulandığı kimi, "müqəddəs yer boş qalmır". İran İslam Respublikası yaranmış vəziyyətdən istifadə etməyə qərar verib. Bununla ermənilər yenə aldadılmış vəziyyətlə üz-üzədir. Qonşu ölkədə əsl siyasi həngamənin bundan sonra başlanacağı gözlənilir. Orada ağlı başında olan siyasətçilər anlayırlar ki, ölkələrinin daha bir mühüm beynəlxalq kommunikasiya layihələrindən kənarda qalmaq təhlükəsi yaranıb.

Azərbaycan isə həmişəki kimi uduş vəziyyətindədir. Yeni körpü vasitəsi ilə İran İslam Respublikasından keçən yol Zəngəzur dəhlizinə, demək olar, paraleldir. Yeri gəlmişkən xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bir neçə gün əvvəl demişdir ki, Ermənistan Zəngəzur dəhlizindən imtina edərsə, yol İran ərazisindən keçəcək.

Görünən odur ki, Zəngəzur dəhlizi bundan sonra Ermənistan yalnız yalvardığı halda, həmçinin bizim üçün daha sərfəli olan şərtlərlə açıla bilər. Sözsüz ki, bu, həmişə düzgün və qətiyyətli qərar verən Prezident İlham Əliyevin növbəti qələbəsidir. İndi Ermənistan və onun havadarları dövlətimizin başçısının bu siyasi gedişindən mat vəziyyətindədir.

Xatırladaq ki, Zəngəzur dəhlizi dünya ticarət dövriyyəsində ən önəmli layihələrdən biridir. Ölkəmizin layihənin icrasını təkidlə tələb etməsi də bununla bağlıdır. Bu dəhlizin açılması ilə Naxçıvan Muxtar Respublikasının 30 illik blokadasına son qoyulacaq, Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələr daha da möhkəmlənəcək. İkincisi, bu yol Çin, Rusiya və Orta Asiyadakı türkdilli dövlətlərlə iqtisadi əlaqələrin inkişafına yeni töhfə verəcək, Azərbaycandan keçən tranzit yüklərin həcmini artıracaq. Yeni körpülər istifadəyə verildikdən sonra Zəngəzur dəhlizinə alternativ olacaq İrandan keçən yol isə bütün bunlarla yanaşı, cənub qonşumuzla əlaqələri də genişləndirəcək.

Nəhayət, sözügedən körpünün inşasına start verilmişdir. Dünən Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilmiş və tikinti işlərinə başlanmışdır.

Tədbirdə ölkəmiz tərəfdən Baş nazirin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İran tərəfdən yol və şəhərsalma naziri, adıçəkilən komissiyanın həmsədri Mehrdad Bəzrpaş iştirak etmişlər.

Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri, çayın əvvəlki məcrasına qaytarılma məqsədilə görüləcək sahilbərkitmə və məcratəmizləmə tədbirləri və İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında inşa ediləcək yeni dəmiryolu xətti və körpülərinin planları barədə aidiyyəti dövlət qurumları tərəfindən Şahin Mustafayevə və Mehrdad Bəzrpaşa ətraflı məlumat verilmişdir.

Həmsədrlər avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəricilərinin ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini xüsusi qeyd etmişlər. Bildirilmişdir ki, 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 olacaq. O da vurğulanmışdır ki, yeni yolun çəkilişi regionun logistik mərkəzə çevrilməsinə imkan verəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan və Serbiya dostluğa, strateji tərəfdaşlığa əsaslanaraq bir-birini daim dəstəkləyir

"Azərbaycan ilə Serbiya arasında əlaqələr ən yüksək səviyyədədir. Bu, dövlətlərimizin başçıları arasındakı çox gözəl şəxsi münasibətlərdən, əməkdaşlıq, etibar və qarşılıqlı hörmətdən qaynaqlanır. Bu dostluq və strateji tərəfdaşlığa əsaslanaraq, biz əsl dostlar kimi bir-birimizi daim dəstəkləyirik. Əhəmiyyətli hesab etdiyimiz məsələlərdə bir-birimizin yanındayıq. Serbiya Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir".

AZƏRTAC xəbər verir ki, bu sözləri ölkəmizdə səfərdə olan Serbiya Respublikasının Milli Assambleyasının Sədri Vladimir Orliç jurnalistlərə müsahibəsində söyləyib.

Səfər çərçivəsində Prezident İlham Əliyev ilə görüşməkdən böyük şərəf və məmnunluq hissi duyduğunu vurğulayan qonaq söhbət zamanı həqiqi və güclü dostlar kimi ikitərəfli münasibətlərimizin daha da uğurlu inkişafı istiqamətində qarşılıqlı fəaliyyətin önəminin vurğulandığını qeyd edib. Bildirib ki, parlamentlər də bu işə öz töhfəsini verəcəklər.

"İndiyədək çox gözəl əməkdaşlığımız mövcud olub. Serbiyanın nümayəndə heyəti bu ilin mayında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Milli Məclisin xüsusi sessiyasında da iştirak edib. Biz bu gün də fürsətdən istifadə edib Ulu Öndər Heydər Əliyevin xatirəsinə dərin ehtiramımızı bildirdik. İki ölkə arasında icra olunan layihələrin uğurla davam etdirilməsinə ümidvarıq. Ancaq mühüm əhəmiyyət kəsb edən həm də eyni dəyərləri və prinsipləri dəstəkləməkdə davam etməkdir. Hər iki ölkə BMT-nin Nizamnaməsində təsbit olunan beynəlxalq ictimai hüququ dəstəkləyir. Bu, hazırkı dünyada asan deyil. Ancaq ədaləti, insanların və dövlətlərin hüquqlarını, eləcə də öz hüquqlarımızı qorumağın yeganə yolu budur", - deyə Vladimir Orliç bildirib.

# Milli Məclis etiraz etdi:

## Avropa Parlamentinin qətnaməsi separatizmə açıq dəstəkdir



Oktyabrın 6-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Avropa Parlamentində Azərbaycanı hədəf alan çirkin siyasi aksiya təşkil olunub. Ölkəmizə qarşı böhtanlar üzərində qurulan qərəzli bir qətnamə qəbul edilib.

Parlamentin spikeri qeyd edib ki, belə bir qeyri-obyektiv sənədin ortaya çıxması onu göstərir ki, Avropa Parlamentində bəzi qüvvələr Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri, Qarabağ bölgəsində suverenliyimizin tam bərpa olunması, münaqişənin tarixə qovuşması ilə heç cür barışa bilmirlər. Qeyd edib ki, işğal dövründə mövcud olmuş və artıq özünü buraxmış qondarma qurumun dəstəklənməsi separatizmə rəvac verməyə yönəlib.

Sahibə Qafarova deyib ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün həyata keçirilən tədbirlərin görməzliyə vurulması Avropa Parlamentinin ikili standartlardan əl çəkə bilmədiyini göstərir. Azərbaycanın etnik təmizləmədə ittiham edilməsi isə siyasi məsuliyyətsizliyin ən bariz nümunəsidir.

Milli Məclisin Sədri bildirib ki, sözügedən sənəd, əsasən fransalı deputatların təşəbbüsü ilə hazırlanıb və müzakirəyə çıxarılıb. Bu heç də təsadüfi deyil, çünki Fransa bütün dəyərləri bir kənara qoyaraq açıq-aşkar təcavüzkar Ermənistan dövlətinin yanında yer alıb.

Bildirilib ki, həm Fransada, həm də bəzi digər ölkələrdə və təşkilatlarda Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr bilsinlər ki, bütün cəhdləri əbəsdir. Haqq-ədalət Azərbaycanın tərəfindədir. Azərbaycan güclü dövlətdir və xalqımızı yenidən fəlakətə sürükləmək istəyən qüvvələrin qarşısını almağa qadirdir. Prezident İlham Əliyevin dediyi kimi, "uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik".

Sonra bu məsələ ətrafında müzakirələr başlayıb və Sahibə Qafarovanın təklifi ilə Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Milli Məclisin Bəyanatını hazırlamaq üçün deputat Nizami Səfərovun rəhbərliyi ilə 5 deputatdan ibarət komissiya yaradılıb.

Müzakirələrdə Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, parlamentin komitə sədrləri Səməd Seyidov, Tahir Rzayev, Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Elman Nəsirov, Jalə Əliyeva, Azay Quliyev, Bəhruz Məhərrəmov, Vahid Əhmədov, Kamilə Əliyeva, Sahib Alıyev, Rasim Musabəyov çıxış edərək Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli münasibətini pisləyiblər, bu qurumun torpaqlarımızın Ermənistanın işğalı altında olduğu 30 il ərzində bir dəfə də olsun Azərbaycanın problemləri ilə bağlı məsələlərə diqqət göstərmədiyini qeyd ediblər.

Müzakirələrdən sonra deputat Tural Gəncəliyev Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatını oxuyub. Sənəd səsə qoyularaq qəbul edilib *(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib)*.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Gündəliyin ikinci məsələsi olan "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 1 fevral 2023-cü ildə qüvvəyə minmiş "Nağdsız hesablaşmalar haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, qanunda qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlərin nağdsız qaydada həyata keçirilməsi təsbit edilmişdir. Bu qanun layihəsi də həmin qanuna uyğunlaşdırma məqsədilə təklif olunub.

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa təmsil etdiyi komitənin layihə barədə müsbət rəyini bildirib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra spiker bildirib ki, növbəti məsələ olan Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi də uyğunlaşdırma xarakterlidir və bir oxunuşda qəbul olunacaq.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihə barədə məlumat verib. O bildirib ki, "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununda bir oxunuşda qəbul olunan sənədlərin siyahısı genişləndirilib. Həmin məsələ Milli Məclisin Daxili Nizamnaməsində də öz əksini tapmalıdır.

Layihə səsə qoyularaq qəbul edilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Qiymətləndirmə fəaliyyəti haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, bazar iqtisadiyyatı şəraitində qiymətləndirmə fəaliyyətinin təşkilinin, onun funksiyalarının əhəmiyyətindən söz açıb, dövlət mülkiyyətinin özəlləşdirilməsindən, bazar iqtisadiyyatının formalaşdırılmasının vacibliyindən bəhs edib. Bildirilib ki, ölkəmizdə ilk dəfə 1998-ci ildə "Qiymətləndirmə fəaliyyəti haqqında" qanun qəbul edilib. Bu sənədin o dövr üçün bu sahədə münasibətlərin tənzimlənməsi baxımından mütərəqqi qanun olduğu qeyd edilib.

Tahir Mirkişili ötən müddət ərzində bu sahədə bəzi boşluqların yarandığını və yeni bir qanuna ehtiyac duyulduğunu deyərək Azərbaycanda ictimai sektorun bu istiqamətdə fəallığının artırılması, habelə Qiymətləndiricilər Palatasının formalaşdırılması ilə bağlı, digər yeniliklərin layihədə öz əksini tapdığını bildirib. O, daşınar və daşınmaz əmlakın alqı-satqısı, girov qoyulması, sığorta, vergi, vərəsəlik məsələlərində qiymətləndirmədən geniş istifadə olunduğunu, düzgün qiymətləndirmənin aparılmasının və bu istiqamətdə haqlı rəqabətin inkişaf etməsinin qarşıda duran əsas məsələlərdən olduğunu qeyd edib.

Komitə sədri bildirib ki, ölkə Prezidenti tərəfindən parlamentə təqdim olunan qanun layihəsinin qəbulu bu sahədə yeni mərhələdə qiymətləndiricilərin fəaliyyətinin tənzimlənməsi, onların məsuliyyətinin müəyyən edilməsi, digər məsələlərin həllinə imkan yaradacaq.

Müzakirələr zamanı çıxış edən deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Elşad Mirbəşiroğlu layihə barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev qaldırılan məsələlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Sonra iclas Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynlinin sədrliyi ilə davam edib.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vəzifələri təsis edilib. Təklif olunan dəyişiklikdə həmin vəzifənin dövlət qulluğunun inzibati vəzifələrinin birinci təsnifatına daxil edilməsi nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin altıncı məsələsi olan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) müzakirəyə təqdim edilib.

Əli Hüseynli bildirib ki, "Dövlət qulluğu haqqında" qanuna təklif olunan dəyişikliklər dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslərin xüsusi, hərbi, diplomatik rütbələrinin uyğunlaşdırılması qaydalarını tənzimləmək məqsədilə hazırlanıb. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə təklif olunan dəyişikliklər isə miqrasiya orqanlarında qulluq edənlərin hüquqi vəziyyətinin və iş şəraitinin yaxşılaşdırılmasına yönələn dəyişikliklərdir.

Layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli məlumat verib ki, ölkəmizdə səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisin iclasında iştirak edir. Deputatlar qonaqları alqışlarla salamlayıblar.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, layihə müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsini nəzərdə tutur.

Layihə birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında məlumat verib. Komitə sədri bildirib ki, "Ovçuluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan ərazisində ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili, onların fəaliyyətinin effektli həyata keçirilməsi, ovçuluq fəaliyyəti ilə bağlı sahəni tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, layihədə valideyn himayəsindən məhrum olmuş və ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış şəxslərin qanunvericiliklə müəyyən edilmiş hüquqlardan istifadəsinin əsasları təsbit olunub.

Məsələ səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Əli Hüseynli gündəliyin növbəti beş məsələsinin Milli Məclisə bir məktubla daxil olduğunu diqqətə çatdırıb və 10-14-cü məsələlərə dair məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadəyə təqdim edib.

Deputat Əminə Ağazadə bildirib ki, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 26 aprel 2022-ci il tarixli qanununun icrası ilə əlaqədar hazırlanıb.

Belə ki, həmin qanuna əsasən, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər qəbul edilib.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar törədilən cinayətlərdə "şəxsi istehlak miqdarından artıq miqdar" sözləri "xeyli miqdar" sözü ilə əvəz edilir. Eyni zamanda bu cinayətlərin ilk dəfə törədilməsində "xüsusilə külli miqdar" anlayışı müəyyən edilməklə, belə cinayətlərin törədilməsinə görə daha sərt cəzalar nəzərdə tutulub.

Deputat Əminə Ağazadə diqqətə çatdırıb ki, 2022-ci ildə Cinayət Məcəlləsinə qəbul edilmiş dəyişikliklərin qüvvəyə minmə tarixi yeni siyahıların qüvvəyə minməsi ilə şərtləndirilib və yuxarıda adıçəkilən qanunlardakı siyahılarla eyni gündə qüvvəyə minməsi nəzərdə tutulub.

Layihələrin müzakirəsində komitə sədri Hicran Hüseynovanın və deputat Razi Nurullayevin fikirləri dinlənildikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 15-ci məsələsi olan İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. O bildirib ki, təqdim edilən qanun layihəsində inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında "proses iştirakçıları" anlayışının dəqiqləşdirilməsi məqsədilə məcəllənin müvafiq maddələrinə dəyişikliklər nəzərdə tutulub və bir sıra anlayışların, məsələn, "inzibati məhkəmə icraatının iştirakçıları" və "tərəflər" anlayışlarının ifadə etdiyi mənalar müəyyən edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

16-cı məsələ ilə bağlı "İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə məlumat verərək bildirib ki, "Poçt haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) rəqəmsal inkişaf (o cümlədən poçt) və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə nazirliklərinin rəyi nəzərə alınmaqla, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilməsi nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 17-ci məsələsi olan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov məlumat verib. O bildirib ki, layihə "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2022-ci il 27 dekabr tarixli qanunun qüvvəyə minməsi və Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2023-cü il tarixli, 2005 nömrəli Fərmanın icrasını təmin etməklə əlaqədar hazırlanıb. Sənəddə fiziki şəxs tərəfindən şəxsi istehlakı üçün ölkəyə gətirilən mobil cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun məbləğlərinin azaldılması təklif olunub.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib.

Komitə sədri bildirib ki, layihədə Əmək Məcəlləsinin iki maddəsinə dəyişikliklər təklif edilir. Belə ki, 43-cü maddədə "Dövlət sirri haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyan dəyişiklik təklif olunub. Məcəllənin 51-ci maddəsinə təklif edilən dəyişikliyə əsasən, işçi ilə qısa müddətə, yəni 6 ayadək bağlanılmış əmək müqavilələrində sınaq müddəti ən çoxu iki həftə müəyyən ediləcək.

Layihədə "Əmək pensiyaları haqqında" qanuna təklif edilən dəyişikliklər isə "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır və dövlət sosial sığorta sistemində fərdi uçot, fərdi şəxsi hesab, sosial sığorta nömrəsi kimi əsas anlayışların vahidləşməsi əsas götürülür.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

### *Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar*

## Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Milli Məclisi 2023-cü il oktyabrın 5-də Avropa Parlamentinin qərəzli və obyektivlikdən uzaq qətnamə qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır. Xatırladırıq ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Yaxşı olar ki, Avropa Parlamenti Avropada tüğyan edən islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud surətdə pozulması və digər bu kimi köklü problemlərlə məşğul olsun.

Sözügedən qətnamə Fransa hökumətinin təhriki ilə əksəriyyəti bu ölkədən olan anti-Azərbaycan, islamofob deputatların saxta məlumatları əsasında hazırlanmışdır. Avropa Parlamentinin bu addımı onun ikili standartlara əsaslandığının növbəti bariz nümunəsi olub, məsələlərə selektiv yanaşdığını sübut edir. Beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın davam edən işğalının doğurduğu ağrı-acıya, etnik təmizləməyə, Xocalı soyqırımına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə, şəhər və kəndlərin yerlə yeksan edilməsinə, tarixi, mədəni və dini irsin dağıdılmasına etinasızlıq göstərən Avropa Parlamentinin Azərbaycan ərazisində qalmaqda davam edən Ermənistan Respublikası silahlı qüvvələrinin birləşmələrinə və qanunsuz erməni dəstələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərindən sonra Ermənistan Respublikası tərəfindən yaradılmış qondarma qurumun müdafiəsinə yönələn belə bir qətnaməni qəbul etməsi separatizmə açıq dəstək verməkdir.

Qətnamənin əsas təşəbbüskarı olan Fransa son illər Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi yolunda başlıca maneəyə çevrilmişdir. Dünyanın müxtəlif regionlarında iflasa uğrayan Fransa Cənubi Qafqaz bölgəsini yeni təhlükələrə sürükləyərək qeyri-sabit zonaya çevirməyə çalışır. Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək özünün mənfur yeni müstəmləkəçilik təcrübəsini Cənubi Qafqaz bölgəsində tətbiq etməyə çalışması, xristianlıq amilini qabartması və keçmiş münaqişəyə dini təəssübkeşlik mövqeyindən yanaşması onun səlibçi siyasətinin təzahürüdür.

Qondarma "Dağlıq Qarabağ Respublikası" özünü buraxdığını elan etdikdən sonra Avropa Parlamentinin onu müdafiə etməsi siyasi riyakarlıqdan xəbər verir və bölgədə vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Avropa Parlamenti Azərbaycan torpaqlarının işğalı dövründə bu qondarma quruma dəstək verməklə işğalın uzun illər davam etməsi, on minlərlə azərbaycanlının qətlə yetirilməsi üçün məsuliyyət daşıyır.

Məhz bu cür qərəzli və obyektivlikdən uzaq fəaliyyəti ilə Avropa Parlamenti öz nüfuzuna sarsıdıcı zərbə endirir, erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin əlində oyuncağa çevrildiyini göstərir. Avropa Parlamentinin anti-Azərbaycan və islamofob siyasətinin nəticəsidir ki, Avropa Parlamenti ilə Azərbaycanın münasibətləri aşağı səviyyədədir. Avropa Parlamentində təmsil olunan bir sıra deputatlar Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil edir. Belə davranış həm də şovinizmin, ifrat sağ düşüncənin təzahürüdür. Bu yanlış siyasəti ilə Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz siyasətini təhlükə altına atır.

Qətnamədə irəli sürülən iddialardan fərqli olaraq, Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etməsinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir.

BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların səsləndirdiyi bəyanatlara tamamilə zidd olaraq, Avropa Parlamentinin bölgədən könüllü getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin rəhbərliyini korrupsiyaya qurşanmış destruktiv və qərəzli qüvvələri dayandırmağa, Cənubi Qafqaz bölgəsində yaranmış yeni reallıqları əks etdirən obyektiv sənədlər qəbul etməklə bölgədə sülh və sabitlik yaradılması səylərinə dəstək göstərməyə çağırır.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il 6 oktyabr tarixli iclasında qəbul edilmişdir).*

# YAP Sədrinin müavini ilə TBMM Sədri arasında görüş keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir.





Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş arasında görüş keçirilib.

YAP nümayəndə heyətini ölkəsində salamlamaqdan məmnunluğunu ifadə edən TBMM-in Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş Azərbaycan-Türkiyə münasibətlərinin bənzərsiz dostluq və qardaşlıq örnəyi kimi istər ikitərəfli münasibətlərin inkişafı, istərsə də regional əməkdaşlıq və təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Parlament sədri Azərbaycan ilə Türkiyənin bir-birinin milli maraqları və dövlətçilik mənafelərini beynəlxalq arenada layiqincə müdafiə etdiklərini vurğulayıb. "Bu gün qürur hissi və minnətdarlıqla qeyd edirik ki, Azərbaycan növbəti yüzillikdə yeni hədəflərinə əmin addımlarla irəliləyən Türkiyəyə öz qardaş dəstəyini göstərir. Türkiyə də öz növbəsində Azərbaycanın yanında olduğunu, xüsusilə də onun haqlı və ədalətli mövqeyini dəstəklədiyini qətiyyətlə ifadə edir", - deyən N.Kurtulmuş Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin bütövlükdə türk dünyası üçün müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

TBMM-in Sədri iki ölkə arasında parlamentlərarası əməkdaşlığın önəmindən də söz açıb. O, qardaş ölkələrin qanunverici orqanlarında Azərbaycan-Türkiyə dostluq qruplarının fəaliyyətinin, eyni zamanda qarşılıqlı səfərlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb. O bu kontekstdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının və əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən addımların atılmasının ortaq hədəflərin gerçəkləşdirilməsinə zəmin yaratdığını bildirib.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinə göstərilən yüksək diqqətə görə minnətdarlığını ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TBMM-in sədri seçilməsi münasibətilə Numan Kurtulmuşa bir daha təbriklərini çatdırıb və ona fəaliyyətində uğurlar arzulayıb. YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin "bir millət, iki dövlət" fəlsəfəsi əsasında ortaq dəyərlərə, milli maraqlara və ümumi hədəflərə uyğun uğurla fəaliyyət göstərərək strateji müttəfiqlik münasibətlərini dərinləşdirdiklərini diqqətə çatdırıb. O qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi və səyləri sayəsində inkişaf edir: "Biz unikal dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətləri qurmağa müvəffəq olmuşuq. Bütün sahələrdə çoxşaxəli əlaqələrin genişləndirilməsi, işbirliyinin daha da gücləndirilməsi üçün ardıcıl, məqsədyönlü addımlar atılır. Xüsusilə də, 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin uğurla icra olunması həm Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin inkişafı, həm də regionda dayanıqlı sülh, davamlı sabitlik və təhlükəsizlik, etibarlı əməkdaşlıq mühitinin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir".

Tahir Budaqov 44 günlük Vətən müharibəsinin Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinin sarsılmazlığını bir daha sübut etdiyini xüsusi olaraq diqqətə çatdırıb. YAP Sədrinin müavini ikili standartlara, qərəzli və qeyri-obyektiv münasibətə baxmayaraq, Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycanın haqq işini qələbə ilə yekunlaşdırdığını, əzəli və əbədi torpağı olan Qarabağda lokal antiterror tədbirləri həyata keçirərək suverenliyini tam bərpa edən ölkəmizin haqlı və ədalətli mövqeyinin qardaş Türkiyə tərəfindən qətiyyətlə müdafiə olunmasının böyük mənəvi-siyasi önəm daşıdığını bildirib. Tahir Budaqov postmüharibə dövründə ölkələrimizin təşəbbüslərinin inkişafa xidmət göstərdiyini, Türkiyə şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak etməsinin daha bir qardaşlıq və dostluq nümunəsi kimi təqdirəlayiq olduğunu nəzərə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində həm parlamentlər, həm də hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirib. Siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli yerə malik olduğunu söyləyən Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasındakı əməkdaşlığın məmnunluq doğurduğunu qeyd edib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb. Görüşdə Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım və AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya da iştirak ediblər.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

## *Efkan ALA:* "Azərbaycan və Türkiyənin təşəbbüsləri bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edir"

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir.







Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala arasında görüş keçirilib.

Qonaqları salamlayan AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin sarsılmaz və bütün dünyaya nümunə olduğunu diqqətə çatdırıb. O, iki ölkənin bütün taleyüklü məqamlarda qardaşlıq və həmrəylik örnəyi ortaya qoyduğunu vurğulayıb. Efkan Ala qeyd edib ki, Azərbaycan ilə Türkiyə bütün sahələri əhatə edən çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsi nümayiş etdirir və əlaqələrin yüksələn xətt üzrə inkişafı böyük məmnunluq doğurur.

44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlardan bəhs edən Efkan Ala Azərbaycanın lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. O, Azərbaycan ilə Türkiyənin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib.

Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin əhəmiyyətindən bəhs edən Efkan Ala dövlət başçılarımızın siyasi iradələrinə uyğun olaraq iki hakim partiya arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını, bu kontekstdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin mühüm önəm daşıdığını diqqətə çatdırıb. O, YAP ilə AK Parti arasındakı işbirliyinin gücləndirilməsinin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfə olduğunu söyləyib.

AK Parti Sədrinin birinci müavini həm dövlətlərimizin, həm də iqtidar partiyalarının daim birgə hərəkət edərək ortaq hədəfləri reallaşdıracaqlarına və mühüm nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə IV Böyük Fövqəladə Qurultayını keçirən AK Partiyə nümayəndə heyəti adından uğurlar arzulayıb, qurultayın nəticələrinin həm Ədalət və İnkişaf Partiyası, həm də bütövlükdə Türkiyə Rəspublikası üçün faydalı olacağına inamını ifadə edib.

YAP Sədrinin müavini tarixi köklərə və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin hər iki ölkənin liderlərinin məqsədyönlü siyasəti nəticəsində strateji müttəfiqlik zirvəsinə yüksəldiyini, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın ikinci ölkənin olmadığını diqqətə çatdırıb.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyünü və tarixi ədaləti təmin etməsində Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geosiyasi reallıqların regional təhlükəsizlik və işbirliyi üçün mühüm imkanlar yaratdığını bildirib. YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycanın lokal xarakterli antiterror tədbirləri həyata keçirərək konstitusiya quruluşunu bərpa etdiyini və regionda sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində prinsipial mövqe sərgilədiyini bildirib.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin mühüm rolu olduğunu bildirən Tahir Budaqov partiyalarımız arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu söyləyib. YAP Sədrinin müavini qeyd edib ki, 2021-ci ildə iki partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasından sonra işbirliyinin dərinləşdirilməsinə xidmət edən mühüm addımlar atılıb. Xüsusilə də, qarşılıqlı səfərlər və hər iki partiyanın birgə təşkilatçılığı ilə keçirilən müxtəlif tədbirlər münasibətlərə dinamizm gətirib.

Daha sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Qeyd edək ki, YAP Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

## *Tahir BUDAQOV:* "Bir çox sınaqlardan uğurla çıxan Azərbaycan-Türkiyə münasibətləri nümunəvi xarakter daşıyır"

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin qardaş Türkiyə Respublikasına səfəri çərçivəsində oktyabrın 6-da Ankarada Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya ilə görüş keçirilib.





Nümayəndə heyətini salamlayaraq "Vətəninizə xoş gəlibsiniz" deyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya YAP nümayəndə heyətinin səfərinin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib. O, iki hakim partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi xüsusi diqqət mərkəzində olduğunu söyləyib. Z.Sırakaya AK Partinin Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük önəm verdiyini və qarşılıqlı səfərlərin bu baxımdan faydalı olduğunu diqqətə çatdırıb.

Türkiyə ilə Azərbaycanı ortaq tarixi keçmiş və milli-mənəvi dəyərlərin birləşdirdiyini söyləyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini ölkələrimiz arasındakı münasibətlərin dünyada bənzəri olmadığını qeyd edib. O, Azərbaycanın möhtəşəm qələbəsindən sonra regionda yeni reallıqların yarandığını, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün yeni vəzifələr müəyyənləşdirdiyini bildirib. "Hazırkı gerçəkliklər və aktual çağırışlar Azərbaycan ilə Türkiyənin hakim partiyaları arasında təmasların gücləndirilməsini, əməkdaşlığın genişləndirilməsini zəruri edir", - deyən Z.Sırakaya istər dövlətlərimizin, istərsə də iqtidar partiyalarının birgə mühüm nailiyyətlərə imza atacaqlarına əminliyini ifadə edib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini təyin edilməsi münasibətilə Zafer Sırakayaya bir daha təbriklərini çatdıran və fəaliyyətində uğurlar arzulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dərin köklərə malik, dostluq, qardaşlıq və strateji müttəfiqlik zirvəsində olan Azərbaycan-Türkiyə münasibətlərinin bir çox sınaqlardan uğurla çıxdığını və nümunəvi xarakter daşıdığını söyləyib. O, xalqlarımız və dövlətlərimiz arasındakı əlaqələrin 44 günlük Vətən müharibəsindən sonra keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, Türkiyənin Azərbaycana haqq işində göstərdiyi mənəvi-siyasi dəstəyin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini və heç zaman unudulmayacağını vurğulayıb. Postkonflikt dövründə Azərbaycan ilə Türkiyənin milli maraqlara və beynəlxalq hüquq normalarına uyğun müştərək fəaliyyətinin regionda yeni geosiyasi nizam yaratdığını vurğulayan Tahir Budaqov "Bu əməkdaşlıq istər bölgədə sülh və təhlükəsizliyin təmin olunması, istərsə də işğaldan azad edilmiş ərazilərin yenidən qurulması baxımından son dərəcə önəmlidir", - deyə bildirib.

YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin siyasi gündəliyində iqtidar partiyaları arasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm yer tutduğunu diqqətə çatdırıb. O, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti qeyd edib. YAP Mərkəzi Aparatının rəhbəri dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına xidmət edən qarşılıqlı səfərlərin davamlı xarakter daşıdığını və sinxron fəaliyyət nəticəsində diqqətəlayiq uğurların qazanıldığını vurğulayıb, hər iki ölkənin mənafeyinə xidmət edən əməkdaşlığın bundan sonra daha da məhsuldar olacağına əminliyini ifadə edib.

Tahir Budaqov Ədalət və İnkişaf Partiyasının oktyabrın 7-də baş tutacaq IV Fövqəladə Böyük Qurultayının uğurlu olacağına əminliyini ifadə edərək rəhbərlik etdiyi nümayəndə heyəti adından AK Partiyə müvəffəqiyyətlər arzulayıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Azərbaycan ilə Qətər arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsi müzakirə olunub

Oktyabrın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin xarici işlər üzrə dövlət naziri Soltan bin Saad Al-Murayxi ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Qətər arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsi, gündəlikdə duran məsələlər və müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirə olunub. Həmçinin ölkələrimiz arasında həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlərin, siyasi məsləhətləşmələrin münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olduğu vurğulanıb. Söhbət zamanı Azərbaycan ilə Qətər arasında beynəlxalq təşkilatlar və platformalar, xüsusən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və BMT çərçivəsində mövcud olan səmərəli əməkdaşlıq qeyd edilib. Eyni zamanda iki ölkə arasında birgə hökumətlərarası komissiyanın gündəliyində duran məsələlərə toxunulub. Tərəflər iqtisadiyyat, ticarət, investisiya, maliyyə, sənaye, enerji, nəqliyyat, təhsil, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Ceyhun Bayramov qarşı tərəfi Ermənistanın və onun ölkəmizdə qurduğu qondarma rejimin 30 ilə yaxın müddətdə regional sülhə və təhlükəsizliyə törətdiyi çağırışlar barədə məlumatlandırıb. Nazir Azərbaycanın özünün suveren ərazisində beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirdiyi lokal antiterror tədbirlərini şərtləndirən səbəblərdən bəhs edib. Bu xüsusda bölgədə əsas təhdid olan qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyulmasının regionda sülhə və sabitliyə xidmət edəcəyinə ümidvarlıq ifadə olunub.

Qətər tərəfi Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycanla Türkiyə arasında enerji tərəfdaşlığı ölkələrimizin strateji maraqlarına xidmət edir

Azərbaycan ilə Türkiyə arasında uğurlu iqtisadi əməkdaşlıq, birgə reallaşdırılan enerji layihələrinin əhəmiyyəti və əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.



AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf İstanbulda Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla görüşüb.

Görüşdə iqtisadiyyat naziri ölkələrimiz arasında səmərəli enerji tərəfdaşlığını, birgə reallaşdırılan layihələrin regional inkişafa, stabilliyə və təhlükəsizliyə, Azərbaycan və Türkiyənin strateji maraqlarının təmin olunmasına xidmət etdiyini vurğulayıb. Qeyd olunub ki, hazırda enerji təhlükəsizliyi dünyada əsas çağırışlardan birinə çevrilib. Ölkələrimiz arasında bu sahədə, xüsusilə bərpaolunan enerji üzrə əməkdaşlıq imkanlarının reallaşdırılması qarşılıqlı faydalı əməkdaşlıqda mühüm vektorlardandır.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ölkələrimizin iştirakı ilə həyata keçirilən genişmiqyaslı enerji layihələrinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib, enerji tərəfdaşlığının yeni qlobal trendlərə uyğun şəkildə inkişaf etdirilməsi barədə fikirlərini bölüşüb.

Görüşdə ölkələrimizin uğurlu iqtisadi tərəfdaşlığı, enerji və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

# "ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycana qarşı qərəzli ittihamlarla dolu bəyanatını şiddətlə qınayır və rədd edirik"

"Oktyabrın 6-da ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani tərəfindən verilmiş və Azərbaycana qarşı qərəzli ittihamlarla dolu bəyanatı şiddətlə qınayır və rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) ATƏT-in fəaliyyətdə olan sədrinin bölgədəki cari vəziyyətlə bağlı bəyanatına dair şərhində yer alıb.

Bildirilib ki, bu bəyanat ATƏT sədrliyinin mandatına, o cümlədən ATƏT Nazirlər Şurasının Porto iclasının 8 nömrəli Qərarına uyğun olaraq, sədrlik fəaliyyətinin ATƏT-in bütün üzv dövlətləri tərəfindən razılaşdırılmış mövqelərə zidd olmamasının təmin edilməsinə dair tapşırığa açıq şəkildə ziddir.

Şərhdə qeyd olunub: "ATƏT-in Ermənistan tərəfindən bu təşkilatın prinsip və öhdəliklərinin ciddi şəkildə pozulmasına on illərlə davam edən qəbuledilməz etinasızlığı fonunda, birtərəfli və qərəzli fikirlərə əsaslanan bu mövqe ağlabatan hesab oluna bilməz. ATƏT-in, onun sədrliyinin və digər strukturlarının bu kimi məqsədlər üçün sui-istifadəsi eyni zamanda bu təşkilatın hazırda üzləşdiyi problemlərin həlli yollarının tapılması səylərinə xələl gətirir.

ATƏT-ə uzun illərdir Ermənistanın və bir sıra vasitəçi olmağa cəhd göstərən iştirakçı dövlətlərin destruktiv mövqeyi səbəbindən uğursuzluğa düçar olan həll yolunun bir parçası olmaq üçün şansının mövcudluğunu xatırlatmaq istərdik.

Azərbaycanın ATƏT-in mövcud öhdəliklərinə uyğun olaraq ardıcıl çağırışlar etməsinə baxmayaraq, onilliklər ərzində bu təşkilatın ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərpasını və yüz minlərlə azərbaycanlı məcburi köçkünün öz evlərinə qayıtmaq hüququnu təmin etmək üçün öz mandatını yerinə yetirməsinə maneə törədilib. Münaqişədən sonrakı bərpa və quruculuq səylərində, o cümlədən minalardan təmizlənmə proseslərində müsbət rol oynamasına dair ATƏT-ə ünvanlanmış çağırışlarımıza da məhəl qoyulmayıb.

ATƏT-in son üç onillikdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli və Ermənistanın Azərbaycan ərazilərini işğalının nəticələrinin aradan qaldırılması üçün yaradılmış strukturlarından səmərəli istifadədə uğursuzluğa düçar olmasını nəzərə alaraq, bu təşkilatın fəaliyyətdə olan sədrinin müstəqil beynəlxalq müşahidə missiyasına istinadları anlaşılan deyil.

Helsinki Yekun Aktında təsbit olunmuş güc tətbiq edilməməsi prinsipi də daxil olmaqla, bütün prinsiplərin birbaşa olaraq Ermənistan tərəfindən pozulduğunu, habelə BMT Nizamnaməsi və beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həm diplomatik, həm də hərbi baxımdan öz ərazilərinin işğalına son qoymağın hər zaman Azərbaycanın legitim hüququ olduğunu da bir daha xatırlatmaq istərdik.

Bundan əlavə, milli azlıqlara mənsub şəxslərin hüquq və azadlıqlarının qorunması ilə bağlı istənilən mexanizmin, bu şəxslərdən dövlətlərin suverenliyi və ərazi bütövlüyünü pozmaq üçün alət kimi istifadəsini qadağan etdiyini də xatırlatmaq istərdik. Bu baxımdan, biz bütün tərəfləri bu öhdəliyə ciddi riayət etməyə və Azərbaycanın daxili işlərinə müdaxilə etmək cəhdlərindən çəkinməyə çağırırıq.

Azərbaycan öz Konstitusiyasına və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, regionda sülh və Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bərabərhüquqlu vətəndaş kimi reinteqrasiyasına nail olmaq əzmində olduğunu bir daha təsdiqləyir".

# "Fransaya xatırlatmaq istərdik ki, Azərbaycanla təzyiq dilində danışmaq mənasız və qəbuledilməzdir"

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranada görüşü çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa Prezidentinin mətbuat konfransında səsləndirdiyi iddialara dair şərhində qeyd edilib.

Şərhdə bildirilib: "Fransa Prezidentinin Qranadada Azərbaycanın və Türkiyənin iştirakdan imtina etməsi məsələsi ilə bağlı iddiaları riyakarlıq nümunəsidir. Tədbir iştirakçılarının hər birinə yaxşı məlumdur ki, məhz Fransa tərəfi Türkiyənin görüşə qatılmasına qarşı çıxıb. Fransa Prezidentinin bu məsələdə yalan məlumatlar yayması dövlət başçısına yaraşmayan yanaşmadır.

Tarixdə özünün soyqırımı siyasəti ilə yadda qalan, Avropa İttifaqına üzv ölkələr arasında Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına qoşulmayan yeganə ölkə olan Fransanın çoxsaylı etnik xalqların sülh və əmin-amanlıq şəraitində yaşadığı, multikultural və multietnik dəyərləri ilə nümunə təşkil edən Azərbaycana azlıqların hüquqları barədə dərs keçməyə cəhd etməsi qəbuledilməzdir.

Ədalətli vasitəçilikdən danışan Fransanın 23 ilə yaxın dönəmdə necə vasitəçilik etdiyi hər kəsə məlumdur. Eyni ilə azərbaycanlıların yaşadığı kütləvi qırğınlara, onlara qarşı zor tətbiq edilərək düşdükləri məcburi köçkün və qaçqın həyatına, eləcə də BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin gözardı edilməsinə, şəhər və kəndlərin yerlə yeksan edilməsinə, Ermənistanın öhdəliklərinə zidd olaraq Azərbaycandan erməni silahlı qüvvələrini çıxarmamasına, davam etdikləri hərbi-siyasi təxribatlara heç bir əhəmiyyət verməyən Fransanın bitərəf və neytral vasitəçi olduğunu iddia etməsi bu ölkənin niyyətindən xəbər verir".

Nazirliyin şərhində qeyd olunub ki, 30 il müddətində Azərbaycan ərazilərinin 20 faizə yaxın hissəsinin Ermənistan tərəfindən işğalına, hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına göz yuman Fransanın Azərbaycanı Ermənistan ərazilərinin 150 kvadratkilometrlik hissəsinin işğalında təqsirləndirməsi gülüncdür. Azərbaycan heç bir ölkənin ərazisini işğal etməyib və delimitasiya olunmamış sərhəddə Azərbaycanın qüvvələrinin yerləşdiyi ərazilərin Ermənistana məxsus olduğunun iddia edilməsi heç bir məntiqə sığmır.

"Azərbaycan tərəfinin öz ərazilərini həm diplomatik, həm də hərbi yolla işğaldan azad etmək kimi BMT xartiyası və beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim hüququ hər zaman mövcud olub. Məhz Fransa tərəfinin də cəlb olunduğu vasitəçilik səylərinin heç bir nəticə verməməsi, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınmaması Azərbaycanı öz torpaqlarını hərbi yolla azad etməsinə gətirib çıxardı.

Eynilə antiterror tədbirlərinə qədər Azərbaycanın suveren ərazilərindən çıxarılmamış erməni silahlı qüvvələrinin və qondarma rejimin ləğv edilməsinin zəruri olduğu Azərbaycan tərəfindən bütün danışıqlar prosesində dəfələrlə vurğulanırdı. Bununla əlaqədar Fransa Prezidentinin guya Azərbaycanın qeyri-qanuni separatçı rejimə qarşı güc tətbiq etməyəcəyi barədə söz verməsi iddialarının heç bir əsası yoxdur. Fransa Ermənistana yalan vədlər vermək əvəzinə, Ermənistana düzgün istiqamət versəydi, Azərbaycana qarşı olan təhdidi güc yolu ilə həll etməyə ehtiyac olmazdı və məsələ sülh yolu ilə həll olunardı.

Azərbaycana təzyiq edilməsinə çağıran Fransa tərəfinə xatırlatmaq istərdik ki, Azərbaycanla təzyiq dilində danışmaq mənasız və qəbuledilməzdir. Belə məsuliyyətsiz bəyanatlar vermək əvəzinə, Fransanın bölgəmizdə təcavüzkar Ermənistanın dəstəklənməsi və silahlanmasına yönəlmiş, bölgədə sülh və sabitliyə mane olan məkrli siyasətinə son qoyması daha faydalı olardı.

Azərbaycan erməni sakinlərin Azərbaycanın Konstitusiyası və qanunvericiliyi çərçivəsində reinteqrasiyası üçün müvafiq tədbirlər həyata keçirir və ölkəmiz hər zaman olduğu kimi, Ermənistanla qarşılıqlı şəkildə suverenlik və ərazi bütövlüyünə hörmət əsasında bölgəmizdə sülh quruculuğunda ən maraqlı tərəfdir", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində xüsusi vurğulanıb.

# Ölkələrimiz arasında hərbi əməkdaşlıq dostluq və qardaşlıq münasibətləri üzərində qurulub

Oktyabrın 6-da Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılanma mərasimi olub. Hər iki ölkənin müdafiə naziri Fəxri qarovulun önündən keçib. Nümunəvi Hərbi Orkestrin ifasında Azərbaycan və Qazaxıstan respublikalarının Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq general-polkovnik R.Jaksılıkov "Şərəf kitabı"nı imzalayıb. Geniş tərkibdə keçirilən görüşdə müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Nazir ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Qazaxıstanın müdafiə naziri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması münasibətilə həmkarını təbrik edib, şəhid olanlara Allahdan rəhmət diləyib və onların yaxınlarına dərin hüznlə başsağlığı verib.

General-polkovnik R.Jaksılıkov ölkələrimiz arasında hərbi əlaqələrin hazırkı vəziyyətindən məmnunluğunu ifadə edib.

Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sektorunda hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təliminin əhəmiyyəti vurğulanıb. Keçirilən birgə taktiki təlimin hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacibliyi qeyd olunub.

Hər iki ölkənin ordu quruculuğunda qarşılıqlı təcrübə mübadiləsinin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayelin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Sonda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı" imzalanıb.

Görüşdən sonra nümayəndə heyəti Azərbaycan Ordusunun Baş Qərargahının Kibertəhlükəsizlik qovşağını, Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda məntəqələrini ziyarət edərək burada ümumilikdə görülən işlərlə tanış olub.

# "Xəzri-2023" birgə taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib

Oktyabrın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov və digər vəzifəli şəxslər "Xəzri-2023" birgə taktiki təlimi çərçivəsində keçirilən "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla anılıb.

Sonra Hərbi Dəniz Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində nümayəndə heyətinə "Xəzri-2023" birgə taktiki təliminin planlaşdırılması, hazırlıq prosesi, eləcə də mərhələlər üzrə icra olunan fəaliyyətlər barədə məruzələr edilib. Qeyd olunub ki, İran İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyətinin müşahidəçi kimi iştirak etdiyi təlim iki mərhələ üzrə icra olunur.

Təlimdə hər iki ölkənin hərbi qulluqçularının birgə fəaliyyətlərin icrasında yüksək peşəkarlıq nümayiş etdirmələri xüsusi vurğulanıb.

Müvafiq epizodlar üzrə icra olunan tapşırıqları Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında izləyən müdafiə nazirləri təlimin gedişatını müsbət qiymətləndiriblər.

Qeyd edək ki, Azərbaycan və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin gəmilərinin, eləcə də hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təlimi oktyabrın 8-dək davam edəcək.

# Baş Prokurorluğun nümayəndə heyəti OECD-in korrupsiyaya qarşı mübarizəyə dair tədbirində iştirak edib

Oktyabrın 3-5-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransanın Paris şəhərindəki mənzil qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 22-ci plenar iclası və Şəbəkənin İdarə Heyətinin 28-ci görüşü keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd edilən tədbirlərdə ölkəmizi Azərbaycan Respublikasının baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, tərkibinə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev, Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev və Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın Katibliyinin böyük məsləhətçisi Kamran Həsənovun daxil olduğu nümayəndə heyəti tərəfindən təmsil olunub.

Qurumun oktyabrın 3-də keçirilmiş 22-ci plenar iclasında nümayəndə heyətinin rəhbəri Nazim Rəcəbov tərəfindən ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsinə dair geniş məlumat verilib, eləcə də ölkəmiz üzrə dəyərləndirilən hər bir fəaliyyət sahəsi üzrə tədbir iştirakçılarının sualları cavablandırılıb.

Plenar iclasda Azərbaycan üzrə 5-ci dəyərləndirmə mərhələsinin hesabatı müzakirə edilərək qəbul edilib. Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasəti, müvafiq Milli Fəaliyyət Planının icrası, məhkəmə və prokurorluq sistemində həyata keçirilən islahatlar, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində cinayət təqibi və ixtisaslaşmış qurumların fəaliyyəti yüksək qiymətləndirilib.

İdarə Heyətinin iclasında isə Şəbəkənin 2023-2026-cı illər üzrə İş Proqramının, o cümlədən Regional Dialoq, Hüquq Mühafizə Orqanları Şəbəkəsi, Biznesdə Dürüstlük platformalarının və Ölkə Layihələrinin icrası vəziyyəti müzakirə edilib. İclasda həmçinin Avropa Birliyinin Şərq Tərəfdaşlığı ölkələri üzrə Təhsildə Dürüstlük mövzusunda xüsusi sessiyası keçirilib.

Nazim Rəcəbov tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etməsi vurğulanaraq Anti-Korrupsiya Şəbəkəsinin (ACN) növbəti İş Proqramının dəstəklənməsi ifadə edilib.

# BMT-nin insan hüquqları və qaçqınlar üzrə məsul təsisatlarında görüşlər olub

**Qərbi Azərbaycan İcmasının (QAİ) Gənclər Birliyinin sədr müavini, Milli Məclisin deputatı Kamal Cəfərov Cenevrədə icmanın nümayəndəsi qismində BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsində Ermənistanın dövri hesabatının təqdimatı sessiyasında iştirak edib.**

İcmanın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, QAİ-nin nümayəndəsi icmanın alternativ hesabatını təqdim edib. Qərbi Azərbaycan İcmasının hesabatında Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparmasından və geri qayıtmaq hüququ da daxil olmaqla onların İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt ilə qorunan hüquqlarını sistematik şəkildə pozması halları barədə məlumat verilir. K.Cəfərov səfər zamanı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının və "Cenevrə Geostrateji Observatoriyası" təşkilatının məsul şəxsləri ilə görüşlər keçirib. Görüşlərdə Ermənistandan azərbaycanlıların qovulması barədə məlumat verilib, onların beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq geri qayıdış hüquqlarının təmin edilməsinin zəruriliyindən bəhs edilib.

O, Qərbi Azərbaycan İcması barədə də məlumat verərək təşkilatın tarixçəsi, fəaliyyət məqsədləri, o cümlədən bu ilin əvvəlində qəbul etdiyi Qayıdış Konsepsiyasından bəhs edib. Kamal Cəfərov icmanın repatriasiya və reinteqrasiya məqsədləri olduğunu, bu sahədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əməkdaşlığın əhəmiyyətinin Qayıdış Konsepsiyasında da vurğulandığını dilə gətirib. K.Cəfərov UNHCR-ın icma ilə əməkdaşlığa başlanması, Bakı ofisi ilə həyata keçirilən təmasları xatırladaraq bu əməkdaşlığın davam etməsindən məmnunluq duyulduğunu bildirib.

K.Cəfərov həmçinin BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığını Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları ilə yaxından məşğul olmağa çağırıb.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər və insan hüquqları və humanitar hüquq mövzusunda əməkdaşlıq imkanları müzakirə edilib.

# *Qərbi Azərbaycan İcması:* "ATƏT-in fəaliyyətdə olan sədri hiss olunur ki, bəzi anti-Azərbaycan dairələrin təsirinə düşüb"

Qərbi Azərbaycan İcması ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmaninin 2023-cü il 6 oktyabr tarixli açıqlamasını yersiz hesab edir.

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından bildirilib.

"Bəyanatın ruhundan görünür ki, ATƏT özünün kif basmış, tarixin arxivinə getmiş yanaşmasından hələ də tam xilas olmayıb. B.Osmaninin diqqətinə çatdırırıq ki, Azərbaycan ərazisində "Stepanakert" adlı bir ərazi yoxdur.

ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycanla "Yerdə beynəlxalq mövcudluq üçün müzakirələr davam etməlidir" tonunda danışması istehza doğurur. "Müstəqil beynəlxalq müşahidə missiyası"ndan dəm vuran nazir hiss olunur ki, bəzi anti-Azərbaycan dairələrin təsirinə düşüb.

"Mübahisələrin güc yolu ilə həlli qəbuledilməzdir" deyən ATƏT nəyə görə 30 il ərzində Ermənistanın Azərbaycan ərazilərinin işğalını, etnik təmizləmə siyasətini pisləməyib?

Ermənilərin qayıdışı, onların hüquq və təhlükəsizliyinin qorunmasının Azərbaycanın məsuliyyəti olmasından danışan B.Osmaniyə sual vermək istərdik ki, bəs, Ermənistan necə, deportasiya etdiyi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməməlidir?

Əminik ki, ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycan cəmiyyətində ATƏT-in imici barədə kifayət qədər məlumatlıdır və bu mənada, onu öz açıqlamalarında diqqətli və məsuliyyətli olmağa çağırırıq", - deyə Qərbi Azərbaycan İcmasından bildirilib.

# İlham Əliyevsiz istənilən danışıq mənasızdır



## Azərbaycan Prezidenti iştirak etmədən aparılan müzakirələr nəticəsiz qalacaq

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti sammiti öz işinə başlayıb. 2022-ci ildə siyasi və strateji diskussiyalar üçün təsis edilmiş hökumətlərarası təşkilat kimi Avropa Siyasi Birliyinin məqsədi bütün Avropa ölkələrinin siyasətlərinin əlaqələndirilməsi platformasını yaratmaq və qitədə təhlükəsizlik, sabitlik və dərin enerji böhranından sonra vəziyyətin müzakirəsi üzrə ümumi maraq doğuran məsələlərdə siyasi dialoqa və əməkdaşlığa kömək etməkdir.**

Avropa Siyasi Birliyinə Aİ-nin üzvü olmayan ölkələr, o cümlədən Böyük Britaniya, Azərbaycan, İslandiya, Ukrayna, Moldova, Türkiyə, Gürcüstan və Ermənistan da daxildir. Birliyin ilk sammiti 2022-ci ilin oktyabrında Praqada, ikincisi isə cari ilin iyununda Moldovada keçirilib. Əvvəl keçirilən hər iki sammitdə Avropa İttifaqına üzv dövlətlərin liderləri ilə yanaşı, həmçinin Türkiyə, Azərbaycan və Ermənistanın rəhbərləri də iştirak ediblər. Praqada keçirilən sammit çərçivəsində baş tutan sülh danışıqlarına ermənipərəst Fransa Prezidenti Emmanuel Makron da özünü pərçim etdi. Moldovada isə, görüş daha geniş tərkibdə keçirildi və Praqadakı görüş iştirakçıları ilə yanaşı, həmin tədbirdə Almaniyanın Federal Kansleri Olaf Şolts da iştirak etdi. Amma bu, qeyri-rəsmi görüş kimi sadəcə müzakirə xatirinə keçirildi.

Qranada sammitində də eyni şounun davam etdirilməsi gözlənilirdi. Amma şərtləri diktə edən qalib komandan kimi İlham Əliyev bu mənasız görüşə getmədi. Bunun haqlı səbəbləri də vardı. Çünki Azərbaycanın istəyi ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu görüşdə iştirakına icazə verilməmişdi. Danışıqlar masası arxasında özünə yer tutan Fransanın Türkiyə Prezidentinin görüşdə iştirakına etiraz etməsi Bakı üçün başqa seçim yolu qoymadı. İlham Əliyev qeyri-rəsmi görüşdən imtina etdi. Xatırladaq ki, İlham Əliyev Moldovada keçirilən görüşdə Fransa Prezidenti ilə Almaniya Kanslerinin iştirakına etiraz etməmişdi.

İlk növbədə onu qeyd etməliyik ki, qeyri-rəsmi görüşdə aparılan müzakirələrin heç bir mənası yox idi. Çünki sülh danışıqları yalnız vasitəçilik missiyasını üzərinə götürən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və ya Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə Azərbaycan və Ermənistan rəhbərləri arasında aparılır. Yəni sülh danışıqlarının aparılması yalnız qalib və məğlub tərəf arasında mümkündür.

Odur ki, İlham Əliyevin Qranadaya getməməsi Azərbaycanın sülh danışıqlarından imtina etməsi demək deyil. Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də "X" hesabındakı paylaşımda bir daha xatırladıb: "Azərbaycanın Qranada görüşündə iştirakdan imtinasını Ermənistanla danışıqlardan imtina kimi təqdim etmək düzgün deyil".

Hikmət Hacıyev vurğulayıb ki, Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına, rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranada da iştirak etməməyə qərar verib. Azərbaycan, həmçinin ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı olub. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyil.

Dünya şahiddir ki, Azərbaycan Prezidenti İkinci Qarabağ savaşında qalib tərəf olmasına baxmayaraq, bölgədə sülhün təminatı üçün bütün lazımi addımları atır. Sülhün bərqərar olunması üçün Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Amma hər zamankı kimi Fransa bölgədə sabitliyin mövcud olmaması üçün hər cür çirkinliklərə əl atır.

Digər tərəfdən, Azərbaycan qalib dövlətdir və məğlub ölkə, habelə onun havadarları qarşımızda şərt qoya bilməz. Çoxdan yetişən və imzalanması mümkün olan sülh sazişini isə Avropa Siyasi Birliyinin köməyi olmadan da imzalamaq olar. İlham Əliyevsiz hansısa danışığın aparılması qeyri-mümkündür. Azərbaycan Prezidentinin iştirak etmədiyi müzakirələri sadəcə görüş xatirinə görüş adlandırmaq olar. Təbii ki, İlham Əliyevin iştirakı olmadan aparılan istənilən danışıq nəticəsiz qalacaq.

Qranada görüşünə gəlincə, Avropa İttifaqı Şurasının yaydığı bəyanat da bir daha təsdiq edir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu da onu göstərir ki, Emmanuel Makronun bu prosesdə "canfəşanlığına" lüzum yoxdur.

Amma Fransa prezidenti ənənəsinə sadiq qalaraq Qranadada da Azərbaycanın əleyhinə iddialar səsləndirdi. Azərbaycan Xarici İşlər Nazirliyi Makrona layiqli cavab verdi: "Fransa Prezidentinin Qranadada Azərbaycanın və Türkiyənin iştirakdan imtina etməsi məsələsi ilə bağlı iddiaları riyakarlıq nümunəsidir. Tədbir iştirakçılarının hər birinə yaxşı məlumdur ki, məhz Fransa tərəfi Türkiyənin görüşə qatılmasına qarşı çıxıb. Fransa Prezidentinin bu məsələdə yalan məlumatlar yayması dövlət başçısına yaraşmayan yanaşmadır".

Fransa prezidentinin Qranada görüşündə Azərbaycana qarşı mövqeyi fiyaskoya uğradı. Makrona bir daha bəlli oldu ki, Azərbaycanla hədə-qorxu, təhdid dili ilə danışmağın mənası yoxdur. Bunun heç bir nəticəsi olmayacaq. Çünki İlham Əliyev sülh danışıqları ilə bağlı konkret mövqeyini və şərtlərini açıqlayıb və onlar dəyişməzdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın Qranada görüşündən imtinası doğru qərar idi

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən dördtərəfli görüşdə Azərbaycan-Ermənistan məsələləri müzakirə edilib. Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçirilən görüşdə Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qorunmasının vacibliyi vurğulanıb.**



Milli Məclisin deputatı Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın İspaniyada keçirilən beştərəfli görüşdən imtina etməsi doğru qərar idi. Orada müzakirə olunan mövzulara gəlincə isə xatırlatmaq lazımdır ki, ölkəmizin ərazi bütövlüyünü təsdiqləyən sənəd onsuz da mövcud olduğuna görə, məzmunundan asılı olmayaraq başqa bəyanat və bəyannamələr heç nəyi dəyişmir.

"Avropa Siyasi Birliyinin Qranada görüşü çərçivəsində mətbuat konfransı zamanı Fransa Prezidenti Emmanuel Makron Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Fransanın çoxsaylı etnik xalqların sülh şəraitində yaşadığı, multikultural və multietnik dəyərləri ilə dünya ölkələrinə nümunə olan Azərbaycana azlıqların hüquqları barədə dərs keçmək cəhdi qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, Fransa özünün soyqırımı siyasəti ilə dünyada məşhurdur və Avropa İttifaqına üzv ölkələr arasında Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına qoşulmayan yeganə ölkədir", - deyə deputat bildirib.

Müsahibimiz əlavə edib ki, ümumiyyətlə, 30 il müddətində Azərbaycan ərazilərinin 20 faizə yaxın hissəsinin Ermənistan tərəfindən işğalına, hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına göz yumanların özlərini vasitəçi kimi təqdim edib əsassız ittihamlar irəli sürməyə haqları yoxdur.

Fazil Mustafa bəyanatda Ermənistanın (29 min 800 kvadratkilometr) və Azərbaycanın (86 min 600 kvadratkilometr) suverenliyinin, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönələn səylərin dəstəkləndiyini də xatırladıb. Onu da bildirib ki, Şarl Mişel cari ilin 14 may və 15 iyul tarixli bəyanatlarında da bu faktları qeyd edib".

Deputat əlavə edib ki, BMT və digər böyük təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyıblar. Yəni bu məsələ onsuz da şübhə altına salına bilməz. Biz 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzü artıq bərpa etmişik və torpaqlarımızın neçə kvadratmetr olması hər kəsə bəllidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Keşişlər və generallar Paşinyana qarşı qiyam hazırlayırlar

## Erməni Apostol kilsəsi xalqı və hərbçiləri kütləvi etiraza səslədi

Hayastanda ictimai-siyasi vəziyyətin daha böyük sürətlə gərginləşməsi müşahidə olunur. Belə vəziyyətdə ən çox diqqət cəlb edən məqamlardan biri isə bütün ermənilərin katolikosu II Qareginlə, generalların Rusiyanın təhriki ilə baş nazir Nikol Paşinyana qarşı üsyana qalxmasıdır.

İndi katolikos Hayastanda müxalifət liderlərindən olan Avetik Çələbyanı, keçmiş baş nazir və Qarabağ avantürasının ideoloqlarından sayılan Vazgen Manukyanı və digər din xadimlərini başına toplayıb. Toplantı iştirakçıları son günlər baş verən siyasi aksiyaların uğursuzluğuna görə bir-birilərini ittiham ediblər. Sonra Qarabağı tərk etmiş erməniləri hakimiyyətə qarşı qaldırmaq planları müzakirə olunub.

Belə qənaətə gəlinib ki, bu, katolikosların da başlıca rol oynadığı keçmiş rejimin baş nazir Nikol Paşinyanı devirmək və hakimiyyətə qayıtmaq üçün son şansıdır. Eyni zamanda bildirilir ki, katolikosun başçılıq etdiyi dəstə Hayastana gəlmiş Qarabağ sakinlərinin telefon nömrələrinə çıxış əldə edib. İkincilərin Rusiyaya qarşı mənfi münasibətini dəyişmək üçün mesajlar göndərmək, zənglər etmək və hökumət əleyhinə əhvali-ruhiyyəni qızışdırmaq planlaşdırılır. Ən sonda isə zorakılığa əl atmaq və məsələnin qanla da olsa həll etmək üzərində dayanılır.

Erməni Apostol kilsəsi isə bəyanat yayaraq Paşinyan hakimiyyətini avantüralara son qoymağa, xarici siyasətdə, xüsusilə də müttəfiqlərlə münasibətlərdə müdriklik nümayiş etdirməyə çağırıb. Bəyanatda həmçinin ermənilərin Qarabağdan köçməsi nəticəsində yaranmış çətin vəziyyətdən bəhs edilir: "Mövcud çətin sınaqlarla yanaşı, son dərəcə təhlükəli geosiyasi proseslər kontekstində xalqımız üçün yeni ekzistensial təhlükələr yaradan Hayastan hakimiyyətinin yürütdüyü siyasət böyük narahatlıq doğurur".

Qeyd edək ki, 5 il öncə hakimiyyətə gələn Paşinyan II Qareginə qarşı çıxmışdı. Lakin sonradan münasibətləri yaxşılaşdırmağa məcbur olmuşdu. Çünki başqa çıxış yolu qalmamışdı. Paşinyan II Qaregin və onun rəhbərlik etdiyi Eçmiədzin kilsəsi ətrafında yaranan problemli vəziyyəti həll etmək üçün Kilikiya böyük kilsəsinin katolikosu I Arama bütün ermənilərin katolikosu olmağı təklif etmişdi. Lakin I Aram bu təklifdən imtina edərək Paşinyana bildirmişdi ki, kilsə ilə münasibətlər bu üsulla tənzimlənmir. I Aram təklifi qəti rədd etdikdən sonra Paşinyan II Qareginlə münasibətlərini yaxşılaşdırmağa məcbur olmuşdu.

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən buna nail ola bilmədi.

Məğlub ölkədə bu gün ən çox diqqətçəkən məqamlardan biri də Paşinyana müxalif olan rusiyapərəst qüvvələrə, onların yaxınlarına qarşı həyata keçirilən repressiya kampaniyasıdır. Belə görünür ki, baş nazir sadəcə bu addımlar hesabına cəmiyyətdə özünə dəstək əldə etməyə çalışır. Çünki digər müstəvilərdə o, cəmiyyətin dəstəyini əldə etmək üçün hansısa addım atmaqda acizdir və malik olduğu resurslar da buna imkan vermir.

Belə vəziyyətdə Paşinyandan narazılığı artanlar sırasında hərbçilər də az deyil. Erməni mediasının yazdığına görə, ölkənin Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsləri və general heyəti Nikol Paşinyanın təşəbbüsü ilə orduda və nazirlikdə başladılan çoxsaylı araşdırmalara görə çox hiddətləniblər.





Bu barədə "4rd.am" nəşrinə Müdafiə Nazirliyindəki yüksəkçinli məmur məlumat verib. Onun sözlərinə görə, Milli Təhlükəsizlik Xidmətinin apardığı istintaqlar nəticəsində nazirlikdə yaranan gərgin vəziyyət erməni generallarda qıcıq yaradıb: "Bizim hamımıza cinayətkar kimi baxırlar. Məqsəd korrupsiya və qanun pozuntularının ifşa olunması yox, ordunu hamının hədəfinə çevirməkdir. Bir general axtarışa verilib, digərləri həbs olunub, qalanları şahid kimi istintaqa cəlb olunub, başqa biri siyasi fəaliyyətə qoşularaq "pozulub"... Axı onların hamısı bu və ya digər şəkildə ordu və ordu quruculuğu ilə bağlılığı olan adamlardır. Yəni ordudakıların hamısının başını kəsirlər, bəs kim qalacaq? Heç olmasa, ordunun bir hissəsində hökumət şou göstərməməli idi. Qoy nə istəyirlər etsinlər, amma ordudan kənar sahələrdə".

Keçmiş müdafiə naziri Arşak Karapetyan isə yeni hərəkat yaradaraq Paşinyana meydan oxuyub.

Hayastan baş naziri isə ölkəsinin Rusiyadakı səfiri, keçmiş müdafiə naziri Vağarşak Harutyunyanla təcili danışıb və ondan Karapetyanın Moskvada kimin himayədarlığından istifadə etdiyini, hansı planın hazırlandığını və nə gözlənildiyini aydınlaşdırmağı tələb edib. "Joğovurd" nəşri isə yazıb ki, Arşak Karapetyan Nikol Paşinyana qarşı açıq-aşkar ittihamlar səsləndirərək, baş nazirin "atəş açmamaq" əmrinə tabe olmadığını və rəqibə sərt cavab atəşi əmri verdiyini, bundan sonra onu qəfil vəzifəsindən azad etdiyini bildirib: "Təbii olaraq hər şeyin belə olduğu istisna edilmir, çünki ötən gün parlament brifinqlərində Nikol Paşinyanın komanda yoldaşları Karapetyanın arqumentlərini açıq şəkildə təkzib edə bilməyiblər. Paşinyan da hələ ki təkzib etməyib. Ancaq təəccüblüdür ki, əvvəlki hökumət dövründə Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışmış Karapetyan indiyə qədər heç nə deməyib".

Bu arada o da məlum olub ki, Hayastanın müdafiə naziri Rusiyanın təzyiqi ilə vəzifəsini tərk etməyə hazırlaşır. Qeyd olunub ki, ölkənin müdafiə naziri Suren Papikyan bu yaxınlarda bir neçə dəfə istefa məktubu yazıb, lakin Paşinyan onu vəzifədə qalmağa inandırıb. Papikyanın istefa verməsi rusiyalı xadimlərin və Rusiya ilə ən çox təmasda olan şəxslərin etdiyi təzyiqlərlə bağlı olub. Vurğulanıb ki, hakim "Vətəndaş müqaviləsi" partiyasında Paşinyanın siyasətindən, xüsusən də onun anti-Rusiya hərəkətlərindən narazı olan və bunun təhlükəli nəticələr verə biləcəyinə inanan insanlar var.

Bütün bunlar orduda bir çox zabit heyəti arasında ciddi etiraz yaradıb. Bu etirazların böyüməsi nəticə etibarı ilə Hayastanda yeni və daha təhlükəli daxili qarşıdurmaya yola aça bilər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Ermәni mәkrinin ünvanı

**Avropa Parlamenti (AP) oktyabrın 5-dә qәbul etdiyi qәtnamә ilә ermәni mәkrinin yuvası olduğunu bir daha göstәrdi. Әslindә, bu qurum Azәrbaycanla bağlı ard-arda qәrәzli qәtnamәlәr qәbul etmәklә ermәni diasporunun alәtinә çevrildiyini çoxdan tәsdiqlәyib. Riyakarlıqlarının növbәti sübutu olan hәmin sәnәd isә bizim üçün kağız parçasından başqa bir şey deyil.**



Milli Mәclisin deputatı Elman Mәmmәdov qәzetimizә açıqlamasında deyib ki, Avropa Parlamentinin Azәrbaycan әleyhinә qәrәzli qәtnamә qәbul etmәsi birinci dәfә deyil. Bunun üçün Prezident İlham Әliyevin Avropa Parlamentinin ölkәmizә qarşı qәrәzli mövqeyi haqqında dediyi fikirlәri xatırlamaq kifayәtdir. Cәnab Prezidentimiz onların nümayәndәlәrinin gözlәrinin içinә baxaraq bildirmişdi ki, siz Azәrbaycana qarşı Ermәnistandan daha çox şәr-böhtan xarakterli qәrarlar qәbul edirsiz.

"Burada bir çox şübhәli mәqamlar vaxtaşırı üzә çıxır. Açıq-aşkar ortadadır ki, Avropa parlamentindә tәmsil olunan deputatlar Qәrbdә vә digәr yerlәrdә olan ermәni lobbisinin maliyyәsi hesabına seçilir, fәaliyyәt göstәrir vә bizim әleyhimizә qәrarlar qәbul edirlәr. Әslindә, qәbul etdiklәri absurd qәtnamәlәrlә özlәrini ifşa edirlәr. Növbәti dәfә dә heç bir hüquqi әsası olmadan haqdan vә әdalәtdәn uzaq sәnәd imzalayıblar. Bu azmış kimi, hәlә bir tәlәb dә qoyurlar ki, Azәrbaycana qarşı sanksiyalar tәtbiq olunsun", - deyә deputat söylәyib.

Elman Mәmmәdov bildirib ki, Avropa Parlamentinin korrupsiya bataqlığına batmış deputatlarından soruşmaq lazımdır ki, Ermәnistan Azәrbaycan әrazilәrini işğal edib, 30 ilә yaxın müddәtdә işğal altında saxlayanda, torpaqlarımızı talayıb, dağıdıb, viran qoyanda, xalqımıza qarşı soyqırımı törәdәndә, siz harada idiniz. Yoxsa gözlәriniz kor olmuşdu, hәqiqәtlәri görә bilmirdiz?! Necә olurdu ki, Azәrbaycan belә әdalәtsiz vәziyyәtlә üzlәşәndә Aİ Ermәnistana qarşı belә bir tәlәb qoymurdu vә parlamentindә heç bir qәtnamә qәbul etmirdi?! Qarabağda yaşayan ermәnilәrin bir qisminin könüllü olaraq Ermәnistana getmәsini "etnik tәmizlәmә" kimi qiymәtlәndirәn parlamentarilәr, siz vaxtilә nәyә görә etnik tәmizlәyә mәruz qalmış bir milyondan artıq azәrbaycanlının taleyi ilә maraqlanmırdız?!

"Әlbәttә ki, bu kimi yüzlәrlә sualın cavabı bizә çoxdan mәlumdur. Avropa Parlamenti öz fәaliyyәtindә olduqca qәrәzlidir vә orada tәmsil olunan müәyyәn deputatlar ermәni lobbisinin tәsiri altında başlarını itiriblәr. Görünәn odur ki, orada azәrbaycanofobiya geniş vüsәt alıb. Ona görә dә bir sıra avropalı parlamentarilәr vaxtaşırı olaraq ölkәmiz әleyhinә şәr-böhtan xarakterli dinlәmәlәr keçirir vә sәnәdlәr qәbul edirlәr. Lakin bütün Azәrbaycan xalqı o fikirdәdir ki, hәmin qәtnamәlәr kağız parçasından başqa bir şey deyil", - deyә deputat vurğulayıb.

Elman Mәmmәdov әlavә edib ki, Avropa Parlamenti belә davranış sәrgilәmәklә Azәrbaycanla Ermәnistan arasında münasibәtlәrin normallaşmasına әngәl törәdir, bölgәdә gәrginliyi dәrinlәşdirmәk üçün әlindәn gәlәni әsirgәmir.

*Nәzrin QARDAŞXANOVA,*
*"Azәrbaycan"*

# Avropa Parlamenti ermәni lobbisinin son sәngәridir

**Azәrbaycan xalqı olaraq korrupsioner Avropa Parlamentinin oktyabrın 5-dә "qәtnamә" adı altında qәbul etdiyi kağız parçasını qәtiyyәtlә rәdd edirik!**




Üzümüzü ermәni sәrsәmlәmәlәrinin sıralandığı bu kağız parçasının lehinә sәs verәn oyuncaq parlamentarilәrә tutub deyirik ki, Azәrbaycana qarşı tәşkilatlanaraq başlatdığınız bu "xaç yürüşü" iflasa mәhkumdur. Hikkәnizdәn çatlasanız da, qәdim türk yurdu Qarabağı Azәrbaycandan qopararaq fitnәkar ermәni dindaşlarınıza vermәk kimi murdar niyyәtinizә nail ola bilmәyәcәksiniz.

Siz avroparlamentarilәr, gözlәrinizi yumaraq bölgәdәki reallıqlardan tamamilә uzaq, ermәni yalan vә böhtanları ilә dolu bu kağız parçasını qәbul edәrәk elә düşünürsünüzsә ki, Azәrbaycanı milli maraqlarının әksinә hansısa addım atmağa mәcbur edә bilәrsiniz, yanılırsınız...

Qәhrәman Azәrbaycan xalqı, qüdrәtli Azәrbaycan dövlәti sizin iyrәnc vә mәnfur siyasәtinizә, tәzyiqlәrinizә әsla boyun әymәz...

Bizim haqq vә әdalәt uğrunda yürüdüyümüz Zәfәr yolumuz var vә bu yolda qarşımıza çıxan istәnilәn gücü darmadağın etmәk iqtidarındayıq.

## AP-nin Azәrbaycana qarşı qәrәzi nә bu günün, nә dә dünәnin işidir

Әslindә, Avropa Parlamentinin Azәrbaycana qarşı qәrәzi nә bu günün, nә dә dünәnin işidir. Faktdır ki, bu riyakar qurum torpaqlarımızın 30 illik işğalı dövründә bir dәfә dә olsun sәsini çıxartmayıb, Ermәnistana qarşı hansısa qәtnamәlәr qәbul etmәyib, sanksiyaların tәtbiqindәn dәm vurmayıb.

Özünü insan hüquqlarının "keşikçi"si sayan AP 1988-ci ildәn 1993-cü ilә qәdәr 1 milyondan çox azәrbaycanlının etnik tәmizlәmәyә, soyqırımlarına mәruz qalmasına heç bir reaksiya vermәyb, әksinә, biganәlik nümayiş etdirib.

Bәs ermәnipәrәst avroparlamentarilәr, nә zamansa düşündünüzmü ki, 1992-ci ildә Xocalıda ermәni qatillәri tәrәfindәn anasının qarnında, qucağında, gözünün önündә süngülәnәn, başı kәsilәn, doğranan körpәlәrin, uşaqların nә günahı var idi?

Niyә Xocalıda ermәni cәlladları tәrәfindәn övladlarının gözü qarşısında dözülmәz işgәncәlәrә mәruz qalan, tәhqir olunan, diri-diri yandırılan, basdırılan ata-anaların, nәnә-babaların ah-nalәsinә qulaqlarınızı tıxamışdınız?

Nә üçün yurdundan didәrgin düşüb bir tikә çörәyә möhtac qalaraq çadırlarda, vaqonlarda, yataqxanalarda yaşamağa mәhkum olan milyondan çox azәrbaycanlının acınacaqlı vәziyyәtinә kor olmuşdunuz?

İndi ermәniәsilli sakinlәrin Qarabağ bölgәsini könüllü tәrk etmәsini "etnik tәmizlәmә" adı altında böyük hay-qışqırıqla dünyaya car çәkirsiniz, yalan, böhtanlarla dolu kağız parçaları qәbul edirsiniz. Azәrbaycana qarşı ittihamlar sәslәndirir, utanmadan bölgәdәki reallıqlardan çox-çox uzaq, özünüz uydurub özünüz inandığınız yalanlar danışırsınız.

## Bu әmәldәn rüşvәt qoxusu gәlir

Amma nәzәrә alın ki, Avropada oturub "ermәni tәәssübkeşliyi", "xristian dindaşlığı" adı altında çıxardığınız bütün bu mәzhәkәlәrinizdәn korrupsiya, rüşvәt qoxusu gәlir, özü dә ta buralara, Cәnubi Qafqaza qәdәr.

Zәhmәt çәkib bölgәyә tәşrif buyursanız, ya da informasiya әsridir, oturduğunuz yumşaq kreslolardaca yaşananlarla bağlı xәbәrlәri izlәsәniz görәrsiniz ki, reallıqlar tamam başqadır, sizin ermәni ağzı ilә çәrәnlәdiyiniz kimi deyil.

Azәrbaycanın suveren әrazisi olan Qarabağda hazırda mәrkәzi hakimiyyәt tәrәfindәn nizam-intizam yaradılır. Artıq müvafiq qurumlarımız fәaliyyәtә başlayıblar. Eyni zamanda bu bölgәdә yaşayan ermәniәsilli sakinlәrin reinteqrasiyası aparılır.

Hәmçinin Qarabağı könüllü şәkildә tәrk edәn ermәniәsilli vәtәndaşlara hәr cür şәrait yaradılmışdı, hәtta Azәrbaycan polisinin yolda hәmin insanlara qida mәhsulları vermәsi kadrları dünyada böyük maraqla izlәnmişdi.

Onu da xatırladaq ki, Azәrbaycanın razılığı ilә bölgәdә monitorinq aparan BMT missiyası yaydığı mәlumatda etnik tәmizlәmәnin olmadığını, hökumәtimizin Qarabağda sәhiyyә vә digәr sahәlәrdә fәaliyyәtә başladığını, heç bir mülki infrastruktura zәrәr dәymәdiyini bildirmişdi.

Bütün bunlar Avropa Parlamentinin oktyabrın 5-dә Azәrbaycana qarşı qәbul etdiyi ittiham dolu qәtnamәnin qәrәzli vә absurd olduğunu ortaya qoyan faktlardır.

Hәm dә bu faktlar AP-nin ermәni lobbisinin oyuncağına çevrildiyini, avroparlamentarilәrin ermәni puluna olan quduz iştahaları sәbәbindәn haqqa nahaq, ağa qara dediklәrini tәkzibedilmәz şәkildә sübut edir.

## "Bәzәn adama elә gәlir ki, bu qәtnamәlәri Ermәnistan parlamenti qәbul edir"

"Bizә qarşı ittihamlar, tәhqirlәr sәslәndirildi vә yalan mәlumatlar yayıldı. Mәn hәtta Avropa Parlamentinin müxtәlif vaxtlarda qәbul etdiyi anti-Azәrbaycan qәtnamәlәrinin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qәtnamәdәn söhbәt gedir".

Hәlә 2022-ci il iyulun 19-da Prezident İlham Әliyev Avropa Parlamentinin Xarici Әlaqәlәr Komitәsinin sәdri Devid MakAlisterin başçılıq etdiyi nümayәndә heyәtini qәbul etdiyi zaman bu fikirlәri sәslәndirәrәk AP-nin ölkәmizә qarşı qәrәzini onun diqqәtinә çatdırmışdı. Dövlәt başçısı görüş zamanı onu da bildirmişdi ki, әslindә, Avropa Parlamenti Ermәnistan parlamenti ilә müqayisәdә Azәrbaycana qarşı daha çox aqressivdir: "Bәzәn elә gәlir ki, bu qәtnamәlәri Ermәnistan parlamenti qәbul edir vә ya ola bilsin, bәzi ermәni lobbi qruplarının onların üzәrindә müәyyәn tәsiri var. Әks halda, bunu başa düşmәk çox çәtindir".

Tәәssüf ki, Avropa Parlamenti Azәrbaycana qarşı böhtan vә ittihamlarla dolu qәtnamәlәr qәbul etmәk kimi riyakar vәrdişini hәlә dә davam etdirir, nә qәrәzindәn, nә dә pul hәrisliyindәn әl çәkdiyini göstәrir.

## Milli Mәclis AP-nin rәhbәrliyini korrupsiyaya qurşanmış destruktiv vә qәrәzli qüvvәlәri dayandırmağa çağırıb

Milli Mәclisin son iclasında Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qәtnamәsi ilә әlaqәdar bәyanat qәbul edilib.

"Xatırladırıq ki, Azәrbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdәliyi yoxdur. Yaxşı olar ki, Avropa Parlamenti Avropada tüğyan edәn islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütlәvi vә kobud surәtdә pozulması vә digәr bu kimi köklü problemlәrlә mәşğul olsun" deyә vurğulanan bәyanatda, sözügedәn qәtnamәnin Fransa hökumәtinin tәhriki ilә әksәriyyәti bu ölkәdәn olan anti-Azәrbaycan, islamofob deputatların saxta mәlumatları әsasında hazırlandığı qeyd edilir. O da bildirilir ki, Avropa Parlamentinin bu addımı onun ikili standartlara әsaslandığının növbәti bariz nümunәsi olub, mәsәlәlәrә selektiv yanaşdığını sübut edir: "Azәrbaycan Respublikasının Milli Mәclisi Avropa Parlamentinin rәhbәrliyini korrupsiyaya qurşanmış destruktiv vә qәrәzli qüvvәlәri dayandırmağa, Cәnubi Qafqaz bölgәsindә yaranmış yeni reallıqları әks etdirәn obyektiv sәnәdlәr qәbul etmәklә bölgәdә sülh vә sabitlik yaradılması sәylәrinә dәstәk göstәrmәyә çağırır".

## Belә kağız parçaları heç nәyә yaramır

Göründüyü kimi, Avropa Parlamenti bir-birinin ardınca reallıqdan uzaq, Ermәnistanın maraqlarına xidmәt edәn kağız-kuğuz parçaları qәbul etmәklә yalnız özünü nufuzdan salır, oyuncaq qurum olduğunu, utanc ünvanına çevrildiyini ortaya qoyur.

Lakin AP-nin korrupsioner, rüşvәtxor deputatları bu riyakar davranışları ilә heç nәyә nail ola bilmәyәcәklәr.

Faransanın forpostuna çevrilmiş Ermәnistandan fәrqli olaraq Azәrbaycan öz müqәddәratı ilә bağlı bütün qәrarları özü verir, milli maraqlarına tәhdid olan istәnilәn güclәrә qarşı da layiqli mübarizә aparır.

*Yasәmәn MUSAYEVA,*
*"Azәrbaycan"*

# Avropanın adına lәkә gәtirәn tәşkilat

**Vәtәn müharibәsindәn sonra Azәrbaycana qarşı qarayaxma kampaniyalarının genişlәndiyinin, qәrәzli, әdalәtsiz mövqenin formalaşdırılmasına edilәn cәhdlәrin şahidi oluruq. İkili standartlar, demәk olar ki, bәzi Avropa ölkәsinin, beynәlxalq tәşkilatların siyasәtinә çevrilib. Elә üç il әrzindә Avropa Parlamentinin Azәrbaycan әleyhinә qәtnamәlәrin qәbulu üçün dәridәn-qabıqdan çıxması da bunun göstәricisidir.**



Bu tәşkilat hәr vәchlә ölkәmiz әleyhinә qәrәzli vә әdalәtsiz sәnәdin qәbuluna çalışır. Oktyabrın 5-dә AP-nin qәbul etdiyi yalan, iftira dolu sәnәdi dә bu "canfәşanlığ"ın nәticәsidir.

Milli Mәclisin deputatı Aydın Mirzәzadә "Azәrbaycan" qәzetinә açıqlamasında deyib ki, Avropa Parlamentinin qәbul etdiyi qәtnamә çox qәrәzli, onun adına lәkә gәtirәn bir sәnәddir.

Deputatın sözlәrinә görә, Avropa bununla özünü hörmәtdәn salmış, әdalәtә, hәqiqәtә arxa çevirmiş olur. Ermәni yalanlarını Avropanın bayrağına çevirmәk bu tәşkilata heç dә hörmәt gәtirmir. Ortada olan Azәrbaycanın әrazi bütövlüyünü bәrpa etmәsi, separatçı rejimә son qoyması, әrazisindә yaşayan hәr bir kәsә diqqәt göstәrmәsi vә tәhlükәsizliyi tәmin etmәsidir. Ancaq Avropa Parlamentinin müәyyәn bir hissәsi hәqiqәtlәrә göz yumaraq Azәrbaycanın üzәrinә sәlib yürüşünә keçir. Hәmin qәtnamәyә sәs verәnlәrin heç biri Azәrbaycanda olmayıb, ölkәmizin tarixini, reallığı bilmir vә yaxud da bilmәk istәmir.

A.Mirzәzadә vurğulayıb ki, onlar üçün neftlә zәngin olan Azәrbaycanın bu gün Avropanın müәyyәn dairәlәrindәn asılı vәziyyәtә düşmәsi daha sәrfәlidir: "Avropa Parlamenti Azәrbaycanda vәtәndaş qarşıdurmasının olmasını, tez-tez hakimiyyәtin dәyişmәsini, torpaqlarımızın işğalda qalmasını istәyir. Ancaq onlar Azәrbaycanı yaxşı tanımırlar. Azәrbaycanın minilliklәrdәn gәlәn tarixi, dәrin mәdәniyyәti, öz kimliyinә hörmәtlә yanaşması ölkәmizin qәlәbәsini tәmin etdi. Dünya tarixindә az dövlәt var ki, öz gücünә ağrılı problemlәrini hәll edir. Bunu Azәrbaycan bacarır".

Deputat qeyd edib ki, Azәrbaycan tәkcә Ermәnistanla deyil, hәm dә onun arxasındakı böyük qüvvәlәrlә vuruşub vә itkilәr versә dә, torpaqlarını işğaldan azad edib. Avropa Parlamentinin bu әdalәtsizliyi, ikiüzlülüyü, onun tarixindә әn qara sәhifәlәrdәn biri kimi qalacaq. Nә vaxtsa Avropa Parlamenti Azәrbaycanla yüksәk әlaqәlәr qurulmasını özü üçün şәrәf hesab edәcәk. Ancaq Azәrbaycan bunu gözlәmәdәn öz dövlәtçiliyini qurur, problemlәrini hәll edir, әrazi bütövlüyünü tәmin edir: "Heç kәsin mәslәhәti olmadan demokratik, hüquqi, vәtәndaş hüquq vә azadlıqlarının qorunduğu qüdrәtli bir dövlәt qururuq".

Avropa Parlamentinin 5 oktyabr tarixli qәtnamәsi ilә әlaqәdar Azәrbaycan Respublikası Milli Mәclisi bәyanat yayıb. Avropa Parlamentinin qәrәzli vә obyektivlikdәn uzaq qәtnamә qәbul etmәsinә qәti etirazını bildirәn bәyanatda bildirilib ki, Azәrbaycanın bu qurumun qarşısında heç bir öhdәliyi yoxdur. Yaxşı olar ki, bu tәşkilat Avropada tüğyan edәn islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütlәvi vә kobud surәtdә pozulması vә digәr bu kimi köklü problemlәrlә mәşğul olsun. Avropa Parlamentinin bu addımı onun ikili standartlara әsaslandığının növbәti bariz nümunәsidir.

*Әsmәr QARDAŞXANOVA,*
*"Azәrbaycan"*

# Qarabağ problemi bitib

## Bunu Rusiya Prezidenti Vladimir Putin dә etiraf edir

**2020-ci ilin sentyabrında başlayb 44 gün çәkәn Zәfәr müharibәsi tarixi vә hüquqi cәhәtdәn Azәrbaycan әrazisi olan Qarabağın işğaldan azad edilmәsi, Ermәnistanın isә kapitulyasiya aktını imzalaması ilә nәticәlәndi...**

Hәmin ilin 10 noyabrında imzalanan 9 bәndlik üçtәrәfli Bәyanatla tәrәflәr öz üzәrlәrinә konkret öhdәliklәr götürdüklәri üçün atәşkәs elan olundu. Razılaşmanın 4-cü bәndindә aydın şәkildә qeyd olunub ki, Rusiya Federasiyasının sülhmәramlı kontingenti ermәni silahlı qüvvәlәrinin çıxarılması ilә paralel şәkildә Qarabağa yerlәşdirilәcәk... Әfsuslar olsun ki, bütün dünyaya atәşkәs üçün minnәtçi düşüb Rusiyanın vasitәçiliyi ilә buna nail olan Ermәnistan elә ilk gündәn bәyanatın şәrtlәrini müxtәlif bәhanәlәrlә yerinә yetirmәkdәn boyun qaçırdı. Xüsusilә dә qoşunlarının qalıqlarını Qarabağdan çıxarmaq әvәzinә yenidәn silahlanma barәdә planlar qurdu, ardıcıl olaraq tәxribatlar törәtdi, terrorçuluq әmәllәrini davam etdirdi. Sәrhәdlәrin delimitasiyası vә demarkasiya olunması da işğalçı dövlәt tәrәfindәn mәqsәdli şәkildә lәngidildi. Ermәnistanın Qarabağa sәrbәst şәkildә giriş-çıxışı tәmin edildiyi halda qarşı tәrәf Zәngәzur dәhlizini açmadı, illәrdir blokadada saxladığı Naxçıvana gediş-gәlişi tәmin etmәdi. Bunun әvәzindә Laçın yolu әtrafında şou yaradıb siyasi manipulyasiya etdi.

Halbuki imzalanan bәyanata görә, Ermәnistanın hәr iki istiqamәtdә maneәsiz hәrәkәtin tәhlükәsizliyinә zәmanәt vermirdi. Ermәnistan bәyanatın digәr şәrtlәri kimi üzәrinә götürdüyü bu öhdәliyi dә yerinә yetirmәdi...

Özünә yeni "dost" axtaran Ermәnistan rәhbәrliyi 2020-ci il 10 noyabr Bәyanatı ilә ataşkәsә nail olduqdan sonra regionun әn yaxın qonşu dövlәti Rusiyaya da arxa çevirmәyә başladı. Razılaşmaya görә, atәşkәsin qorunmasına, üçtәrәfli Bәyanatın şәrtlәrinin yerinә yetirilmәsinә Qarabağa yerlәşdirilmiş Rusiya sülhmәramlıları nәzarәt etmәli idilәr.

Ermәnistanın üçtәrәfli Bәyanatın şәrtlәrini birmәnalı şәkildә yerinә yetirmәmәsi, nәzarәtindә olan silahlı bölmәlәri Qarabağdan çıxarmaması, separatizmә hәr cür dәstәk göstәrmәsi dövlәtimizi öz әrazilәrimizdә lokal xarakterli antiterror tәdbirlәri keçirmәyә mәcbur etdi. Azәrbaycanın dәfәlәrlә xәbәrdarlıq etmәsinә baxmayaraq, qarşı tәrәf konfrontasiyaya üstünlük verib ara qızışdırmaqla mәşğul oldu. Şübhәsiz ki, bu işdә 2020-ci ildә baş vermiş 44 günlük Vәtәn müharibәsi zamanı öz siyasi mövqeyini itirәn Fransanın rolu da az olmamışdır. Fransa Qarabağda yeni müharibә ocağını alovlandırmaqla Rusiyanı Cәnubi Qafqazdan sıxışdırıb çıxarmaqla, Ermәnistanın "vasitә"si ilә regiona yerlәşә bilәcәyini zәnn edirdi. Amma Azәrbaycan Ordusunun döyüş әzmi, dövlәtimizin çevik diplomatik sәylәri Ermәnistan-Fransa cütlüyünün arzusunu gözündә qoydu. 23 saat 43 dәqiqә çәkәn lokal xarakterli antiterror tәdbirlәri ilә dövlәtimiz bütün torpaqlarımız üzәrindә öz suverenliyini bәrpa etdi! Bununla da Qarabağ problemi әbәdi olaraq bitdi!

Sentyabrın 19-da başlayıb 20-dә bitәn lokal xarakterli antiteror tәdbirlәrindәn sonra tәbii ki, dünyanın gözü yenә Cәnubi Qafqazda, Azәrbaycanda, Qarabağdadır... Dünya hәm dә Ermәnistanın Qarabağı nәhәng silah anbarına çevirdiyinә şahidlik etdi.

2020-ci ilin noyabrında imzalanmış üçtәrәfli Bәyanatın şәrtinә görә, Rusiya sülhmәramlı kontingenti 5 il müddәtinә Qarabağa yerlәşdirildi. Bu müddәt bitdikdәn sonra tәrәflәrdәn birinin etiraz etmәyәcәyi tәqdirdә daha 5 il müddәtinә uzadılacağı sәnәddә qeyd olunub. Dövlәtimizin keçirdiyi lokal xarakterli antiterror tәdbirlәrindәn sonra Qarabağda yaşayan ermәni icmasının nümayәndәlәri vә Ermәnistanın işğal dövründә müxtәlif ölkәlәrdәn gәtirәrәk әrazilәrimizdә qanunsuz yerlәşdirdiklәri ermәnilәr Qarabağı könüllü olaraq tәrk etdilәr. İndi haqlı olaraq sual yaranır: Qarabağdakı sülhmәramlıların gәlәcәyi necә olacaq? Rusiya Prezidenti Vladimir Putin "Valday" Beynәlxalq Diskussiya Klubunun plenar iclasında bildirib ki, Qarabağdakı rus sülhmәramlılarının yalnız atәşkәs rejiminә әmәl olunmasına nәzarәt etmәk hüququ var.

Vladimir Putin daha sonra qeyd edib ki, әvvәllәr Azәrbaycan Prezidenti ilә danışanda İlham Әliyev onu Qarabağın ermәni әhalisinin hüquq vә tәhlükәsizliyinin tәmin olunması barәdә әmin edib. Onun sözlәrinә görә, "Qarabağda indi ermәni qalmayıb, hamısı gedib, ola bilsin ki, 1000-1500 nәfәr qalıb, hamısı gedib, heç kim yoxdur".

Ermәnistanın Qarabağı Azәrbaycan әrazisi kimi tanıdığını vә mәsәlәnin bununla bitdiyini qeyd edәn Rusiya Prezidenti "Ermәnistan Qarabağın statusu mәsәlәsini hәll edib. Qarabağ rәsmi olaraq Azәrbaycanın tәrkibinә keçib", - deyib.

Xatırladaq ki, Ermәnistanın baş naziri Nikol Paşinyan Qranadada (İspaniya) keçirilәn Avropa Siyasi Birliyinin sammiti çәrçivәsindә Aİ, Almaniya vә Fransa ilә görüşdә birgә bәyannamә imzalayıb. Aİ Şurası tәrәfindәn yayılan bәyannamәdә tәrәflәrin Ermәnistanın (29 800 kv. km) vә Azәrbaycanın (86 600 kv. km) suverenliyi, sәrhәdlәrinin toxunulmazlığı vә әrazi bütövlüyünün qarşılıqlı tanınması әsasında Ermәnistan vә Azәrbaycan arasında münasibәtlәrin normallaşdırılmasına yönәlmiş bütün sәylәrә sadiq qaldıqları bildirilir.

Qәtiyyәtlә deyә bilәrik ki, әsrlәrlә iki xalq arasında süni surәtdә yaradılmış münaqişәyә ordumuzun qüdrәti, Müzzәfәr Ali Baş Komandanın qәtiyyәti birdәfәlik son qoydu.

*Elşәn QӘNİYEV,*
*"Azәrbaycan"*













# Hesab verməyin zamanı çatdı

## Dövlətimizə və xalqımıza qarşı cinayətlər törətmiş canilərin hər biri Azərbaycan qanunları ilə layiq olduqları cəzalarını alacaqlar

**Ötən ay həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq Qarabağdakı qondarma respublikanın mövcudluğuna birdəfəlik son qoyuldu. Artıq Azərbaycan torpaqlarında separatçı rejim və "boz zona" yoxdur. Ermənistanın və dünya erməniliyinin torpaqlarımızda ikinci erməni dövləti yaratmaq xülyası tarixin zibilliyinə atılıb.**

### Qətiyyətin və siyasi iradənin təcəssümü

Bütün uğurlar Prezident İlham Əliyevin qətiyyətinin, güclü siyasi iradəsinin sayəsində əldə olunub. Qarabağ üzərində suverenliyimizin təmin olunması, dövlətimizin qüdrətinin, nüfuzunun təcəssümüdür. Təsadüfi deyil ki, başda Fransa olmaqla erməni təəssübkeşləri nə qədər hay-həşir salsalar da, Azərbaycan dövlətinin yaratdığı yeni reallıqlara təsir etmək gücündə deyillər. Təsadüfi deyil ki, Azərbaycana qarşı sanksiyaların mənasız olacağını birmənalı şəkildə ermənilərin yanında yer alan Fransanın prezidenti E.Makron da etiraf etdi. Avropa Parlamentinin oktyabrın 5-də qəbul etdiyi qətnamə isə əvvəlkilər kimi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil.

Azərbaycan dövləti yalnız torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası ilə kifayətlənmədi. Belə ki, dövlətimiz həm də onilliklər boyu torpaqlarımızda separatçılıqla məşğul olanları, müharibə cinayətləri törədənləri, hərbi caniləri də tapıb həbs edərək, ədalət mühakiməsinə çıxarır.

Hələ bir neçə ay əvvəl Vaqif Xaçatryan adlı müharibə canisinin həbs olunması, əslində, ondan xəbər verirdi ki, əli xalqımızın qanına bulaşan, Xocalıda cəlladlıq edən, separatizmə dəstək verən, Azərbaycanı təhdid edən qondarma rejimin bütün ünsürləri gec-tez Azərbaycan qanunları qarşısında cavab verməli olacaqlar. Bu ilin mayında Prezident İlham Əliyev Laçından separatçılara xəbərdarlıq edərək demişdi: "Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər".

### Onları qandallayan güclü Azərbaycan dövlətidir

Prezident İlham Əliyev dedi və etdi. Xəbərdarlıqlardan nəticə çıxarmayan, dövlətimizi təhdid edən, müharibə cinayətləri törədən, separatçılığı maliyyələşdirən Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan kimi ünsürlər indi Azərbaycan qanunları qarşısında cavab verirlər. Bu həmin Ruben Vardanyandır ki, Xankəndidə oturub terrorçuluğu maliyyələşdirir, Azərbaycana qarşı hədyanlar söyləyirdi.

Arayik Harutyunyan isə 2000-ci ildə qondarma respublikanın "prezidenti" kimi "andiçməsini" Şuşada keçirmiş, "vəzifəsinə" başladığı ilk gündən bizi əsassız iddialarla hədələmək yolu tutmuşdu. Vətən müharibəsində isə bu cani Gəncənin raket atəşinə tutulması üçün əmr verdiyi ilə qürurlanmışdı.

Ayrı-ayrı vaxtlarda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan və Bako Sahakyan da əlləri xalqımızın qanına bulaşmış canilərdir. Bu ünsürlər yəqin ki, nə vaxtsa həbs olunacaqlarına inanmaq istəməzdilər. Lakin bu baş verdi və bir vaxtlar torpaqlarımızı işğal etmələri ilə qürurlanan, Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid edən, Şuşada yallı gedən bu ünsürlərin artıq əlləri qandallanıb. Onları qandallayan isə güclü Azərbaycan dövlətidir.

Bəli, haqq-hesabın vaxtı çatdı. Vaxtilə Qarabağda mülki azərbaycanlı əhaliyə qarşı cinayətlər həyata keçirmiş, Xocalı soyqırımını törətmiş, dövlətimizə və xalqımıza qarşı terrorçuluqla məşğul olmuş canilərin hər biri Azərbaycan qanunları ilə layiqli cəzalarını alacaqlar.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Cinayətkarların həbsi beynəlxalq hüquqa da tamamilə uyğundur



**"Azərbaycanın rəşadətli ordusunun Qarabağda qanunsuz erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin nəticəsi xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır. Ordumuzun peşəkarlıqla həyata keçirdiyi bu tədbirlər sayəsində qarşı tərəf qısa müddətdə ağ bayraq qaldırmağa məcbur oldu. Antiterror tədbirlərindən sonra dövlətimiz öz suverenliyini tam təmin etdi".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, qazanılan bu zəfər Prezident İlham Əliyevin dəmir iradəsinin, qətiyyətinin və milli maraqlarımızı dönmədən qorumasının, eləcə də şanlı ordumuzun gücünün parlaq ifadəsidir. Hazırda dövlətimiz tərəfindən Qarabağ ərazisində nizam-intizam yaradılır, müvafiq qurumların əməkdaşları aidiyyəti üzrə öz vəzifələrini yerinə yetirirlər. Təəssüf ki, bu məsələdə Azərbaycana qarşı qarayaxma kampaniyası apararaq dövlətimizi "etnik təmizləmə"də ittiham etməyə çalışan bəzi ölkələr və beynəlxalq təşkilatlar var. Amma Azərbaycan öz qanuni addımları sayəsində beynəlxalq hüquqi prinsiplərə əməl etməsi ilə həmin iddiaların üstündən xətt çəkir.

S.Fətəliyeva xatırladıb ki, Azərbaycanın razılığı ilə BMT missiyası bölgədə monitorinq aparıb və missiyanın yaydığı məlumatda etnik təmizləmənin olmadığı, hökumətin Qarabağda səhiyyə və digər sahələrdə fəaliyyətə başladığı, heç bir mülki infrastruktura zərər dəymədiyi bildirilib. Missiyanın bu məlumatı Azərbaycanı ittiham edən xarici qüvvələrin niyyətini iflasa uğratdı.

Deputatın fikrincə, Ermənistan Qarabağ ermənilərindən istifadə edərək "etnik təmizləmə" şousu yaratmaq istəyir. Bununla da Azərbaycana qarşı beynəlxalq təzyiqlərin göstərilməsinə çalışır. Lakin bu cəhdlərin heç bir əhəmiyyəti yoxdur. Dövlətimiz Qarabağ ermənilərinin vətəndaşlıqla bağlı məsələlərini həll etmək üçün praktiki addımlar atır. Lakin bu, o demək deyil ki, Azərbaycan xalqına, ərazi bütövlüyümüzə qarşı cinayətlər törətmiş şəxslər cəzasız qalacaqlar.

Sevinc Fətəliyeva deyib ki, dövlətimizin güc strukturları bu istiqamətdə lazımi addımlar atır. Ruben Vardanyanın, qondarma rejimin "keçmiş prezidentləri" Arkadi Qukasyanın, Bako Sahakyanın, Arayik Harutyunyanın, daşnak Davit İşxanyanın, eləcə də bir neçə yüksəkrütbəli hərbçinin həbs edilməsi bunu təsdiqləyir. Onların arasında əli günahsız azərbaycanlıların qanına batmış cinayətkarlar var. Hazırda Ermənistan hakimiyyəti bu cinayətkarların həbs edilməsindən də "siyasi şou" düzəltməyə çalışır: "Amma heç nəyə nail ola bilməyəcəklər. Birincisi, Azərbaycan güclü dövlətdir, ona heç bir qüvvə nəyisə diktə edə bilməz. İkincisi də, həmin şəxslərin həbs olunması Azərbaycan qanunvericiliyi ilə yanaşı, beynəlxalq hüquqa da tamamilə uyğundur. Xalqımıza qarşı cinayət törədənlər, günahsız insanları qətlə yetirərək özlərinin "xoşbəxtliyini" qurduqlarını hesab edən bu canilər tarixi ədalətin öz yerini tutacağını düşünməliydilər. Artıq zaman o zamandır ki, onlar layiqli cəzalarını alacaqlar", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Müharibə cəlladları ədalət mühakiməsi qarşısındadırlar



**Azərbaycanın mülki əhalisinə qarşı ağır cinayət törədən və terroru maliyyələşdirən ermənilər Vətən savaşından sonra beynəlxalq hüquq prinsipləri çərçivəsində həbs olunurlar.**

Bu müharibə canilərinin törətdikləri vəhşiliklərə görə layiqli cəzalarını almaları üçün ölkəmizdə bütün lazımi tədbirlər həyata keçirilir. Mülki insanları, körpələri, qocaları belə, vəhşicəsinə qətlə yetirən həmin canilər əlləri qandallanaraq Bakıya gətirilirlər.

Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, müharibə cinayətkarlarının həbs edilməsi həm beynəlxalq hüquq prinsiplərinə, həm də ölkə qanunvericiliyinə uyğundur. Eyni zamanda bu, Azərbaycanın yenilməz gücünü və qüdrətini göstərən faktorlardadır. 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror tədbirlərində zəfər əldə edən Azərbaycan müharibə cəlladlarının layiqli cəzalarını almalarını da hədəf seçib. Həmin cinayətkarların əksəriyyəti uzun illər idi ki, beynəlxalq axtarışa verilib, onlar haqda cinayət işi açılıb.

"Xüsusilə son vaxtlar Azərbaycan mülki əhalimizə qarşı cinayət törətmiş erməni terroristlərin beynəlxalq hüquq prinsipləri çərçivəsində həbslərini həyata keçirir. Məsuliyyətdən yayınmaq istəyən həmin müharibə caniləri əlləri qandallanaraq Bakıya gətirilirlər. Bu, mülki vətəndaşlara qarşı etdikləri cinayətləri utanmadan etiraf edən və bu murdarlıqlarını "qəhrəmanlıq" kimi təqdim edən bütün erməni cəlladlarına dərs olmalıdır. Ermənistan və havadarları başa düşməlidirlər ki, hüququn aliliyi Azərbaycanın əsas prinsiplərindəndir və dövlətimiz cinayətkarlara qarşı sərt mövqeyini nümayiş etdirir", - deyə deputat vurğulayıb.

Vüqar Bayramov qeyd edib ki, otuz il ərzində Azərbaycana qarşı cinayətlər törətmiş, əli məsum insanların qanına bulaşmış xunta rejiminin bütün nümayəndələri layiqli cəzalarını almalıdırlar: "Ruben Vardanyan, Vaqif Xaçaturyan, Arayik Harutyunyan kimi irqi ayrı-seçkilik zəminində Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri törətmiş erməni qatillərin sayı çoxdur. Həyata keçirilən tədbirlər nəticəsində həmin cinayətkarlar bir-bir həbs olunaraq cəzalandırılmalıdırlar. Onların layiqli şəkildə cəza alması xalqımızın gələcəyi üçün əhəmiyyətlidir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ruben Vardanyan saxlanma şəraitindən razıdır

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi saxlanma yerlərinə əvvəlcədən xəbərdarlıq etmədən baş çəkib. Ombudsman tərəfindən beynəlxalq və milli hüquq normalarının tələbləri əsasında keçirilən növbəti başçəkmə çərçivəsində bir çox təqsirləndirilən şəxs, o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılaraq həbs edilmiş Vardanyan Ruben Karlenoviç ilə də görüşülüb.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib. Cari ilin oktyabrın 3-də keçirilmiş başçəkmə zamanı Ruben Vardanyan ombudsman tərəfindən fərdi qaydada dinlənilib, müraciətləri yerində cavablandırılıb. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada hüquqlarının təmin olunma vəziyyəti monitorinq edilib.

O, saxlanma şəraitindən razılığını bildirib, ilkin tibbi müayinədən də keçdiyini və səhhətində hər hansı bir problemi olmadığını qeyd edib. Ailə üzvü ilə telefon danışığı, sovqat qəbulu, kitabxanadan istifadə və informasiyaya ça-



tım imkanları təmin olunub. Eyni zamanda həbs edilmiş şəxsin istintaq dövründə hüquqlarının müdafiəsi ailəsinin seçdiyi vəkil tərəfindən həyata keçirilir.

Ombudsmanın işgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun üzvlərinin, ixtisasca həkim və psixoloq ekspertlərinin iştirak etdiyi başçəkmə çərçivəsində görüşdən sonra ona öz dilində qanunvericilik aktları, ombudsmanın səlahiyyətləri və Çağrı Mərkəzinə birbaşa müraciət imkanı ilə bağlı məlumatlandırıcı nəşrlər də təqdim olunub.

Başçəkmə çərçivəsində müəssisədə saxlanma şəraiti - şəxsi gigiyena və sanitariya, tibbi xidmət, qidalanma məsələləri yerində araşdırılıb, saxlanılan şəxslərə münasibətdə də heç bir ayrı-seçkiliyə yol verilmədən hüquqlarının, informasiyaya çatım imkanlarının, lazımi tibbi-psixoloji xidmətin təmin olunduğu müəyyən edilib.

# Regionda separatizm məhv edilib

## Rusiya sülhməramlılarının Azərbaycan ərazisində fəaliyyətinə artıq ehtiyac qalmır

**Rusiya sülhməramlıları kontingenti Ağdərədə, Əsgəran və Şuşa rayonlarında tərəflər arasında keçmiş təmas xətti boyunca müvəqqəti müşahidə məntəqələrinin bağlanmasını başa çatdırıb.**

Bu barədə Rusiya Müdafiə Nazirliyinin məlumat bülletenində bildirilib. Qeyd olunub ki, Rusiya sülhməramlıları tərəfindən Qarabağdakı silahlı birləşmələrin anbarlarında olan silahların, hərbi texnikanın, atıcı silahların və döyüş sursatlarının hesablanması davam etdirilir.

Bülletendə, həmçinin silah, hərbi texnika və sursat anbarlarının mühafizəsinin Rusiya-Azərbaycan birgə mühafizə postları tərəfindən təşkil edildiyi qeyd olunub.

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə danışan hərbi ekspert Ədalət Verdiyev qeyd edib ki, Rusiya sülhməramlı kontingenti bir motoatıcı briqadadan ibarətdi və bu briqadanın tabeliyində iki tabor mövcud olub. Bu taborlardan birinin qərərgahı Ağdərədə, ikincisinin isə Xankəndiyə yaxın ərazidə yerləşib. Artıq Ağdərə istiqamətində olan üç rayondan rus kontingentinin öz postlarını yığışdırması və onların fəaliyyətinə son verməsi onu deməyə əsas verir ki, sülhməramlılar öz məsuliyyət zonasını təxminən iki dəfə azaldıb. Taborlardan biri öz fəaliyyətini dayandırıb. Həmin şəxsi heyətin Xocalı və Xankəndi ətrafında yerləşdiyi ehtimal olunur.

Rus sülhməramlılarının əlavə mövqelər tutmasına ehtiyac olmadığını vurğulayan ekspert əlavə edib ki, yaxın perspektivdə onların digər taboru da öz fəaliyyətini məhdudlaşdıracaq və ya qismən dayandıracaq.

Artıq sülhməramlıların Azərbaycan ərazilərində hansısa fəaliyyətinə ehtiyac qalmır. "Onların əsas funksiyası atəşkəs rejiminə nəzarət etməkdən ibarət idi. Bu zərurət erməni silahlılarının ərazidən çıxarılması və silah-sursatın Azərbaycana təhvil verilməsi prosesi ilə aradan qalxıb. Rusiya kontingentinin müddətdən əvvəl, bəl-



kə də bu ilin sonuna qədər Azərbaycan ərazilərindən tamamilə çıxarılmasının şahidi olacağıq", - deyə Ə.Verdiyev əlavə edib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# MÖHTƏŞƏM 20 İL

2003
2023

*Əvvəli 1-ci səh.*




# Hər bir azərbaycanlının Prezidenti

2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkilərində Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının namizədi olan cənab İlham Əliyevi birmənalı şəkildə dəstəkləməklə Heydər Əliyev siyasi kursunun, Ulu Öndərin müəllifi olduğu inkişaf siyasətinin davam etdirilməsinə səs verdi. Həmin seçkilərdə xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev oktyabrın 31-də vətənə və xalqa sədaqət andı içdi. Bununla da müstəqil Azərbaycan dövlətçiliyinin tarixində gənc və qətiyyətli bir Prezidentlə yeni dövr başladı.

Bir neçə gündən sonra cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 20 ili tamam olacaq. Dönüb geriyə baxanda, tarixə ekskurs edəndə, müqayisələr aparanda bu 20 ildə Azərbaycanın əsrə bərabər möhtəşəm inkişaf yolu keçdiyini görürük.

## Azərbaycana kənardan baxanlar həsəd aparırlar

Bu 20 ili Azərbaycanın iqtisadi inkişafı baxımından mühüm dövr kimi dəyərləndirə bilərik. Məsələn, 2003-cü ildə bizim dövlət büdcəmizin gəlirləri cəmi 1 milyard 220,9 milyon manat təşkil edirdisə, artıq 2023-cü ildə bu rəqəm 40 milyard manata yaxınlaşıb. Azərbaycanın müdafiə xərcləri 2003-cü ildə cəmi 150 milyon ABŞ dollarına bərabər idisə, indi bu rəqəm 5 milyard manatdan çoxdur və gələn il bir qədər də artacaq. 20 il əvvəl regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Bu il isə valyuta ehtiyatlarımız 67 milyard ABŞ dollarına çatıb ki, bu da təxminən 37 dəfə artım deməkdir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin ölkəmizin iqtisadi yüksəlişi ilə bağlı strategiyası kompleks məzmun daşımaqla bir çox strateji məsələləri özündə birləşdirir. Cənab Prezidentin inkişaf siyasətinin prioritet istiqamətlərindən biri regionların inkişafı idi və bu da təsadüfi deyildi. Çünki inkişafda çevikliyin, davamlılığın və mühüm makroiqtisadi nəticələrin əldə olunması həm də regionların inkişaf etdirilməsindən ibarətdir. Məhz bu səbəbdən hələ ilk prezident seçkiləri zamanı cənab İlham Əliyev regionların inkişafı ilə bağlı prioritetləri xüsusi platforma şəklində elan etmişdi və ötən 20 ilin yekunları göstərir ki, bu prioritetlərin hər biri dövlət proqramlarının icrası ilə həyata vəsiqə alıb. Bu dövrdə Azərbaycanın iqtisadi potensialı hərəkətə gətirilib, sovet vaxtında respublikamızda olmayan istehsal sahələri yaradılıb.

Bu siyasətin bir istiqamətini Azərbaycanda qeyri-neft sektorunun inkişafı təşkil edir. Təsadüfi deyil ki, bu gün Azərbaycanın istehsalı olan məhsullar Çindən Amerikaya qədər dünyanın yüzlərlə dövlətinə ixrac edilir. "Made in Azerbaijan" brendi dünyada populyarlaşıb. Neft ölkəsi kimi tanınan Azərbaycan artıq həm də qeyri-neft sektoru məhsullarının istehsalçısı kimi tanınır. Azərbaycanın dövlət büdcəsində tədricən neft gəlirlərinin qeyri-neft gəlirləri ilə əvəzlənməsi bu istiqamətdə həyata keçirilən siyasətin uğurlarından xəbər verir.

Təbii ki, əldə olunan bu nailiyyətlər həm də uğurla reallaşan iqtisadi islahatların, ölkədə azad sahibkarlıq mühitinin yaradılmasının, dövlət proqramları ilə qarşıya qoyulmuş vəzifələrin icrasının nəticəsidir. Bütün bunlarla yanaşı, Azərbaycanın müxtəlif strateji hədəflərə də uğurla çatması bugünkü inkişafımızı təmin edən əsas faktorlar sırasında yer alır. Prezident İlham Əliyevin qətiyyəti, müdrikliyi və siyasi-diplomatik uzaqgörənliyi ilə reallaşan enerji layihələri bu gün Azərbaycanın həm iqtisadi inkişafına təkan verən, həm də respublikamızın qlobal mövqelərini əhəmiyyətli dərəcədə yüksəldən, siyasi-iqtisadi amillər kimi özünü göstərir. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi enerji siyasətini qətiyyətlə davam etdirən cənab İlham Əliyevin iradəsi ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft-qaz kəmərləri bu gün respublikamızın inkişafına, xalqımızın sosial rifahının yüksəldilməsinə xidmət edir. İlham Əliyev həm də Ulu Öndərin enerji siyasətini yeni ştrixlərlə zənginləşdirən liderdir. Belə ki, möhtərəm Prezidentin siyasi iradəsi ilə ərsəyə gələn "Cənub qaz dəhlizi" Azərbaycanın qlobal enerji bazarlarındakı və beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirib, ölkəmizi qlobal miqyasda söz sahibinə çevirib. Təsadüfi deyil ki, Avropa İttifaqı dövlətlərinin üçdəbiri bu gün Azərbaycanın strateji tərəfdaşıdır. Ukraynada davam edən müharibənin fonunda yeni çağırışlarla üzləşən Şərqi Avropa ölkələri bu gün məhz Azərbaycan qazı ilə təmin olunurlar.

Prezident İlham Əliyevin Azərbaycanı uğurla çatdırdığı digər strateji hədəf isə respublikamızın regionun tranzit-logistik mərkəzinə çevrilməsidir. Bu mənada, son 20 ilin ən böyük iqtisadi, həm də siyasi uğurlarından biri Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin həm keçdiyi, həm kəsişdiyi bir məkana çevrilməsidir. Ötən 20 ildə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi, ölkəmizdəki bütün hava yollarının yenidən qurulması, avtomobil yollarının genişləndirilməsi, Xəzər dənizində üzən gəmi və bərələrimizin sayının artırılması, Bakıda Beynəlxalq Dəniz Limanının salınması, Ələt Azad İqtisadi Zonasının yaradılması Prezident İlham Əliyevin nə qədər uzaqgörən və müdrik dövlət xadimi olduğunu göstərir. İndi Şimaldan Cənuba, Şərqdən Qərbə gedən nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Respublikamızın bu sahədə gördüyü işlər, həyata keçirdiyi layihələr qlobal iqtisadi zəncirin lokomotivlərindən olan Çin dövləti tərəfindən diqqətlə izlənilir. Təsadüfi deyil ki, Çin dövləti "Bir kəmər-bir yol" təşəbbüsü çərçivəsində Azərbaycandan keçən nəqliyyat dəhlizlərinə böyük maraq göstərir.

Beləliklə, ötən 20 ildə Azərbaycan həm sürətli iqtisadi inkişafa nail olub, həm qlobal enerji təhlükəsizliyində aparıcı mövqeyə sahib olub, həm də, regionun nəqliyyat qovşağına çevrilib. Bunların hər biri Azərbaycanın yalnız müasir deyil, bütün dövlətçilik tarixinin ilkləridir. Bu möhtəşəm nailiyyətləri tamamlayan digər bir tarixi uğur isə Azərbaycanın kosmik kluba daxil olmasıdır. Bəli, bu gün fəzada indi özümüzün, müstəqil dövlətimizin peykləri uçur və Azərbaycan dövlətinin qüdrətini kainata bəyan edir. Budur, cənab İlham Əliyevin qürurdoğuran inkişaf siyasətinin uğurları…

## Yüksələn sosial rifah 20 ilin əsas reallıqlarından biridir

Cəmiyyətdə sosial ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Sosial ədalət Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Fəxrlə deyə bilərik ki, sosial ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə daha inkişaf etmiş formada özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınmasıdır. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Ötən 20 ildə Prezident İlham Əliyevin siyasətində bunlar açıq şəkildə özünü göstərib. Bu dövrdə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində vətəndaşların rifahının yaxşılaşdırılması dayanıb və bütün tədbirlər məhz bu məqsədə xidmət edib. Bu baxımdan 20 ilin ən böyük həqiqətlərindən biri odur ki, xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq möhtərəm İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin əsas prinsipləridir. Dövlət başçısının qeyd etdiyi kimi: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır".

Ötən 20 ildə sosial sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin etibarlı sosial müdafiə sisteminin formalaşmasını təmin edib. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq, orta aylıq əməkhaqqı 2003-cü ildə 77,4 manat idisə, indi bu rəqəm 900 manatdan artıqdır. 2003-cü ildə Azərbaycanda adambaşına düşən ÜDM 888,6 ABŞ dolları olduğu halda, ötən ilin yekunlarına əsasən bu rəqəm 13292,2 manata bərabər olub. Əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və digər istiqamətlərdə sistemli tədbirlər bu gün də davam etdirilir, bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Bu illər ərzində 2 milyondan artıq yeni iş yerinin yaradılması sosial siyasətin ən böyük uğurlarındandır.

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində ölkəmizdə ardıcıl sosial islahatlar aparılmaqla sosial müdafiə və aktiv məşğulluq proqramlarının xeyli genişlənməsi, müasir və etibarlı, dayanıqlı sosial müdafiə sisteminin qurulması, sosial ödənişlərdə davamlı artımlar təmin edilib. Xüsusilə son 5 ildə 4 sosial islahat paketi icra olunaraq vətəndaş rifahının təminatı istiqamətində ciddi irəliləyişlərə nail olunub. Belə ki, 2018-ci ildən indiyədək minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 60 faiz, minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2 dəfə, sosial müavinət və təqaüdlər üzrə ödənilən illik vəsaitdə 5 dəfə artım baş verib.

Ötən 20 ildə 3 min 200-dən çox məktəb binasının, 750-dən çox tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi, 40-dan çox olimpiya mərkəzinin və yüzlərlə müxtəlif idman qurğularının inşası nəticə etibarilə uğurlu sosial siyasətin təqdirəlayiq nümunələridir.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsi, o cümlədən əlillər, müharibə veteranları, aztəminatlı vətəndaşlar bu illər ərzində daim diqqət mərkəzində olub. Yoxsulluğun səviyyəsinin 5 faizə düşməsi, şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14 mindən artıq mənzil və fərdi evin təqdim olunması bu diqqətin ayrı-ayrı nümunələridir. "Məşğulluğa Dəstək Layihəsi" ölkəmizdə özünüməşğulluq proqramının genişləndirilməsində, həssas qrupların kiçik biznesə çıxışının dəstəklənməsində mühüm rol oynayıb. Ümumiyyətlə, sosial-iqtisadi həyatın bütün sahələrində aparılan islahatlar nəticəsində sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi davamlı olaraq genişləndirilib. Bu kateqoriyadan olan şəxslərlə bağlı həyata keçirilən siyasətin nəticəsi olaraq onların cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu, dolğun həyat şəraitinə malik olmaları və cəmiyyətə inteqrasiya olunmaları təmin edilib.

Mənim üçün olduqca qürurvericidir ki, sosial siyasətdə baş verən müsbət dəyişikliklər vaxtilə Milli Məclisdə sosial siyasət məsələləri ilə məşğul olan bir şəxs kimi gözlərim önündə baş verib. Bu illər ərzində elə bir il olmayıb ki, dövlət büdcəsindən sosial sahəyə ayrılan vəsait artırılmasın. Təsadüfi deyil ki, hər dəfə büdcə müzakirələri zamanı növbəti ilin dövlət büdcəsini həm investisiya tutumlu, həm də sosialyönümlü kimi qiymətləndirmişik.

Prezident İlham Əliyevin bu ilin avqust ayında təsdiq etdiyi "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün" Dövlət Proqramı bir daha göstərdi ki, sosial məsələlər daim prioritetdir.

## Qarabağ Azərbaycandır!

Qeyd etmək lazımdır ki, respublikamıza rəhbərliyinin ilk günlərindən torpaqlarımızın işğaldan azad edilməsi Prezident İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətini təşkil etmişdir. Bu gün dönüb tarixə nəzər salanda görürük ki, həm iqtisadi inkişafın, həm sosial yüksəlişin, həm də enerji siyasətinin, beynəlxalq əməkdaşlığın, bütövlükdə, Azərbaycanı qüdrətli dövlətə çevirən bütün fəaliyyət istiqamətlərinin mərkəzində torpaqlarımızın işğaldan azad edilməsi dayanmışdır.

Hələ 2003-cü ildə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev artıq həllini tapmış Dağlıq Qarabağ problemi ilə bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin söylədiyi bu sözlərin öz təsdiqini tapmasının tarixi təntənəsini yaşayır. Cənab İlham Əliyev ilk gündən necə demişdisə elə də etdi, nə demişdisə o da oldu. Möhtərəm Prezident ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesində Azərbaycanın milli maraqlarının əleyhinə olan kiçicik bir təşəbbüsü və ya təklifi belə yaxına buraxmadı. Eyni zamanda Prezident bütün görüşlərdə, bütün tədbirlərdə qətiyyətlə bəyan etdi ki, Azərbaycan dövləti öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək və nəyin bahasına olursa-olsun öz torpaqlarını işğaldan azad edəcəkdir. Bunun üçün Prezident İlham Əliyev ən müasir çağırışlara uyğun hərbi islahatlar həyata keçirdi, ordumuzun döyüş imkanlarını modern səviyyəyə yüksəltdi. Dövlətimizin başçısı hər zaman bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan müharibə yolu ilə torpaqlarını işğaldan azad edəcəkdir. Hələ 2016-cı ilin Aprel döyüşləri təsdiq edirdi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə tam hazırdır.

2020-ci ilin Tovuz döyüşləri və ondan sonra baş verənlər isə təsdiq edirdi ki, sülh danışıqları mənasızdır, yaxud sülh danışıqlarını imitasiya edən, hərbi təxribatlarını artıran, işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz məskunlaşma həyata keçirən Ermənistanı başa salmağın yeganə yolu onu döyüş meydanında cəzalandırmaqdır. Digər tərəfdən artıq Tovuz döyüşlərindən sonra cəmiyyətimizdə belə ab-hava hakim idi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil.

Beləliklə, işğalçı Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribatdan sonra Azərbaycan Ordusu Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə özünün tarixi və şərəfli missiyasının icrasına başladı. Bu müharibə dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. 44 günlük bu savaşda Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu yalnız 30 illik müasir müstəqillik tariximizin deyil, son bir neçə əsrlik tariximizin ən şərəfli səhifəsini yazdı.

## İlham Əliyev saxta erməni iddiasını tarixdən sildi

Qürur hissi ilə deməliyik ki, Prezident İlham Əliyev Vətən müharibəsinin başa çatmasından ötən dövrdə Ermənistanla münasibətlərin normallaşdırılması prosesində də Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edir. Bu sırada Ermənistanın 1991-ci il Alma-ata Bəyannaməsinə əsasən Azərbaycanın ərazi bütövlüyünü tanıması Prezident İlham Əliyevin mühüm siyasi-diplomatik uğurudur.

Ermənistanın 2020-ci il 10 noyabr bəyanatı ilə üzərinə götürdüyü öhdəliklərdən biri məğlub ordusunun qalıqlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağdan çıxarması idi. Lakin Ermənistan bu dövrdə öhdəliyini yerinə yetirmirdi, üstəlik, Qarabağda olan silahlı terrorçu dəstələr Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa-quruculuq işlərinə ciddi maneələr yaradır, təxribatlar törədirdi. Xatırladım ki, hələ bu ilin may ayında Prezident İlham Əliyev Laçından növbəti xəbərdarlığını edərək demişdi ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımızın olduğunu hər kəs yaxşı bilir.

Amma xəstə təfəkkürə malik olmaları 44 günlük müharibəyə qədər və müharibə günlərində olduğu kimi sonra da Ermənistan rəhbərliyinə və Qarabağdakı separatçılara reallıqları dərk etməyə imkan vermədi. Elə buna görə də növbəti dəfə onları "dəmir yumruq" başa saldı. Sentyabrın 19-20-də keçirilən və cəmi 23 saat davam edən antiterror tədbirləri ilə Qarabağdakı erməni silahlı dəstələri darmadağın edildi. Sağ qalanların isə ağ bayraq qaldırmaqdan başqa yolları qalmadı.

Antiterror tədbirlərinin nəticəsi kimi Prezident İlham Əliyev bütün Qarabağda Azərbaycan mərkəzi hakimiyyətinin idarəçiliyini, Azərbaycan dövlətinin suverenliyini təmin etdi. İndi vaxtilə erməni separatçılarının mövcud olduğu Xankəndi şəhəri daxil olmaqla, Qarabağın bütün rayon və şəhərlərində Azərbaycan bayrağı dalğalanır. Bu qürurdoğuran tarixi nailiyyətlərimizin müəllifi isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Ona görə bu günlərdə hər birimiz qürurluyuq, azərbaycanlı olmağımızla bir daha fəxr edirik.

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edir

Hazırda azad edilmiş bütün rayon və şəhərlərdə nəhəng tikinti-quruculuq işləri gedir. Zəngilanın Ağalı və Tərtərin Talış, Laçının Zabux kəndlərinin, o cümlədən Laçın və Füzuli şəhərlərinin sakinləri öz doğma evlərinə qayıdırlar. Artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq. Ümumilikdə isə indiyədək 8 şəhər və 92 kəndin baş planı təsdiqlənib və 30 kəndin təməli qoyulub.

Qarabağ və Şərqi Zəngəzurda "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyalarının bütün komponentləri - "ağıllı dövlət idarəçiliyi", "ağıllı infrastruktur" və xidmətlər, eyni zamanda, "ağıllı təsərrüfat" və biznes mühiti yaradılır. Hər bir yaşayış məntəqəsinin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə edilir.

O cümlədən yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində bir neçə nəhəng layihənin icrası başa çatıb, Zəfər yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanları istifadəyə verilib. Hazırda bütün Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisi ilə dayanıqlı təminatı prosesi davam edir. Eyni zamanda regionun ermənilər tərəfindən vandallığa məruz qalmış flora və faunasının da bərpası diqqət mərkəzindədir. Bir sözlə, azad edilmiş ərazilərimizin bərpası kompleks şəkildə həyata keçirilir. Prezident İlham Əliyev 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində bu barədə deyib: "Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq".

İndiyədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcə 2,4 milyard ABŞ dolları olacaq ki, bu da Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük qayıdışla bağlı güclü siyasi iradəsindən xəbər verir.

Ötən 20 ildə respublikamızda baş verən bütün pozitiv dəyişikliklər, o cümlədən sosial-iqtisadi inkişaf sahəsində əldə edilən möhtəşəm uğurlar, Azərbaycanın regionda və dünyada söz sahibi olan dövlətə çevrilməsi möhtərəm İlham Əliyevin Heydər Əliyev yolunun ən layiqli davamçısı olduğunu göstərir. Cənab İlham Əliyev həm də özünün siyasi davranış nümunələri ilə Azərbaycanın siyasi həyatına yeniliklər bəxş etdi. Dövlətimizin başçısı Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. İlham Əliyev öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə yeni siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi.

2003-cü il oktyabrın 31-də ilk müsahibəsi zamanı jurnalistin "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına İlham Əliyev belə cavab vermişdi: "Həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam".

Ötən 20 ilin yekunu göstərir ki, İlham Əliyevi sadə şəkildə ifadə etsək, doğrudan da xalqımız üçün yaxşı Prezidentdir.

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru,***
***professor***



# Böyük qayıdış proqramı sürətlə icra olunur

## Növbəti 3 ildə 100 mindən çox keçmiş məcburi köçkün yurduna qayıdacaq

Milli Ordumuzun rəşadət və şücaəti sayəsində cəmi 44 günlük qısa zaman kəsimində 30 illik Vətən nisgilimizə son qoyuldu. Böyük zəfərdən qısa müddət keçməsinə baxmayaraq, düşmənin viran qoyduğu yurdlarımız sürətlə bərpa olunur, xarabazarlığa çevrilmiş ev-eşiklərimiz yeniləri ilə əvəz edilir.

Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə Qarabağ və Şərqi Zəngəzurda görülən işlərin nəticəsidir ki, Böyük qayıdış proqramı sürətlə icra olunur. İndiyədək ağalılıların, talışlıların, füzulililər və laçınlıların bəzilərinin yurdlarına köçü həyata keçirilib. Növbəti mərhələlərdə digər şəhər və rayonlarımız da əzəli sahiblərinə qovuşacaqlar.

Otuz il ərzində haqları tapdanmış, ermənilər tərəfindən başlarına min bir faciə gətirilmiş, torpaqlarından didərgin salınmış soydaşlarımız Müzəffər Ali Baş Komandanımızın bərpa etdiyi ərazi bütövlüyü sayəsində tədricən öz el-obalarına qayıdırlar.

### Bu günədək 2 min 297 keçmiş məcburi köçkünün həsrətinə son qoyulub

Böyük qayıdış hazırda dövlət siyasətimizin əsas prioritetlərindəndir. Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri aparılır, "ağıllı kənd", "ağıllı şəhər" layihələri həyata keçirilir. Yeni avtomobil yolları qurulur, dəmir yolu sistemi yaradılır, hava limanları inşa edilir.

Böyük köçün baş tutduğu ərazilərdə məşğulluq siyasətinə də yüksək dəstək verilir. Ənənəvi məşğuliyyət sahələrinin bərpa edilməsi ilə yanaşı, yeni məşğulluq növlərinin yaradılması da dövlət tərəfindən hazırlanan planın bir hissəsidir. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün nəzərdə tutulmuş torpaqların reabilitasiyası üzrə tədbirlərə artıq başlanılıb. Artıq 7 min hektar sahədə dənli bitkilərin əkilməsi də həyata keçirilib.

İşğaldan azad edilmiş şəhər və rayonlarda ən böyük problem isə ərazilərin minalanmasıdır. Bu isə böyük səylər tələb edir. Torpaqların böyük bir qisminin minalardan təmizlənməsi isə gələcəkdə yüz min hektarlarla ərazinin əhalinin istifadəsinə verilməsinə şərait yaradacaq.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" mərhələ-mərhələ icra olunur.

Proqram çərçivəsində indiyədək 133 ailə (649 nəfərə) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 247 ailə (956 nəfər) Laçın şəhərinə, 144 ailə (514 nəfər) Füzuli şəhərinə, 20 ailə (88 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 2 min 297 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub. 2026-ci ilədək Qarabağ və Şərqi Zəngəzura 140 min nəfərin məskunlaşması nəzərdə tutulur.

### İlin sonunadək doğma yurda qayıdanların sayı 5500-ə çatacaq

Zəngilanda keçirilən 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev Böyük qayıdış proqramı və onun icrası çərçivəsində keçmiş məcburi köçkünlər üçün sıfırdan yeni şəhər və kəndlər inşa etməklə, burada müasir texnologiyalar tətbiq etməklə ən yaxşı şərait yaradıldığını bildirib: "Bu gün 8 şəhər və 92 kəndin baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, iri-həcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu, bizim proqramın tərkib hissəsidir".

Ali Baş Komandan İlham Əliyev bildirib ki, önümüzdəki aylarda bu say daha da artacaq: "Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq".

Demək olar ki, işğaldan azad olunmuş ərazilərə qayıdan ailələrin sevinclərini görürük. Keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması ilə bağlı keçirilmiş sorğuya görə, insanların əksəriyyəti dədə-baba yurdlarına geri qayıtmaq arzusundadırlar. Hətta azad olunmuş ərazilərə qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Xalqımızın bu sevincinin, qürurunun və güvəninin səbəbkarı isə Müzəffər Ali Baş Komandanın iradəsi və rəşadətli Azərbaycan Ordusunun şücaətidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



# 7 oktyabr 2020-ci il

# Azərbaycan: ZƏFƏR gündəliyi

Bütün cəbhəboyu döyüşlər davam edir.

Cəbhənin müxtəlif istiqamətlərində qoşunlarımız qazanılan nailiyyəti genişləndirmək məqsədilə döyüş əməliyyatları aparır. Qarşılıqlı artilleriya atışları qeydə alınır.

Düşmənə endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılır. Çoxlu sayda ölən və yaralananlar var.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər var. Bunun nəticəsi olaraq düşmən bölmələrinin şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edir. Digər bölmələrdə döyüş sursatları və yanacaq təminatında ciddi problemlər mövcuddur. Düşmənin bəzi istiqamətlərdəki müdafiə bölmələri arasında qarşılıqlı əlaqənin olmaması səbəbindən onlar bir-birilərinə atəş açır, ölən və yaralananlar var.

❖ ❖ ❖

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verir.

Qoşunlarımızın atəş zərbəsi ilə düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilir.

Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edirlər.

❖ ❖ ❖

Prezident İlham Əliyev "CNN-Türk" və "Euronews" televiziyalarına müsahibə verir.



Hər şeyin plan üzrə getdiyini vurğulayan dövlət başçısı deyir ki, bu gün Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kəndlər işğaldan azad edilib. Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq: "Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir".



Döyüş meydanında məğlub olan Ermənistanın dinc əhaliyə qarşı zorakılıq göstərməsini, cəbhə xəttindən çox uzaq olan şəhər və rayonlarımıza ballistik raketlər atmasını isə Prezident belə şərh edir: "Bu, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətidir. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır".

❖ ❖ ❖

Ali Baş Komandan Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsinə gəlir. İlham Əliyev Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirir.



Prezident qeyd edir ki, Azərbaycan Ordusu döyüş meydanında uğurlar əldə edir, hər gün döyüş bölgələrində aparılan əməliyyatlarla bağlı ona operativ məlumatlar verilir.

Vəziyyət tam nəzarət altındadır və işğal edilmiş torpaqlarımızın bir hissəsi düşməndən təmizlənib. Artıq həmin şəhər və kəndlərimizdə Azərbaycan bayrağı dalğalanır.

Sonda baş sərkərdə qətiyyətlə vurğulayır: "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz bundan sonra da haqq yolundan dönməyəcəyik və heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq və ərazi bütövlüyümüzü bərpa edəcəyik".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri atəşə tutulur.

Ordumuz tərəfindən adekvat tədbirlər görülür.



❖ ❖ ❖

Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyir. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər texniki vasitələri məhv edilir.

Sentyabrın 27-dən oktyabrın 7-si saat 05:30-dək düşmənin ümumi itkiləri bunlardır:

- 250-dək tank və digər zirehli texnika;
- 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 60-dək hava hücumundan müdafiə vasitələri;
- 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 8 silah-sursat anbarı;
- 150-dək avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

❖ ❖ ❖

Saat 22:00 radələrində Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərir.

Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunan düşmən PUA-sı dərhal məhv edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Ermənistan: məğlubiyyətin xronikası

❖ ❖ ❖

Azərbaycan Ordusunun ən qısa zamanda işğal altındakı ərazilərimizi azad etmək iqtidarında olmasını bütün dünya davam edən döyüşlərin gedişatında aydın görməkdədir. Bunu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyində təmsil olunanlar da görür və atəşkəsə nail olmaq üçün aciz şəkildə beynəlxalq təşkilatlara və ayrı-ayrı dövlət rəhbərlərinə yalvarırlar.



Cəbhədəki döyüşlər isə gündən-günə Ermənistana baha başa gəlməkdədir. Ölkəni həm də böyük köç dalğası bürüyüb. KİV-in məlumatına görə, son 10 gün ərzində Qarabağdan Ermənistana köç edənlərin sayı on minlərlədir.

❖ ❖ ❖

Rusiyanın "znak.com" saytı xəbər verir ki, ermənilərin Azərbaycanın işğal edilən torpaqlarından qaçışı davam edir, daha aktiv köç Xankəndidə müşahidə edilir. Vurğulanır ki, Qarabağdakı ermənilər birbaşa Ermənistana - paytaxt Yerevana və Gorusa üz tuturlar. Artıq şəhərdəki bütün mehmanxanalar Qarabağdan gələnlərlə dolub.



"4rd.am" saytının Xankəndiyə ezam olunan xüsusi müxbiri yazır ki, vəziyyət olduqca ağırdır. Şəhərin küçələrində nadir hallarda əhaliyə rast gəlmək olar. Bütün mağazalar bağlıdır, ərzaq yoxdur: "Qaldığımız mehmanxananın yaxınlığında yaşayış binası var.



Sakinlərlə söhbət etmək üçün zirzəmiyə düşdüm. Onlardan Ovik Baqdasaryan dedi ki, 30 ildən sonra biz özümüzə sual verməliyik: Qarabağ biz ermənilərin nəyinə lazımdır? Bir xeyir belə görməmişik. Əksinə, həmişə ziyanını çəkirik. Oturub zirzəmidə sonumuzu gözləyirik. Rütubətdən insanlar artıq xəstəlik tapıb. Qarabağ məsələsinə görə bölgədə rahat yaşaya bilmirik. İqtisadi cəhətdən ölkəmiz uçuruma yuvarlanır. Paşinyanın siyasəti bu gün Ermənistanı hər şeydən məhrum edib. Düşmən olsa da, düzünü demək lazımdır. Azərbaycan inkişafda, biz isə geriləməkdəyik. Xankəndiyə çatmaqlarına bəlkə də saatlar qalıb. Bizə bu əziyyət lazımdırmı? Lənət olsun belə rəhbərə, bu cür yaşayışa..."

❖ ❖ ❖

"İravnuk" qəzeti yazır ki, Xankəndidə həyat ölüb. Hər gün avtobuslarla minlərlə insan buradan qaçır. Ermənistanın paytaxtı Yerevanda və digər şəhərlərdə qohumları, tanışları olmayanlar isə acı sonluğu gözləyirlər. Həmsöhbət olduğumuz insanlar deyirlər ki, Paşinyanın rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olub, vətəndaşlarımız Artsaxdan (Qarabağ-red.) qaçırlar. Onun rəhbərliyi altında erməniləri parlaq gələcək yox, tam məhvolma gözləyir.

Müəllif onu da qeyd edir ki, qurumun "rəhbəri" A.Harutyunyanın hər gün cəbhəyə baş çəkdiyi bildirilir. Lakin onun saxta təbliğatı artıq sıravi erməniləri bezdirib. "Böyük iş olub, yalançı rəhbər hər gün cəbhədə olur. Onu hansısa hərbi hissədə görən olub? Qorxusundan xalqın arasına çıxmır. Vaxt var idi Paşinyan kimi onu da küçələrdən yığmaq olmurdu" deyə onlar bildirirlər.



❖ ❖ ❖

"Joxovurd" qəzetinin Xankəndiyə ezam olunmuş əməkdaşı hazırladığı reportajda Miqran Markaryan adlı sakinin fikirlərini olduğu kimi oxuculara çatdırıb. Sakin cibindən müharibədə bu günlərdə həlak olmuş qardaşı oğlunun şəklini



çıxardaraq nümayiş etdirib və deyib: "Bilirik ki, Azərbaycanda Artsaxdakı proseslər çox maraqla izlənilir. Ona görə də, həqiqəti söyləyirik. Paşinyan nə qədər yalan desə də, həqiqət budur: biz uduzuruq. Artıq Qarabağdan qaçırıq. Acı etiraf olsa da, deməliyik ki, Azərbaycan Qarabağı tam tutacaq. Sosial şəbəkələrdən də izləyirik. Azərbaycanlılar Prezidentləri ilə fəxr edirlər. Biz isə Paşinyana, Harutyunyana görə utanırıq. Oturub sonumuzun nə vaxt çatacağını gözləyirik".

❖ ❖ ❖

"Qraparak" qəzeti yazır ki, Qarabağda yaşayan ermənilər əvvəlkindən fərqli olaraq gördüklərini açıq şəkildə etiraf etməkdən artıq çəkinmirlər. Görünən həm də budur ki, onlar uduzduqlarını qəbul edirlər. Nəşr yazır ki, müharibə hamıda böyük qorxu yaradıb. Erməni əsgərlərinin səngərlərdə silahlarını qoyub qaçmaları əlavə şərhə ehtiyac yaratmır.



1990-cı illərin əvvəllərində Qarabağdakı döyüşlərdə iştirak edən veteranlardan Vardan Qasparyan deyib ki, orduya xidmətdən yayınmaq məqsədilə ölkəni tərk etməkdən təngə gəlmişik: "Bunun ən böyük səbəbkarı hakimiyyətdir. Orduda korrupsiya, ölüm halları durmadan artır. Bu yaxınlarda cəbhə xəttində qulluq edən bir qohumum vəziyyətin çox acınacaqlı olduğunu bildirdi. Onların səngərinə günlərlə yemək, su getmir. Deyir ki, bu postu azərbaycanlılar gəlib tutsa, onları öldürsə, heç bir həftə Ermənistanda qərargahın xəbəri olmaz. Davam edən müharibə və onun nəticələri Azərbaycan Ordusunun Şuşaya kimi rahat gələcəyini göstərir. Orduya çağırışdan yayınan əsgərlərin sayının durmadan artması isə acı reallıqdır. Biz deyilənlərə yox, gördüklərimizə inanırıq".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra - Konstitusiya Qanunu) 27.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, habelə digər dövlət orqanları, eləcə də nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra - dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, mərkəzi icra hakimiyyəti orqanlarının (bundan sonra - icra hakimiyyəti orqanları) normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, təqdim edilməsi, qəbul edilməsi və dərc edilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Əsasnamənin müddəaları həmçinin aşağıdakı hallarda tətbiq olunur:

1.2.1. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi ilə əlaqədar dövlət orqanları (qurumları) tərəfindən qanun layihələrinin hazırlanması, razılaşdırılması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi zamanı;

1.2.2. dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikası Prezidentinin sərəncamları layihələrinin hazırlanması, razılaşdırılması, təqdim edilməsi, qəbul edilməsi və dərc edilməsi zamanı.

1.3. Bu Əsasnamədə başqa hal nəzərdə tutulmamışdırsa, bu Əsasnamə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında hazırlanan normativ hüquqi akt layihələrinə şamil edilmir.

1.4. Konstitusiya Qanununun 48.7-ci maddəsinə uyğun olaraq, normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamənin tələbləri nəzərə alınmaqla "Normativ hüquqi aktlar" informasiya sistemi vasitəsilə həyata keçirilir.

1.5. Dövlət sirrini əks etdirən normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsinə bu Əsasnamənin 1.4-cü bəndi tətbiq edilmir.

1.6. Bu Əsasnamədə istifadə edilən anlayışlar Konstitusiya Qanununda müəyyən olunmuş mənaları ifadə edir.

## 2. Normativ hüquqi akt layihəsinin hazırlanması

2.1. Normativ hüquqi akt layihəsinin hazırlanmasının ümumi qaydası Konstitusiya Qanununun 45-ci maddəsi ilə müəyyən edilir.

2.2. Normativ hüquqi akt layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə uyğun olaraq hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmaqla və Konstitusiya Qanununun 8-ci maddəsində müəyyən edilmiş normayaratma fəaliyyətinin əsas prinsipləri nəzərə alınmaqla hazırlanır.

2.3. Normativ hüquqi akt layihəsi dövlət orqanının (qurumunun) hüquq xidmətinin mütləq iştirakı ilə hazırlanır. Sahələrarası məsələlərə aid normativ hüquqi akt layihəsi hazırlanarkən dövlət orqanlarının (qurumlarının) həmin sahələrə aid olan struktur bölmələri ilə razılaşdırılmalıdır. İnzibati ərazi vahidinin mənafeyi və həmin inzibati ərazi vahidində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) səlahiyyətləri ilə bağlı normativ hüquqi akt layihəsi hazırlanarkən həmin dövlət orqanları (qurumları) bu işə cəlb olunurlar.

2.4. Azərbaycan Respublikasının Prezidenti və (və ya) Azərbaycan Respublikasının Nazirlər Kabineti normativ hüquqi akt layihəsinin hazırlanmasını dövlət orqanlarına (qurumlarına), habelə bu məqsədlə yaradılmış müvəqqəti komissiyalara və ya işçi qruplara tapşıra, habelə layihənin hazırlanmasına müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər.

2.5. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən dövlət orqanına (qurumuna) normativ hüquqi akt layihəsinin hazırlanması tapşırıldıqda, tapşırıqda icra müddəti qeyd edilməklə, həmin dövlət orqanı (qurumu) əsas icraçı kimi müəyyən olunmalı və layihənin razılaşdırılması vacib olan digər dövlət orqanları (qurumları) göstərilməlidir.

2.6. Normativ hüquqi akt layihəsinin hazırlanmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığında əsas icraçı qismində müəyyən olunan dövlət orqanının (qurumunun) rəhbəri əsas icraçının və (və ya) tapşırığın dəyişdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş nazirinə müraciət edə bilər.

2.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığının icra müddətinin ilk üçdə bir hissəsi ərzində (bu Əsasnamənin 2.8-ci bəndi nəzərə alınmaqla) əsas icraçı tərəfindən müvafiq normativ hüquqi akt layihəsi hazırlanmalı və razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməlidir. Tapşırığınicra müddətinin qalan hissəsində normativ hüquqi akt layihəsi bu Əsasnamənin 3-cü hissəsinin tələbləri nəzərə alınmaqlarazılaşdırılmalı və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmalıdır.

2.8. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın müəyyən olunmuş müddətdə icrası mümkün olmadıqda, tapşırığı icra edən bunun səbəbləri və tapşırığın icra tarixini göstərməklə, yuxarı dövlət orqanına tapşırığın icrasının başaçatma tarixindən azı 7 (yeddi) iş günü əvvəl məlumat verməlidir.

2.9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi ilə bağlı göndərilən təklifə, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsinə ən geci 3 (üç) ay müddətində, əlavə araşdırma tələb olunduqda isə 6 (altı) aydan gec olmayaraq baxılmalıdır (münasibət bildirilməlidir). Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin məktubunda normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi, habelə normativ hüquqi akt layihəsinə baxılması (münasibət bildirilməsi) üçün daha qısa müddət müəyyən edilə bilər.

2.10. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə icra hakimiyyəti orqanlarının təsdiq edilmiş (qüvvəyə minmiş) normativ hüquqi aktlarının təkmilləşdirilməsi, aşkar edilmiş boşluqların, ziddiyyətlərin və digər nöqsanların aradan qaldırılması ilə bağlı göndərilən təkliflər nəzərə alınmalı və ən geci 1 (bir) ay müddətində müvafiq normativ hüquqi aktlarda dəyişiklik edilməsi və ya onların ləğv edilməsi ilə bağlı tədbirlər görülməli, nəticəsinə dair məlumat, təkliflərin nəzərə alınması mümkün olmadıqda isə bu barədə əsaslandırılmış cavab məktubu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

## 3. Normativ hüquqi akt layihəsinin razılaşdırılması

3.1. Normativ hüquqi akt layihəsinin razılaşdırılmasının ümumi qaydası Konstitusiya Qanununun 46-cı maddəsi ilə müəyyən edilir.

3.2. Normativ hüquqi akt layihəsi müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanları, habelə aidiyyəti üzrə digər dövlət orqanları (qurumları) ilə, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının layihələri həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə, dövlət büdcəsinin gəlir və xərclərinə təsir edən normativ hüquqi akt layihəsi maliyyə ekspertizasının keçirilməsi məqsədilə həmçinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmalıdır.

3.3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə qəbul (təsdiq) edilmək üçün göndərilən normativ hüquqi akt layihəsi və ya normativ hüquqi akt layihəsinə dair təkliflər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış hesab olunur. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş həmin normativ hüquqi akt layihəsini və ya təklifləri müvafiq olaraq razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərmədən ən geci 15 (on beş) gün müddətində müvafiq olaraq qəbul (təsdiq) edir və ya nəzərə alır. Belə layihədə dəyişiklik yalnız Azərbaycan Respublikası Prezidenti Administrasiyasının razılığı ilə edilə bilər.

3.4. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsi aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılır.

3.5. Yuxarı dövlət orqanı, digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla qəbul (təsdiq) olunan normativ hüquqi aktda dəyişiklik yalnız həmin dövlət orqanları (qurumları) ilə razılaşdırıldıqdan sonra edilə bilər (bu Əsasnamənin 3.3-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla). Belə normativ hüquqi aktda ona dəyişiklik edilməsi qaydası göstərilməlidir.

3.6. Bu Əsasnamənin 3.7-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında digər hal nəzərdə tutulmadıqda, razılaşdırılmaq üçün göndərilən normativ hüquqi akt layihəsinə müvafiq dövlət orqanı (qurumu) onun daxil olduğu gündən 60 (altmış) gün müddətində, təkrar razılaşdırılmaq üçün göndərildikdə isə həmin layihəyə onun daxil olduğu gündən 30 (otuz) gün müddətində münasibət bildirməlidir.

3.7. Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında normativ hüquqi akt layihəsinin hazırlanması üçün 3 (üç) ay və ya daha az müddət müəyyən edildikdə, razılaşdırılmaq üçün göndərilən həmin layihəyə müvafiq dövlət orqanı (qurumu) onun daxil olduğu gündən 10 (on) gün müddətində, təkrar razılaşdırılmaq üçün göndərildikdə isə həmin layihəyə onun daxil olduğu gündən 5 (beş) gün müddətində münasibət bildirməlidir.

3.8. Razılaşdırılma haqqında məlumat bu Əsasnamənin 3.6-cı və 3.7-ci bəndləri ilə müəyyən edilmiş müddətlərdə təqdim edilmədikdə və Konstitusiya Qanununun 46.5-ci maddəsinə uyğun olaraq razılaşdırılma müddəti uzadılmadıqda, normativ hüquqi akt layihəsi razılaşdırılmış və vizalanmış hesab olunur.

3.9. Razılaşdırılmaq üçün göndərilən normativ hüquqi akt layihəsinə razılıq verilməsi və ya verilməməsi, o cümlədən irad və təkliflər barədə cavab məktubu müvafiq dövlət orqanının (qurumunun) rəhbəri (o olmadıqda isə onun vəzifələrini icra edən şəxs) tərəfindən imzalanmalıdır. Digər şəxslər tərəfindən imzalanmış cavab məktubu nəzərə alınmır.

3.10. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı dövlət orqanının (qurumunun) irad və təklifləri olduqda, onlar əsaslandırılmalı və ya təklif edilən normativ göstərişlərlə razılaşmadıqda, normativ hüquqi aktın layihəsi və ya onun ayrıca struktur elementi normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə olunmalıdır.

3.11. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı hüquqi cəhətdən əsaslandırılmamış irad və təkliflərə baxılmır.

3.12. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı aşağıdakı hallarda irad və təkliflər nəzərə alınmaya bilər:

3.12.1. irad və təkliflər aidiyyəti dövlət orqanının (qurumunun) fəaliyyət istiqamətlərindən irəli gəlmədikdə;

3.12.2. irad və təkliflər normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın predmetinə uyğun olmadıqda.

3.13. Normativ hüquqi akt layihəsinin razılaşdırılması zamanı müvafiq dövlət orqanı (qurumu) tərəfindən bildirilmiş irad və təkliflər nəticəsində normativ hüquqi akt layihəsi əsaslı dəyişikliyə məruz qaldıqda, layihə təkrar razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilir.

3.14. Normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair fikir ayrılıqları olduqda, həmin layihə əsas icraçısı olan dövlət orqanının (qurumunun) rəhbəri və ya onun razılığı ilə müavini tərəfindən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəhbərləri və ya onların müavinləri ilə iclas keçirilməklə müzakirə edilir. Layihənin müzakirəsinin nəticəsi iclas protokolu ilə rəsmiləşdirilir. Protokolda layihəyə razılıq verilməsi, razılıq əldə edilmədikdə isə bununla əlaqədar icraçıların rəyləri əks olunur. Protokol iclas iştirakçıları tərəfindən imzalanır.

3.15. Dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış normativ hüquqi akt layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna edilməklə) razılaşdırılmağa göndərildiyi andan Elektron Hökumət İnformasiya Sistemində, lisenziya və icazə verən orqanların hazırladığı sahibkarlıq sahəsinə aid normativ hüquqi aktların layihələri həmçinin "Lisenziyalar və icazələr" portalında yerləşdirilir. Bu zaman normativ hüquqi akt layihələrinə dair verilən təkliflər məqsədəuyğun hesab edildikdə nəzərə alınır.

3.16. Normativ hüquqi akt layihəsi razılaşdırıldıqdan (təkrar razılaşdırıldıqdan) dərhal sonra əsas icraçı tərəfindən vizalanmaq üçün layihəyə razılıq vermiş dövlət orqanlarına (qurumlarına) göndərilir. Həmin layihə dövlət orqanına (qurumuna) daxil olduğu gündən ən geci 7 (yeddi) gün keçənədək dövlət orqanının (qurumunun) rəhbəri (o olmadıqda isə onun vəzifələrini icra edən şəxs) tərəfindən vizalanmalıdır, əks halda layihə vizalanmış hesab olunur. Bu zaman dövlət orqanının (qurumunun) əlavə irad və təklifləri olduqda, bununla bağlı əsaslandırılmış rəyi və normativ hüquqi aktın layihəsi və ya onun ayrıca struktur elementinin təklif edilən redaksiyası normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə edilməklə təqdim olunan layihə vizalanır.

3.17. Bu Əsasnamənin 3.16-cı bəndinə uyğun olaraq normativ hüquqi akt layihəsinin vizalanması zamanı müvafiq dövlət orqanının (qurumunun) əsaslandırılmış rəyi nəticəsində normativ hüquqi akt layihəsi əsaslı dəyişikliyə məruz qaldıqda, bu Əsasnamədə nəzərdə tutulmuş qaydada layihənin təkrar razılaşdırılması və vizalanması həyata keçirilir.

3.18. Bu Əsasnamənin 3.14-cü bəndinə uyğun olaraq normativ hüquqi akt layihəsinin müzakirəsi nəticəsində razılıq əldə etmək mümkün olmadıqda, digər dövlət orqanları (qurumları) tərəfindən vizalanmış layihə, ona razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu və Konstitusiya Qanununun 48.2-ci maddəsində göstərilənlər əlavə olunmaqla, Azərbaycan Respublikasının Baş nazirinə təqdim edilir. Bu qaydaya əməl edilmədən təqdim olunan sənədlər əsas icraçıya geri qaytarılır.

3.19. Razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Azərbaycan Respublikası Baş nazirinin tapşırığı ilə onun müavini və ya Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinin yanında Aparatın müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparılır və nəticələr protokollaşdırılır. Müzakirə nəticəsində razılıq əldə etmək mümkün olmadıqda, bu barədə Azərbaycan Respublikası Baş nazirinin müavini və ya Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən Azərbaycan Respublikasının Baş nazirinə məlumat verilir. Müzakirə nəticəsində qarşılıqlı həlli tapılmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair Azərbaycan Respublikasının Baş naziri aşağıdakı tədbirlərdən birini görür:

3.19.1. razılığın əldə edilməməsi normativ hüquqi akt layihəsinin və ya onun ayrıca struktur elementinin qəbul edilməsinin məqsədəuyğunluğu ilə bağlıdırsa, layihəyə və ya onun ayrıca struktur elementinə dair öz qərarını həyata keçirir;

3.19.2. razılığın əldə edilməməsi qüvvədə olan normativ hüquqi aktların tələbləri ilə əlaqədardırsa, həmin tələblərə əsaslanaraq qərar qəbul edir.

3.20. Bu Əsasnamənin 3.6 - 3.8-ci və 3.15-ci bəndlərinin müddəaları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına münasibətdə tətbiq edilmir.

3.21. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin III hissəsinə uyğun olaraq qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etdiyi qanun layihəsində dəyişiklik edilməsinə dair digər icra hakimiyyəti orqanlarının təklifləri Azərbaycan Respublikasının Milli Məclisinə (deputatlara, komitələrə) təqdim oluna bilməz.

## 4. Normativ hüquqi akt layihəsinin təqdim olunması və qəbul edilməsi

4.1. Normativ hüquqi akt layihəsi Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq təqdim olunur.

4.2. Normativ hüquqi akt layihəsi ən geci onun hazırlanması ilə bağlı tapşırığın icra müddətinin son günü (həmin gün qeyri-iş gününə düşdükdə, növbəti ilk iş günü) tapşırığı verən yuxarı orqana təqdim olunur.

4.3. Konstitusiya Qanununun 48.2-48.5-ci maddələrinə uyğun olaraq, tapşırığı verən yuxarı orqana təqdim edilən normativ hüquqi akt layihəsinə, onun növündən asılı olaraq, aşağıdakılar əlavə edilir:

4.3.1. müşayiət məktubu;

4.3.2. normativ hüquqi akt layihəsinin uyğunluğunun təmini haqqında arayış;

4.3.3. normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması, o cümlədən maliyyə-iqtisadi əsaslandırılması;

4.3.4. layihənin razılaşdırılması (vizalanması) haqqında məlumatı əks etdirən sənədlər;

4.3.5. layihəyə dair məcburi hüquqi ekspertizanın, o cümlədən layihənin suiistifadəyə məruz qalmasına dair və digər ekspertizaların rəyləri;

4.3.6. hər bir dövlət orqanı (qurumu) göstərilməklə, layihəni hazırlamış şəxslərin siyahısı;

4.3.7. qanunda dəyişiklik edilməsi haqqında qanun layihələrinə maddənin və ya qanunun digər struktur elementinin redaksiyası və layihə ilə qanuna təklif edilən dəyişikliklər nəzərə alınmaqla maddənin və ya qanunun digər struktur elementinin redaksiyası göstərilməklə müqayisəli cədvəl;

4.3.8. bu Əsasnamənin 3.14-cü bəndi tətbiq olunduqda, layihəyə razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu;

4.3.9. layihəyə aid digər sənədlər (layihəni təqdim edən dövlət orqanının (qurumunun) qərarına əsasən).

4.4. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə normativ hüquqi akt layihəsinin hazırlandığı və ya layihənin birbaşa Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi zərurətinin əsaslandırıldığı hallar istisna edilməklə, hər hansı bir dövlət orqanının (qurumunun) hazırladığı normativ hüquqi akt layihəsi Azərbaycan Respublikasının Prezidentinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təqdim edilməlidir. Belə zərurət əsaslandırılmadıqda və ya bu cür əsaslandırma qaneedici olmadıqda, normativ hüquqi akt layihəsi baxılması (münasibət bildirilməsi) üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilir. Bu halda Azərbaycan Respublikasının Nazirlər Kabineti qaldırılan məsələ ilə bağlı aşağıdakı tədbirlərdən birini görür:

4.4.1. məqsədəuyğun hesab etdikdə, normativ hüquqi akt layihəsini hazırlayaraq Konstitusiya Qanununun 48.2-ci maddəsində müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.4.2. məqsədəuyğun hesab etmədikdə, bu barədə əsaslandırılmış cavab məktubunu Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

4.5. Normativ hüquqi akt layihəsinə baxılmasının və onun qəbul edilməsinin ümumi qaydası Konstitusiya Qanununun 70 - 74-cü maddələri ilə müəyyən edilir.

4.6. Yuxarı dövlət orqanlarının aktlarında dəyişiklik edilmədən, eyni məsələ üzrə aşağı dövlət orqanlarının aktlarında dəyişiklik edilməsinə yol verilmir.

4.7. Mərkəzi icra hakimiyyəti orqanının əsasnaməsində nəzərdə tutulmuş hallarda normativ hüquqi akt mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və ya kollegiyası tərəfindən qəbul edilir. Normativ hüquqi aktın qəbul edilməsi barədə mərkəzi icra hakimiyyəti orqanının kollegiyasının qərarını həmin orqanın rəhbəri imzalayır.

4.8. Konstitusiya Qanununun 78.2-ci maddəsinə uyğun olaraq normativ hüquqi aktı qəbul etmiş icra hakimiyyəti orqanı onu Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə (bundan sonra - Dövlət Reyestri) daxil edilmək üçün həmin aktın qəbul edildiyi gündən 3 (üç) gün keçənədək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərir.

## 5. Normativ hüquqi aktların dərc edilməsi

5.1. Normativ hüquqi aktların rəsmi dərc edilməsinin ümumi qaydası və müddətləri Konstitusiya Qanununun 82-ci və 83-cü maddələri ilə müəyyən edilir.

5.2. Normativ hüquqi aktın mətni rəsmi dövri mətbu nəşrdə dərc edilməklə və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında yerləşdirilməklə normativ hüquqi akt rəsmi dərc olunur.

5.3. İctimai radio və televiziya kanallarında səsləndirilmiş normativ hüquqi aktın mətni həmçinin rəsmi dövri mətbu nəşrdə dərc edilməli və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında yerləşdirilməlidir.

5.4. Mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktı Dövlət Reyestrinə daxil edildikdən (bu Əsasnamənin 5.5-ci bəndi nəzərə alınmaqla) sonra 72 saat müddətində həmin orqan tərəfindən elektron daşıyıcıda mətn faylları formasında rəsmi dərc edilməsi üçün bu Əsasnamənin 5.2-ci bəndində göstərilən media subyektlərindən azı birinə təqdim edilməlidir.

5.5. Mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktı Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunduqdan sonra 7 (yeddi) iş günü müddətində Dövlət Reyestrinə daxil edilmək üçün qəbulundan imtina edilməyibsə, həmin akt Dövlət Reyestrinə daxil edilmiş hesab olunur və rəsmi dərc edilməlidir, bu şərtlə ki, həmin müddət bitdikdən sonra 1 (bir) iş günü ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən normativ hüquqi aktın Dövlət Reyestrinə vaxtında daxil edilməməsinin səbəbləri barədə həmin orqana əsaslandırılmış məlumat verilməmiş olsun.

5.6. Normativ hüquqi aktların rəsmi dərc edilməsi dövlət dilində həyata keçirilir. Normativ hüquqi aktın digər dillərdə rəsmi dərc olunmasına yalnız həmin aktın müvafiq dövlət orqanı tərəfindən bu aktın qəbul edilməsi üçün müəyyən edilmiş qaydada təsdiq edilmiş müvafiq dilə tərcüməsi mövcud olduqda yol verilir.

5.7. Normativ hüquqi aktların dövlət sirrini əks etdirən ayrı-ayrı müddəaları dərc edilmir.

5.8. Normativ hüquqi aktlar (ayrı-ayrı müddəaları dövlət sirrini əks etdirən aktlar istisna olmaqla) tam şəkildə və məcburi rekvizitləri göstərilməklə dərc edilməlidir.

5.9. Normativ hüquqi aktların qeyri-rəsmi nəşrlərdə və digər media subyektlərində açıqlanması Konstitusiya Qanununun 84-cü maddəsinə uyğun olaraq həyata keçirilir.

5.10. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 385 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"na uyğun olaraq, icra hakimiyyəti orqanları normativ hüquqi aktlarını qüvvəyə mindiyi gündən öz internet informasiya ehtiyatında açıqlamalıdırlar. İcra hakimiyyəti orqanları normativ hüquqi aktlarını digər internet informasiya ehtiyatlarında da açıqlaya bilərlər.

5.11. Qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda da dərc edilir.

## 6. Keçid müddəa

2025-ci il yanvarın 1-dək normativ hüquqi akt layihəsinin hazırlanması, razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi "Normativ hüquqi aktlar" informasiya sistemi vasitəsilə yanaşı, kağız daşıyıcıda və eyni zamanda elektron daşıyıcılarda mətn faylları formasında həyata keçirilir.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında əsasnamə

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Normativ hüquqi aktlar" informasiya sisteminin (bundan sonra - Sistem) formalaşdırılmasının, aparılmasının və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları ilə "Elektron Hökumət İnformasiya Sistemi" (bundan sonra - EHİS) vasitəsilə inteqrasiyasının, habelə Sistemlə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistemin formalaşdırılmasının məqsədi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə aşağıdakıları təmin etməkdir:

1.2.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən həyata keçirilən normayaratma fəaliyyətinin optimallaşdırılmasını, keyfiyyətinin və operativliyinin yüksəldilməsini;

1.2.2. normativ hüquqi akt layihələrinin hazırlanmasının, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasının və yuxarı orqanlara təqdim olunmasının elektron qaydada həyata keçirilməsini, "kağızsız hökumət"ə keçid prosesinin sürətləndirilməsini;

1.2.3. Sistemdə saxlanılan sənədlərin (məlumatların) sistemliliyini və əlçatanlığını, analitik təhlilinin aparılmasını və hesabatların hazırlanmasını;

1.2.4. bu Əsasnamənin 1.2.2-ci yarımbəndində qeyd edilən fəaliyyətin həyata keçirilməsinə nəzarət edilməsini.

1.3. Sistemdə formalaşdırılan, yaradılan, əldə edilən, daxil edilən (ötürülən), toplanılan, mühafizə edilən və saxlanılan sənədlər (məlumatlar) Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Fərdi məlumatların Sistemdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunan funksiyaların təmin edilməsidir. Fərdi məlumatların Sistemdə işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.5. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Sistemdən istifadə ödənişsizdir.

1.7. Sistemin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na (bundan sonra - Qaydalar) uyğun olaraq həll edilir.

1.8. Sistemdə "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət sirrini əks etdirən normativ hüquqi akt layihələrinin hazırlanmasına, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasına və yuxarı orqanlara təqdim olunmasına yol verilmir.

### 2. Əsas anlayışlar

2.1. Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. **sahib** - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada Sistem üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, Sistemin aparılmasını təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası;

2.1.2. **operator** - sahibin normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə Sistemin fəaliyyətinin həyata keçirilməsi üzrə hüquq və vəzifələrini həvalə etdiyi İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi vasitəsilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi;

2.1.3. **iştirakçı** - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra - dövlət orqanları (qurumları);

2.1.4. **elektron kabinet** - Sistemin iştirakçısını Vahid Giriş Sistemi vasitəsilə identikləşdirməklə, tapşırıqların daxil edilməsini, onların icrası üzrə bu Əsasnamənin 1.2.1-ci yarımbəndində qeyd edilən fəaliyyətin həyata keçirilməsini, həmçinin sahib və operatorun Sistem iştirakçıları ilə qarşılıqlı əlaqəsini, sənəd (məlumat) mübadiləsi aparılmasını təmin edən fərdi elektron səhifə.

2.2. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 3. Sistemin fəaliyyət prinsipləri

3.1. Sistem Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.1.1. **istifadə rahatlığı** - Sistemdən istifadənin və məlumat mübadiləsinin əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. **fasiləsizlik** - Sistemdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.1.3. **operativlik** - Sistemdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.4. **şəffaflıq** - Sistemin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

### 4. Sistemin texniki-texnoloji infrastrukturu

4.1. Sistemin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

4.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

4.1.2. telekommunikasiya qurğuları və kanalları;

4.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

4.1.4. ehtiyat nüsxələr;

4.1.5. test mühiti.

4.2. Proqram-texniki vasitələr və proqram təminatı Sistemin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə həmin Sistemdən istifadəni və məlumat mübadiləsini təmin edir.

4.3. Sistem onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmət göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksək ötürücülü fiberoptik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir. Sistemdə qurulma topologiyasına uyğun olaraq, telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

4.3.1. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları sahibin aidiyyəti strukturları tərəfindən;

4.3.2. Sistemdə toplanılan məlumatların, eləcə də həmin məlumatların ehtiyat nüsxələrinin saxlanılması məqsədilə "Hökumət buludu"na ötürülməsinin, eləcə də məlumat mübadiləsinin təşkili üçün mərkəzləşdirilmiş mühafizə olunan telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən.

4.4. Sistemdə formalaşdırılan, Sistemə daxil olunan və mübadilə edilən məlumatlar Sistemin informasiya ehtiyatında saxlanılır.

4.5. İdarəetmə paneli Sistemin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

4.6. Sistemin fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Sistemdə toplanılan məlumatlar, o cümlədən onların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

4.7. Sistemdə aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

4.8. Sistemə qeyri-qanuni daxilolmalar və ya müdaxilələr həyata keçirildikdə, operator qeyd edilən əməllərə yol verən istifadəçilərin Sistemə girişini sahibə məlumat verməklə məhdudlaşdırır.

4.9. Elektron kabinetə daxil olan məlumatlar barədə eyni zamanda dövlət orqanının (qurumunun) rəsmi elektron poçt ünvanına və müvafiq kompüterdə olan istifadəçi ekranına Sistem vasitəsilə bildiriş göndərilir.

### 5. Sistemə daxil edilən və ötürülən sənədlər (məlumatlar)

5.1. Sistemə bu Əsasnamənin 9.3-9.6-cı bəndlərində qeyd edilən sənədlər (məlumatlar) daxil edilir. Sistemə EHİS üzərindən ötürülən, eləcə də həmin Sistem vasitəsilə sorğu edilən məlumatlar aşağıdakılardır:

5.1.1. dövlət orqanının (qurumunun) adı, rəhbərinin vəzifəsi, soyadı, adı və atasının adı;

5.1.2. dövlət orqanının (qurumunun) vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (olduğu halda);

5.1.3. dövlət orqanının (qurumunun) telefon nömrələri;

5.1.4. dövlət orqanının (qurumunun) vəzifəli şəxsinin soyadı, adı və atasının adı;

5.1.5. dövlət orqanının (qurumunun) vəzifəli şəxsinin fərdi identifikasiya nömrəsi (FİN).

5.2. Sistemlə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin Sistemə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən onların elektron kabinetləri vasitəsilə daxil olunaraq, təkmil sertifikatlı gücləndirilmiş elektron imzaları ilə təsdiq edilir.

5.3. Sistemdə tərtib olunan elektron sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib olunur və rəsmiləşdirilir.

### 6. Sahibin vəzifə və hüquqları

6.1. Sahibin aşağıdakı vəzifələri vardır:

6.1.1. Sistemin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. Sistemə çıxışı olan, habelə Sistemin aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.3. tələb edilən sənədlər barədə məlumatlar digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların ilkin mənbədən əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək.

6.2. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.2.2. Sistemin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət emək;

6.2.3. Sistemdə dəyişikliklər, təkmilləşdirmələr aparılması üçün operatora tapşırıqlar vermək və onların həyata keçirilməsinə nəzarət etmək.

### 7. Operatorun vəzifə və hüquqları

7.1. Operatorun aşağıdakı vəzifələri vardır:

7.1.1. Sistemin informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və sahiblə birlikdə təmin etmək;

7.1.2. Sistemin monitorinqi və auditi üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin yerində baxış keçirməsinə şərait yaratmaq, bu məqsədlə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş məlumatları (sənədləri) həmin Xidmətə təqdim etmək;

7.1.3. fərdi məlumatların Sistemdə işlənilməsinin və mühafizəsinin fərdi məlumatlar sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

7.1.4. yaranan elektron təhlükələr barədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək və birgə tədbirlər həyata keçirmək;

7.1.5. Sistemə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının, konfidensiallığının təmini, habelə həmin məlumatların, informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

7.1.6. Sistemin mühafizəsinin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün tədbirlər görmək;

7.1.7. Sistemin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün tədbirlər görmək, bu mümkün olmadıqda, həmin Sistemin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün zəruri tədbirlər görmək;

7.1.8. Sistemin fəaliyyətinin idarə olunması, onun funksional imkanlarının artırılması və təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

7.1.9. Sistemdən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışlar təşkil etmək;

7.1.10. Sistemi EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.11. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.12. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, bunların təkmilləşdirilməsinə dair profilaktik iş aparmaq;

7.1.13. aidiyyəti dövlət orqanlarının (qurumlarının) və sahibin təklifləri, habelə öz təşəbbüsü əsasında Sistemdə dəyişikliklər edilməsi və təkmilləşdirmələr aparılması üçün tədbirlər görmək;

7.1.14. sahibin müraciəti, habelə öz təşəbbüsü əsasında, normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.15. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.1.16. bu Əsasnamənin 7.1.7-ci yarımbəndində qeyd edilən hallar barədə sahibi məlumatlandırmaq;

7.1.17. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və Qaydalarla müəyyən edilən tələblərə uyğun formada aparmaq;

7.1.18. aidiyyəti dövlət orqanlarının (qurumlarının) Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) sorğular vermək və həmin dövlət orqanlarından (qurumlarından) belə məlumatları (sənədləri) almaq;

7.2.2. Sistemin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

7.2.3. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

7.2.4. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.5. Sistemdən sərbəst və maneəsiz istifadə, eləcə də onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işi aparmaq;

7.2.6. Sistemlə məlumat mübadiləsində iştirak edəcək digər dövlət informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

7.2.7. Sistemin parametrlərində dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.8. sahiblə razılaşdırmaqla iştirakçıların Sistemə giriş imkanını ləğv etmək və ya məhdudlaşdırmaq.

### 8. İştirakçıların vəzifə və hüquqları

8.1. İştirakçıların aşağıdakı vəzifələri vardır:

8.1.1. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı sənədləri (məlumatları) vaxtında və dolğun şəkildə sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarına və sistemlərinə, eləcə də Sistemə daxil etmək (ötürmək), bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlığa və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. Sistemdən, habelə həmin Sistemdə olan sənədlərdən (məlumatlardan) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. Sistemdə saxlanılan sənədlərdə (məlumatlarda) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun sorğularını vaxtında və tam cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

8.1.8. sahibin və operatorun Sistemə daxil etdikləri və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.9. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.10. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək;

8.1.11. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

8.1.12. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və operatora, o cümlədən aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

8.1.13. öz təşəbbüsləri, habelə sahibin və aidiyyəti dövlət orqanlarının (qurumlarının) əsaslandırılmış təklifləri əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişiklik və təkmilləşdirmələr aparmaq.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. Sistemin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün operatora sorğu vermək və ya ondan belə məlumatları (sənədləri) almaq;

8.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində sahibə və operatora təkliflər vermək.

### 9. Sistemdən istifadə qaydası

9.1. Dövlət orqanlarının (qurumlarının) Sistemdən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bunun üçün hər bir dövlət orqanının (qurumunun) möhür hüquqlu və təkmil sertifikatlı gücləndirilmiş elektron imzası olan rəhbər vəzifəli şəxsi tərəfindən məsul struktur bölməsinin əməkdaşı Sistemdə qeydiyyatdan keçirilir və Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetinə daxil olaraq Sistemdən istifadə edir.

9.2. Sistemdə normativ hüquqi akt layihələrinin hazırlanması, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılması və yuxarı orqanlara təqdim olunması ilə bağlı proseslər icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnaməyə uyğun olaraq təşkil edilir.

9.3. Normativ hüquqi akt layihələrinin hazırlanması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin aktlarında nəzərdə tutulan tapşırıqlar Sistemə "Dövlət Nəzarəti İnformasiya Sistemi" ilə inteqrasiya olunmaqla daxil edilir.

9.4. Tapşırığın icraçısı, o cümlədən əsas icraçısı Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edildikdə, habelə Azərbaycan Respublikasının Konstitusiya qanunu və ya qanunu daxil olduqda, bununla bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilən sərəncamda nəzərdə tutulan tapşırıqlar Sistemə daxil edilir. Bu zaman sərəncamın adı, növü, nömrəsi, tapşırığı nəzərdə tutan struktur elementi, tapşırığın məzmunu, icra müddəti, əsas və digər icraçıları qeyd edilir, icrasının təmin edilməsi məqsədilə qəbul edildiyi Azərbaycan Respublikasının Konstitusiya qanunu, qanunu və ya Azərbaycan Respublikası Prezidentinin aktı ilə əlaqələndirilir, olduğu təqdirdə qeydlər əlavə edilir, habelə sərəncamın surəti yüklənilir.

9.5. Azərbaycan Respublikasının Nazirlər Kabinetində keçirilən iclasın nəticələrinə əsasən Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidenti və Nazirlər Kabinetinin aktları layihələrinin təkmilləşdirilməsi zərurəti yarandıqda, həmin layihələrin hazırlanması barədə tapşırıqlar və keçirilmiş iclasın protokolu da Sistemə daxil edilir.

9.6. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Azərbaycan Respublikasının Nazirlər Kabinetinə normativ hüquqi akt layihələrinin hazırlanması və ya yenidən işlənilməsi ilə əlaqədar göndərilən təklif, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsi ilə bağlı, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında normativ hüquqi akt layihələrinin hazırlanması barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən tapşırıq verilməsi də Sistem vasitəsilə təmin edilir.

9.7. Azərbaycan Respublikasının Nazirlər Kabineti və digər dövlət orqanları (qurumları) tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna olmaqla) razılaşdırılmağa göndərildiyi andan EHİS-də, lisenziya və icazə verən orqanların hazırladığı sahibkarlıq sahəsinə aid normativ hüquqi aktların layihələri həmçinin "Lisenziyalar və icazələr" portalında yerləşdirilir. Bu zaman Sistemdə elektron kabinet vasitəsilə EHİS-ə və "Lisenziyalar və icazələr" portalına keçid edilərək, layihə üzrə tələb edilən məlumatlar həmin informasiya sisteminə (portala) daxil olunur.

9.8. Dövlət orqanlarının (qurumlarının) təşəbbüsü əsasında hazırlanan normativ hüquqi akt layihələri də, icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnamənin tələbləri nəzərə alınmaqla, Sistem vasitəsilə hazırlanır, razılaşdırılır və yuxarı orqanlara təqdim edilir.

9.9. Normativ hüquqi akt layihəsi dövlət orqanlarının (qurumlarının) təşəbbüsü əsasında hazırlandıqda, təşəbbüs göstərən dövlət orqanı (qurumu) razılaşdırma müddətini və razılaşdırılacaq aidiyyəti dövlət orqanlarını (qurumlarını) seçməklə, habelə zəruri hesab etdiyi sənədləri əlavə etməklə layihəni Sistem vasitəsilə münasibət bildirilməsi üçün göndərir. Həmin normativ hüquqi akt layihələrinin razılaşdırılması, habelə EHİS-də və "Lisenziyalar və icazələr" portalında yerləşdirilməsi bu Əsasnamənin 9.7-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

9.10. Mərkəzi icra hakimiyyəti orqanları özlərinin qəbul etməli olduğu normativ hüquqi aktların layihələrinin digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını Sistem vasitəsilə həyata keçirirlər. Bu zaman mərkəzi icra hakimiyyəti orqanları razılaşdırılma müddətini və razılaşdırılacaq aidiyyəti dövlət orqanlarını (qurumlarını) seçməklə, habelə zəruri hesab etdikləri sənədləri əlavə etməklə layihələri Sistem vasitəsilə münasibət bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərirlər. Həmin normativ hüquqi akt layihələrinin razılaşdırılması, EHİS-də və "Lisenziyalar və icazələr" portalında yerləşdirilməsi bu Əsasnamənin 9.7-ci bəndi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

9.11. Mərkəzi icra hakimiyyəti orqanlarının bu Əsasnamənin 9.10-cu bəndinə uyğun olaraq razılaşdırıldıqdan sonra qəbul olunan normativ hüquqi aktları Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də nəzərdə tutulan sənədlərlə birlikdə Hüquqi Aktların Dövlət Reyestrinə daxil olunması üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilir.

9.12. Normativ hüquqi aktların layihələrini əsas icraçı olan dövlət orqanı (qurumu), vizalanma müddətini və viza verəcək aidiyyəti dövlət orqanlarını (qurumlarını) qeyd etməklə, vizalanması üçün Sistem vasitəsilə digər icraçı dövlət orqanlarına (qurumlarına) göndərir.

9.13. Normativ hüquqi aktların layihələrinə Sistemdə təkmil sertifikatlı gücləndirilmiş elektron imza vasitəsilə viza verilir.

9.14. Razılaşdırılma və ya vizalanma müddəti başa çatdıqda, layihəyə irad və təkliflərini bildirməyən və ya viza verməyən dövlət orqanının (qurumunun) elektron kabinetinə layihənin həmin dövlət orqanı (qurumu) ilə razılaşdırılmış və ya vizalanmış hesab edildiyi barədə Sistem tərəfindən dərhal məlumat göndərilir və konkret tapşırıq üzrə layihəyə irad, təklif və ya viza verilməsi imkanı məhdudlaşdırılır, habelə layihənin avtomatik olaraq razılaşdırıldığı dövlət orqanları (qurumları) barədə əsas icraçı dövlət orqanının (qurumunun) elektron kabinetinə məlumat göndərilir.

9.15. Normativ hüquqi akt layihələri ilə bağlı işlər yekunlaşdıqdan sonra layihələr Sistem vasitəsilə aidiyyəti üzrə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 357

QƏRAR

Bakı şəhəri, 4 oktyabr 2023-cü il

## 2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamının 4-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2025-ci il iyulun 15-dən avqustun 15-dək Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınması keçirilsin.

2. Siyahıyaalma kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla sorğu yolu ilə keçirilsin.

3. Kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilsin.

4. Kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitə yaradılsın.

5. İstiqamətləndirici Komitənin tərkibi təsdiq edilsin (əlavə olunur).

6. İstiqamətləndirici Komitə:

6.1. kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətlərini əlaqələndirsin;

6.2. kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə təqvim planını, siyahıyaalma vərəqəsi formasını və doldurulması qaydasını təsdiq etsin;

6.3. kənd təsərrüfatının siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsinə nəzarət etsin, onun vaxtında və keyfiyyətlə keçirilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görsün;

6.4. kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə əlaqədar qarşıya çıxan və bu Qərarla tənzimlənməyən məsələlərə dair zəruri olduğu halda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflərini təqdim etsin.

7. Kənd təsərrüfatının siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, əldə olunan məlumatların işlənilməsi və nəticələrin dərc edilərək yayılmasını təmin etmək məqsədilə 2024-2026-cı illər üçün dövlət büdcəsində vəsait nəzərdə tutulsun.

8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsi, əldə olunan məlumatların işlənilməsi, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə işaxtaran və işsiz kimi qeydiyyata alınmış şəxslər, müəllim və tələbələr, uçot sahəsində səriştəsi olan digər şəxslər cəlb olunmaqla aşağıdakı tərkibdə Siyahıyaalma qrupunun yaradılmasına icazə verilsin:

8.1. Siyahıyaalma qrupunun rəhbəri - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.2. Siyahıyaalma qrupu rəhbərinin müavini - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.3. baş məsləhətçi - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.4. aparıcı məsləhətçi - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.5. məsləhətçi - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.6. məlumat bazasının administratoru - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.7. sistem administratoru - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.8. kompüter şəbəkəsi üzrə mütəxəssis - 2025-ci il iyulun 1-dən dekabrın 30-dək;

8.9. təlimatçı-nəzarətçilər - orta hesabla 10 sayıcıya 1 nəfər olmaqla 2025-ci il iyulun 10-dan avqustun 18-dək (sınaq siyahıyaalınması üzrə 2024-cü il iyulun 10-dan avqustun 18-dək);

8.10. sayıcılar - orta hesabla 120 təsərrüfat üçün 1 nəfər olmaqla 2025-ci il iyulun 10-dan avqustun 18-dək (sınaq siyahıyaalınması üzrə 2024-cü il iyulun 10-dan avqustun 18-dək).

9. Bu Qərarın 8.10-cu bəndində qeyd olunan şərtlərlə sayıcıların ümumi sayının 3,0 faizi hesabı ilə ehtiyat sayıcılar müəyyən edilsin.

10. Bu Qərarın 8.1-8.8-ci bəndləri üzrə işə cəlb olunacaq şəxslərlə münasibətlər əmək müqaviləsi, 8.9-8.10-cu bəndləri üzrə isə xidmət müqaviləsi ilə rəsmiləşdirilsin.

11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

11.1. kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə təqvim planının, siyahıyaalma vərəqəsi formasının və doldurulması qaydasının layihələrinin hazırlanaraq İstiqamətləndirici Komitəyə təqdim olunmasını təmin etmək məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət Texniki Komitə yaratsın;

11.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Siyahıyaalma qrupu işçilərinin aylıq vəzifə maaşlarının (xidmət haqlarının) məbləğlərini müvafiq işçilərin vəzifə maaşları məbləğlərinə uyğunlaşdıraraq 1 (bir) ay müddətində təsdiq etsin;

11.3. siyahıyaalma məlumatlarının elektron informasiya sisteminə daxil edilməsi, işlənilməsi və yekunlarının əldə olunması məqsədilə proqram təminatının hazırlanmasını təmin etsin;

11.4. kənd təsərrüfatının siyahıyaalınmasının başlanılmasına azı 2 (iki) ay qalmış onun keçirilməsi üçün zəruri olan metodoloji və digər materialların, habelə əhalinin məlumatlandırılması üçün əyani vəsaitlərin çap edilməsini, videoçarxların hazırlanmasını təmin etsin;

11.5. kənd təsərrüfatının siyahıyaalınmasına, o cümlədən sınaq siyahıyaalınmasına cəlb olunacaq təlimatçı-nəzarətçilərin və sayıcıların seçilməsini və təlimatlandırılmasını təmin etsin;

11.6. kənd təsərrüfatının siyahıyaalınmasının əhəmiyyəti haqqında mediada xüsusi maarifləndirici materialların yayımlanması üçün müvafiq tədbirlər görsün;

11.7. kənd təsərrüfatının siyahıyaalınması başa çatdıqdan sonra bu məqsəd üçün alınmış planşet tipli kompüterlərin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin balansına verilməsi məqsədilə qanunvericiliyə uyğun zəruri tədbirlər görsün.

12. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının şəhər, rayon, şəhər rayonlarının icra hakimiyyətləri:

12.1. siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını, siyahıyaalmaya cəlb olunacaq təlimatçı-nəzarətçilərin və sayıcıların vaxtında müəyyənləşdirilməsini təmin etmək məqsədilə 2024-cü ilin sonunadək Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavininin, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə kənd təsərrüfatının siyahıyaalınmasına yardım komissiyaları yaratsınlar;

12.2. şəhər, qəsəbə, kənd və sahə inzibati ərazi dairələri üzrə təsərrüfatbaşına uçot sənədləri məlumatlarının aktuallaşdırılmasını və 2025-ci il aprelin 1-dən gec olmayaraq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron informasiya sisteminə daxil edilməsini təmin etsinlər;

13. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi siyahıyaalma kadrlarına olan tələbatın ödənilməsi məqsədilə işaxtaran və işsiz kimi qeydiyyata alınmış uçot sahəsində səriştəsi olan şəxslərin kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsinə cəlb edilməsində kənd təsərrüfatının siyahıyaalınmasına yardım komissiyalarına kömək göstərsin.

14. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı radio və televiziyada müntəzəm olaraq xüsusi proqramlar təşkil etsin və bununla bağlı həyata keçirilən tədbirlərin geniş işıqlandırılmasını təmin etsin.

15. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınması dövründə telekommunikasiya şəbəkələrinin işinin dayanıqlılığını təmin etmək üçün zəruri tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 357 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

### İstiqamətləndirici Komitənin tərkibi

**İstiqamətləndirici Komitənin sədri**
Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**İstiqamətləndirici Komitə sədrinin müavini**
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

**İstiqamətləndirici Komitənin üzvləri:**
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinın sədrinin müavini
Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru
Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru
Ağsu Rayon İcra Hakimiyyətinin başçısı.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 358

QƏRAR

Bakı şəhəri, 5 oktyabr 2023-cü il

## "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin strukturu"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 sentyabr tarixli 2316 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 106 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının (Xidmətin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakının evsahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin bağlanış mərasimi keçirilib

Bakının evsahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin (İAC2023) bağlanış mərasimi keçirilib.




AZƏRTAC xəbər verir ki, bağlanış mərasimində çıxış edən Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faytinger bu mötəbər tədbirin 50 il öncə Bakıda keçirildiyini xatırladıb. O bildirib ki, Azərbaycan bu dəfə yenidən bütün kosmos icmasını öz dəyərli və zəngin mədəniyyətinə layiq yüksək səviyyədə qəbul etdi. Kosmos icmasının bu gün Bakıda toplaşıb Azərbaycanın yaratdığı əlverişli şəraitdə ideyalarını, biliklərini bölüşməsi tarixi məqamdır.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri konqresin iştirakçılarını bu möhtəşəm tədbirin yüksək səviyyədə keçirilməsi ilə əlaqədar təbrik edib və növbəti tədbirlərdə iştiraka dəvət edib. 4 mindən çox insanın bu il İAC-2023-ə qoşulmasını təşkilat üçün yeni rekord adlandıran Kley Mouri hər kəsi bu uğurla əlaqədar təbrik edib.

"Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, bu gün İAC-2023 bitir, lakin onun barədə xatirələr sonsuzadək bizlərlə qalacaq. Konqresin Bakıda keçirilməsi üçün İAF-a təşəkkürünü bildirən S.Əsədov bütün İAC tərəfdaşlarına, sponsorlara, iştirakçılara təşəkkürünü bildirib.

Daha sonra Bakının evsahibliyində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində bir sıra mükafatlar təqdim olunub.

Sonra Bakıda keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresinin rəsmi bayrağı tədbirin bağlanış mərasimində İtaliyaya təhvil verilib.

Bayrağı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov təqdim edib.

Beləliklə, növbəti konqres 2024-cü ilin oktyabrında İtaliyanın Milan şəhərində keçiriləcək. Bununla bağlı sənədləri Beynəlxalq Astronavtika Federasiyanın və İtaliyanın Kosmik Agentliyinin rəhbər şəxsləri imzalayıb.

*Bakıda astronavtlar sessiyası:*

# Kosmik turizm 60 milyon dollara başa gəlir

**Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində oktyabrın 6-da Beynəlxalq Astronavtika Federasiyasının təşkilatçılığı və "Azərkosmos"un tərəfdaşlığı ilə "Astronavtlar sessiyası: "Kosmosun populyarlaşması - kosmos insanları ilə tanışlıq" mövzusunda plenar iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin Auditoriya zalında baş tutan sessiyada moderator almaniyalı astronavt, Ştutqart Universitetinin astronavtika üzrə professoru Reinold Evald olub. Plenar iclasda TUA-nın (Türkiyə Uzay Ajansı) nümayəndəsi astronavt Tuva Cihangir Atasever, "Blue origin" şirkətinin astronavtı Viktor Hespanha, Rusiyadan "Roskosmos"un nümayəndəsi astronavt Anna Yuryevna Kikina, NASA-nın Kosmik Araşdırmalar Assosiasiyasından (ASE) astronavt John David Bartoe və misirli astronavt Sara Sabry çıxış ediblər.

Kosmosda həyat tərzi, yanaşma və kosmik fəaliyyətlər barədə məlumatı bölüşən astronavtlar gənclərə bu sahənin sirlərindən danışıblar. Kosmosda zamanın çox sürətlə keçdiyini vurğulayan astronavtlar, kosmosa yollanmazdan öncə keçdikləri asan olmayan məşqlərdən də söz açıblar.

"Bu günlərdə insanları kosmosa aparmağın yeni yollarının çoxaldığını görürük. Kosmos öz orijinal, eksklüziv xarakterini itirirmi? Biz - kosmos səyahətçiləri kosmosa buraxılış motivləri haqqında düşünürük. Çünki artıq hər kəs, astronavt olmadan belə kosmosa yollana bilər. 2022-ci ildə "Artemis-1" missiyasının pilotsuz "Orion" kosmik gəmisi Ayın ətrafında uğurlu dövrə vurdu. Bu, insanların Yerin peykinə uçmasına və ora enməsinə hazırlıq mərhələsi idi. 2024-cü ildə isə bizi Ay missiyaları gözləyir", - deyə R.Evald əlavə edib.

Qeyd olunub ki, "Orion" missiyasından sonra NASA bu uğuru inkişaf etdirmək və Aya yeni ekspedisiyalar göndərmək niyyətindədir. Məqsəd 2025-ci ilə planlaşdırılan pilotlu uçuşlardan əvvəl orada elmi təcrübələr həyata keçirmək və avadanlıqları sınaqdan keçirməkdir. Bildirilib ki, kosmik turizm sahəsi də sürətlə inkişaf edir. Belə ki, bu il turistləri Beynəlxalq Kosmik Stansiyaya aparmaq üçün iki uçuş planlaşdırılıb. Bu, bahalı əyləncədir - təxminən 60 milyon dollara başa gəlir. Turistlər stansiyanın pəncərəsindən fantastik mənzərələr görəcəklər.

Yapon milyarder Yusaku Maezava İlon Maska məxsus "SpaceX" şirkətinin Aya səyahət edəcək "Starşip" kosmik gəmisində özü ilə aparacağı səkkiz şanslı şəxsin adını açıqlayıb. O, "DearMoon" adlı layihə çərçivəsində Ayın orbitinə çıxmaq istəyir. Uçuş təxminən bir həftə davam edəcək, amma Yerin peykinə enmək proqrama daxil deyil.

Anna Yuryevna Kikina isə bildirib ki, turist kimi ilk dəfə 2021-ci ildə Rusiyanın "Soyuz" kosmik gəmisində Beynəlxalq Kosmik Stansiyada olub. O, öz təcrübəsini iştirakçılarla bölüşüb.

John David Bartoe qeyd edib ki, Avropa Kosmik Agentliyi apreldə Yupiterdə tədqiqat aparmaq üçün kosmosa aparat göndərməyi planlaşdırır. Bu missiya 13 il davam edəcək.

İclasda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Beynəlxalq Astronavtika Konqresi:*

# Sərgidə fəal iştirak edən ölkələrin stendləri mükafatlandırılıb

**Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi (İAC2023) çərçivəsində "Azərkosmos"un sərgi pavilyonunda stendlərin mükafatlandırılması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faytinger və Azərbaycan Kosmik Agentliyinin - "Azərkosmos"un İdarə heyətinin sədri Saməddin Əsədov mükafatları təqdim ediblər.

K.Faytinger sərginin yüksək səviyyədə təşkil olunduğunu və pavilyonda bütün stendlərin aktiv iştirakını qeyd edərək, tədbiri peşəkar səviyyədə keçirdiyi üçün Azərbaycana təşəkkürünü bildirib.

Saməddin Əsədov bütün tədbir iştirakçılarına və sponsorlara təşəkkürünü ifadə edib. Bildirib ki, 2026-cı ildə Beynəlxalq Astronavtika Konqresi Türkiyənin Antalya şəhərində keçiriləcək.

Səudiyyə Ərəbistanı, İtaliya Kosmik Agentliyi (ən innovativ stend), Çin Astronavtlar Assosiasiyası, "Airbus" şirkətinin nümayəndələri (ən kreativ), Yaponiyanın JAXA Kosmik Agentliyi, Polşa Kosmik Agentliyi (ən fəal), Milanın "Plan-S" şirkəti və Türkiyə Kosmik Agentliyinin (ən işgüzar) stendləri mükafatlandırılıblar.

# Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində astronavtlarla görüş keçirilib

Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində rumıniyalı astronavt Dumitru Dorin Prunariu və braziliyalı astronavt Viktor Hespanha ilə məktəblilər arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, mərkəzin direktoru Firuzə Sultan-zadə təşkil etdikləri astronomiya dərnəkləri, Ümumdünya Aviasiya və Kosmonavtika Günü ilə bağlı tədbirlər haqqında danışıb. Bildirib ki, məktəblilərin bu sahəyə böyük marağı var.

Daha sonra "Azərkosmos"un təhsil meneceri İmran Muxtarov məktəblilərə qurumun fəaliyyət istiqamətləri, Beynəlxalq Astronavtika Konqresi və "Beynəlxalq astronavtlar proqramı" haqqında ətraflı məlumat verib.

Astronavtlar kosmik missiya və kosmosa uçuş təcrübələrini bölüşüblər. Sonda Dumitru Dorin Prunariu və Viktor Hespanha ilə sual-cavab sessiyası keçirilib, ekoklub üzvləri üçün avtoqraf imzalanması mərasimi və fotosessiya təşkil edilib.

Astronavtlarla görüşdə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekoklubunun 100-dək üzvü iştirak edib. Konqresin tərkib hissəsi olan "Beynəlxalq astronavtlar proqramı" "Kosmos və sağlamlıq", "Kosmos və inklüzivlik", "Kosmos və STEAM" mövzuları, həmçinin astronavtların həyat və fəaliyyətinə həsr olunmuş silsilə tədbirlərdən ibarətdir. Bu çərçivədə müxtəlif ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və gənclər mərkəzlərində məktəblilər, tələbələr, şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlər daxil olmaqla, 3000 nəfərlə görüşlərin keçirilməsi nəzərdə tutulur. Yeniyetmə və gənclər arasında kosmos sahəsinə, yüksək texnologiyalara marağın artırılması, milli kosmik ekosistemin təşviqi proqramın əsas məqsədlərindəndir.

# REGİONLAR

## GDU-da "Qafqazda sülhün və sabitliyin təmin olunmasında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib

**Gəncə Dövlət Universitetində (GDU) Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qafqazda sülhün və sabitliyin təmin olunmasında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə rektorun baş müşaviri Asif Cavadov açaraq Ümummilli Lider Heydər Əliyevin xalqımız, dövlətçiliyimiz qarşısındakı tarixi və misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndər dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, sosial inkişaf gətirdi, atəşkəsə nail oldu və Azərbaycanı tənəzzüldə olan dövlətdən inkişaf edən ölkəyə çevirdi. Atəşkəsdən bir neçə ay sonra imzalanan "Əsrin müqaviləsi" ölkəmizin güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynadı.

Tədbirdə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov da çıxış edib. Bildirib ki, Azərbaycan bu gün dünya miqyasında ən sabit ölkələrdən biridir və dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin təməlində Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici kurs dayanır.

Sonra universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva, GDU-nun Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Afaq Qasımova, Riyazi-analiz kafedrasının müdiri Orucəli Rzayev və Sosial fənlər kafedrasının müdiri Cavid Bağırzadə mövzu ətrafında çıxış edərək Heydər Əliyevin ölkədə sülh və sabitliyin təmin olunmasında, həmçinin beynəlxalq nüfuzunun artması istiqamətindəki səmərəli fəaliyyətindən danışıb.

## Naxçıvanda ilk dəfə Karyera Forumu keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində ilk dəfə Karyera Forumu keçirilib.**

Forumda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov və digərləri iştirak ediblər.

"Qədim diyarda yeni fürsətlər" devizi ilə keçirilən forumun məqsədi peşəkar kadrların yetişdirilməsi, kadr ehtiyaclarının qarşılanması, əmək bazarına keçidin asanlaşdırılması və peşəkar bacarıqların inkişaf etdirilməsidir.

Anar Əliyev Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. O, son 5 ildə qeyri-formal məşğulluqla mübarizə sahəsində aparılan tədbirlər nəticəsində əmək müqavilələrinin sayında 35 faiz artım olduğunu qeyd edib.

Bildirilib ki, tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra şəhid ailələri, müharibə iştirakçıları və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial dəstək tədbirləri ilə əhatə olunması istiqamətində mühüm tədbirlər həyata keçirilib və 124 min şəxsə 300 mindən çox xidmət göstərilib.

Vurğulanıb ki, məşğulluq sistemində də dərin islahatlar həyata keçirilir. Son 5 ildə məşğulluq orqanları tərəfindən 1 milyondan çox şəxslə müxtəlif istiqamətlər üzrə iş aparılıb. Məşğulluq xidmətləri sahəsində innovativ həllərin tətbiqi və rəqəmsallaşdırma işlərindən bəhs olunub. Bu ilin may ayında əmək və məşğulluq sahəsində islahatların yeni mühüm mərhələsinə keçidi təmin edən "Əmək və Məşğulluq" altsisteminin (ƏMAS) istifadəyə verildiyi bildirilib.

Dövlət Məşğulluq Agentliyi tərəfindən peşə hazırlığı sistemində səmərəliliyin artırılması məqsədilə Regional Peşə Hazırlığı mərkəzlərinin modernləşdirilməsi, mərkəzlərin sayının ölkə üzrə 10-a çatdırılması, kursların beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması və özəl tədris mərkəzlərinin prosesə aktiv cəlb edilməsi istiqamətində işlər davam etdirilir. Cari ilin ötən dövründə 9 minə yaxın şəxs peşə hazırlığına cəlb olunub.

Peşəyönümü məsləhət xidməti sahəsində bir sıra layihələrin həyata keçirildiyi, 136 mindən çox şəxsə xidmət göstərildiyi və məsləhət xidməti, karyera planlamasının rolunun artırılması istiqamətində işlərin də davam etdirildiyi bildirilib. Qeyd olunub ki, bu forum əmək bazarının tənzimlənməsi, kadr potensialının gücləndirilməsi, gələcəyin ən vacib əmək bacarıqları və onlara yiyələnmək yolları barədə müzakirə platforması yaratmağa imkan verir.

Forumda müzakirələr aparılıb, spikerlərlə iştirakçıların birgə əməkdaşlığı nəticəsində icmallar hazırlanıb.

## Belə getsə, fermer də işlərini məsafədən idarə edəcək

### Yüksək texnologiyalar indi də aqrar sektorun forma və məzmununu dəyişir

**Dünya üzrə aqrar sektorda yüksək texnologiyaların tətbiqi getdikcə sürətlənir. Etiraf etməliyik ki, Azərbaycan da bu prosesdən kənarda qalmır. Xüsusən işğaldan azad edilmiş ərazilərdə bu yeniliklər daha geniş tətbiq edilir.**

Bu baxımdan Azərbaycanın "Inter-Food Azerbaijan 2023" və "Caspian Agro" kimi nüfuzlu sərgilərdə aqrar sektordakı innovasiyaların geniş nümayiş etdirməsi də sıradan fakt deyil. Məlumat üçün bildirək ki, həmin sərgilərdə müasir innovasiya texnologiyaları və metodları, aqrar sektorda tətbiq edilən müasir suvarma sistemləri və digər yeniliklər nümayiş olunmuşdur.

Mütəxəssislər belə hesab edirlər ki, aqrar sektorun innovativ inkişafı kənd təsərrüfatına innovasiyaların tətbiqi ilə düz mütənasibdir. Məlumdur ki, aqrar sektorun aparıcı qüvvəsini fermerlərimiz təşkil edir. Buna görə də onların yeni texnologiyaların tətbiqi ilə bağlı məlumatlarla vaxtında təmin edilməsinin xüsusi əhəmiyyəti var.

Aqrar sektorda tətbiq edilən innovativ texnologiyalar torpaq və su resurslarından faydalı istifadə etməyə və məhsuldarlığı nəzərəçarpacaq dərəcədə artırmağa, məhsulun maya dəyərini xeyli aşağı salmağa imkan yaradır. Buna görə də Azərbaycan belə sərgilərdə iştirak etməyə xüsusi maraq göstərir.

Bəs yeni aqrar texnologiyalara nələr daxildir? Cavab sadədir: o, əsasən məhsuldarlığın artırılmasına təkan verən texniki yeniliklərin geniş spektrindən ibarətdir. Buraya robot texnologiyaları, kənd təsərrüfatı texnikasının aqrar parkları, kompüterlər, dronlar, mobil qurğular və geniş proqram təminatları daxildir. Nəhəng məlumatların və süni intellektin geniş təhlilləri də aqrar sektorun innovasion texnologiyalarına aiddir.

Bu gün demək olar ki, aqrar sektorun bütün istiqamətlərində ciddi yeniliklər tətbiq edilir. Yeni texnologiyalar bütünlükdə aqronomların işini sadələşdirir, mükəmməlliyə sarı addımlamağa imkan yaradır. Suvarma, gübrələrin, pestisidlərin verilməsi artıq gözəyarı yox, sırf elmi əsaslarla dəqiq təyin edilir. Bundan başqa, aqronomlara hər sahəyə ayrıca tətbiq edilən fərqli preparatlar təklif olunur. Yeniliklər həmçinin aqrar sektora "ağıllı texnologiyalar"ın tətbiqini genişləndirir. Bu zaman suvarmada, pestisidlərin və gübrələrin verilməsində ciddi qənaət və gəlirin böyük hissəsinin qorunmasına imkan yaranır, kimyəvi maddələrin qarışdığı axıntıların yayılmasının qarşısı alınır, su hövzələrini daha dəqiqliklə qorumaq, torpaqların istifadəsi zamanı ətraf mühitə dəyən ziyanları azaltmaq mümkün olur. Həmçinin sərf olunan əməyin həcmi də nəzərəçarpacaq dərəcədə azalır. Bir sözlə, müxtəlif sahələr arasında koordinasiya asanlaşır, mobil qurğuların tətbiqi genişlənir, itkilər minimallaşır, nəzarət gücləndikcə məhsulun keyfiyyəti və miqdarı artır. Üstəlik, kənd təsərrüfatı proqramlarının və yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi bütünlükdə qida tədarükü zəncirinin idarə olunmasını asanlaşdırır.

Bunlardan başqa, kənd təsərrüfatında GPS məlumatların aqrar sektorda istifadəsi məhsuldarlığın artmasına, artıq xərclərin, toxum və herbisidlərin izafi məsrəflərinin azaldılmasına xidmət edir. Yeni texnologiyalar görülən işləri daha sürətlə idarə etməyə və onların monitorinqini aparmağa, tarlalardan yığılan məlumatların cəmlənməsinə və analizinə, bir çox başqa işlərin sürətlə və dəqiq aparılmasına imkan yaradır. Kənd təsərrüfatında robotlaşdırılmış texnologiyalar isə aqrar sektorda dəqiq əl əməyinə keçid üçün yeni perspektivlər açır. Robot texnologiyalarının müstəqil fəaliyyəti tarlaları fasiləsiz idarə etməyə və məhsuldarlığı artırmağa da imkan verir. Digər fakt: əkin sahələrində yerləşdirilən sensorlar hava haqqında, bitkilərdəki rütubət barəsində və s. məlumatları toplayır, fermerlərə işlərini elmi əsaslarla daha dərindən idarə etməyə şərait yaradır. Geoqrafik Coğrafi Sistemlər (GCS) isə dəqiq torpaqşünaslığın aparılması üçün daha yeni alət sayılır. Bu yolla toplanılan bütün məlumatlar sayəsində torpaqları daha mükəmməl idarə etmək mümkündür.



Aqrar sektorda dronların istifadə olunması da getdikcə genişlənir. Bu, təsadüfi deyil. Göydən çəkiliş aparan dronlar həşəratlar və ziyanvericilər barəsində daha dəqiq məlumat verə bilirlər. Sputnik texnologiyalarının tətbiqi isə aqrar sektorda sahələrin monitorinqinin aparılmasında əsl dönüş yaratmışdır.

Bir sözlə, belə getsə, fermer də işini məsafədən idarə edəcək. Çünki yeni texnologiyaların tətbiqi aqrar sektorun da forma və məzmununu dəyişir, imkanlarını artırır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Gəncədə Vətən müharibəsi zamanı şəhid olmuş mülki şəxslərin xatirəsi anılıb



**Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumuna məruz qalmasından üç il ötür. Bununla əlaqədar Gəncə ŞİH-nin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, idarə, müəssisə və təşkilat rəhbərləri raket atəşindən dağılan ərazini ziyarət etmişlər.**

Anım mərasiminin iştirakçıları əvvəlcə Gəncə şəhərinə edilən raket hücumları nəticəsində şəhid olan mülki vətəndaşların adlarının əks olunduğu lövhənin önünə tər çiçəklər düzərək, şəhidlərin ruhuna dərin ehtiramlarını ifadə etmişlər.

Burada iştirakçılara məlumat verilmişdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri 2020-ci il oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də günün müxtəlif saatlarında "Toçka U", "Smerç", "Qrad" və digər raketlərdən atəşə tutulmuşdur. Endirilmiş raket zərbələri nəticəsində 6-sı uşaq və yeniyetmə olmaqla, ümumilikdə 26 nəfər həlak olmuş, 29-u uşaq olmaqla 142 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 3 ailənin üzvü olan 4 uşaq hər iki valideynini itirmiş, şəhərin 3900-dən çox yaşayış və qeyri-yaşayış sahələrinə, həmçinin 100-ə yaxın nəqliyyat vasitəsinə külli miqdarda ziyan dəymişdir. Bildirilmişdir ki, Ermənistanın hərbi cinayətləri nəticəsində həyatını itirmiş şəhər sakinlərinin xatirəsinin əbədiləşdirilməsi üçün Gəncədə Memorial Kompleks yaradılacaqdır. Ələkbər Rəfibəyli küçəsində inşası nəzərdə tutulan kompleksin təməli Prezident İlham Əliyevin 30 yanvar 2022-ci il tarixdə Gəncə şəhərinə səfəri zamanı qoyulmuşdur.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Ağstafa üzümündən hazırlanan şərab xarici bazara çıxır

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına təmin edilməsi üçün həyata keçirilən tədbirlər davam edir. Bu istiqamətdə reallaşan dövlət proqramları, imzalanan sərəncamlar kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında stimul rolunu oynayır.**



Son illər Ağstafa rayonunda da aqrar sektorda davamlı inkişafa nail olmaq üçün bir sıra işlər görülür. Xüsusilə mövcud əkin sahələrindən daha səmərəli istifadə olunması diqqətdə saxlanılır.

Hazırda rayonda 21501 hektar əkin sahəsi mövcuddur ki, onun da 9 min hektarında taxıl yetişdirilir. Dövlətin taxılçılığın inkişafı ilə bağlı verdiyi dəstəkdən yararlanan fermerlər hər il bu sahədə uğurlu göstəricilərə nail olurlar.

Ağstafada iqtisadi cəhətdən səmərəli olan üzümçülüyün inkişafı da sürətlənir. Xatırladaq ki, üzümçülük Ağstafa üçün ənənəvi və gəlirli təsərrüfat sahələrindən olsa da, sonralar məlum səbəbdən bu sahəyə ögey münasibət göstərildiyindən rayon iqtisadiyyatında yerini tədricən itirməyə başlamışdı. Bu gün isə dövlət tərəfindən qeyri-neft sektorunun inkişafı ilə əlaqədar kənd təsərrüfatının müxtəlif sahələrinə, o cümlədən üzümçülüyə verilən diqqət və dəstək, qəbul olunmuş proqramlar Ağstafada da bu sahəni dirçəltmişdir. Bunun nəticəsidir ki, hazırda rayonda 497,9 hektar üzüm bağı var. Onlardan 473,9 hektarı barverən, 1,5 hektarı yeni salınan bağlardır. Artıq bir aydan çoxdur ki, plantasiyalarda üzüm yığımına başlanılıb. İlkin nəticələr onu göstərir ki, bu il məhsuldarlıq keçən illə müqayisədə 15-20 faiz çox olacaq.

Onu da bildirək ki, dövlətin aqrar sahəyə ayırdığı güzəştli kredit, gübrələrin 70 faiz güzəştlə verilməsi, eləcə də hər hektar üçün subsidiyaların tətbiq edilməsi fermerləri yeni üzüm bağları salmağa həvəsləndirib. Ağstafa rayonunun ən çox üzüm sahəsi olan yaşayış məntəqələrində - Həsənsuda 131, Vurğun qəsəbəsində 122, Pirilidə 86 hektar üzüm bağı salınıb. Məsələn, Pirili kəndində fəaliyyət göstərən "Azkonsalt" MMC 65 hektar sahədə şərab üzümü yetişdirir. Yetişdirilmiş texniki sort üzümdən hazırlanmış şərab əsasən xarici ölkələrə ixrac olunur.

Uzun illərdir ki, üzümçülüklə məşğul olan Poylu kənd sakini Qurban Aslanovun 5 hektar sahədə üzüm bağı var. Fermer hər il yetişdirdiyi məhsulu daxili bazarlarda satır ki, bu da xeyli gəlir gətirir.

Ağstafa heyvandarlıq üçün də əlverişli şəraitə malikdir. Hazırda rayonda 25,3 min iribaşlı, 154,4 xırdabaşlı heyvan saxlanılır. Əhalinin ərzaq təminatında mühüm rol oynayan heyvandarlığa rayonda maraq çoxdur. Fermerlər hər il təsərrüfatlarını genişləndirərək həm ərzaq tələbatını ödəmək, həm də gəlir götürmək üçün əllərindən gələni əsirgəmirlər. Belə təsərrüfat sahiblərindən biri də Əzim Hüseynovdur. Hazırda fermer 560 xırdabaşlı heyvana qulluq edir. Bu qədər heyvanı saxlamaq üçün 600 hektar örüş yeri var. O, 10 nəfərədək işçi qüvvəsi ilə hər il heyvanların baş sayını artırır. Rayonda heyvandarlıqla məşğul olanlardan biri də Elman Abbasovdur. Onun təsərrüfatında 350 baş qoyun-quzu var. 700 hektar örüş yeri olan fermer hər il daxili bazarlarda tonlarla ət satış həyata keçirir. Xayyat Bağırov rayonun Aşağı Göycəli kəndində yaşayır. Qısa vaxt ərzində təsərrüfatındakı heyvanların baş sayını 310-a çatdırmışdır. Fermer qarşısına məqsəd qoymuşdur ki, gələn il xırdabaşlı heyvanların sayını 400-ə çatdırsın.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Tovuzda əmək yarmarkası keçirilmişdir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin Qazax-Tovuz Regional Məşğulluq Filialının dəstəyi ilə Tovuzda əmək yarmarkası keçirilmişdir.**



Tovuz Olimpiya İdman Kompleksində keçirilən əmək yarmarkasında işaxtaranlara "Saloğlu" fərdi firması tərəfindən 570 vakansiya iş yeri təklif olunmuşdur.

Yarmarkada həmçinin işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq tədbirləri barədə məlumat verilmiş, iş üçün müraciət edən şəxslərin CV-ləri qəbul olunmuşdur. Özünüməşğulluq proqramından yararlanmaq istəyən vətəndaşların isə qeydiyyatı aparılmışdır.

## Daşkəsənin dağlıq ərazilərinə qar yağıb



**Daşkəsən rayonunun dağlıq ərazilərinə 3-5 santimetr qalınlığında qar yağıb. Yağıntı əsasən dəniz səviyyəsindən 1500 metrdən yüksək olan ərazilərdə qeydə alınıb.**

Qarın yağması ilə əlaqədar rayon ərazisində temperatur ötən günlərə nisbətən xeyli aşağı düşüb. Bununla əlaqədar heyvandarlıq təsərrüfatlarının rəhbərləri öz mal-qaralarını qışlaq ərazilərinə aparmağa başlayıblar. Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı yanında keçirilən şura iclasında rayonun idarə, müəssisə və təşkilatlarında payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə əlaqədar operativ müzakirələr aparılmışdır. Müzakirələrdə qazlaşdırılmamış yaşayış məntəqələrində sakinlərinin odun yanacağı ilə təmin olunması üçün Regional Meşə Təsərrüfatı Mərkəzinin rəhbərliyinə tapşırıqlar verilmişdir. Bildirilmişdir ki, məktəblərin və tibb müəssisələrinin odunla təminatı işləri artıq yekunlaşmışdır. Buz bağlaması ehtimal olunan yollara səpilməsi üçün kifayət qədər qum-duz qarışığı ehtiyatı toplanmışdır. Hazırda rayonda qış mövsümündə qarşıya çıxa biləcək problemlərin həlli istiqamətində işlər davam edir.

***"Azərbaycan"***

# "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II Beynəlxalq Simpozium başlayıb

Türkiyədə Kırıkkale Universitetinin İslam elmləri fakültəsi, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutu, İndoneziya Sunan Kalijaga Yogyakarta Dövlət İslam Universiteti və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II Beynəlxalq Simpoziumun açılış mərasimi baş tutub.



Açılış mərasimində Türkiyə və Azərbaycan şəhidlərinin xatirələri birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib. Kırıkkale Universiteti İslam elmləri fakültəsinin tələbəsi Məhəmməd Əmin Coşkunun Qurani-Kərim tilavəti ilə tədbir davam edib.

Simpoziumda açılış nitqi ilə çıxış edən tədbirin təşkilat komitəsinin sədri Şahin Əhmədoğlu bildirib ki, fərqli dinlərə, dillərə, irqlərə, rənglərə və etnik quruluşa sahib olan insanlar dünyada birgə yaşayırlar. Müxtəlif coğrafiyalarda yaşayan insanlar, əsasən cəmiyyətin onlara aşıladığı həyatı bilir və mənimsəyirlər. İslam dininin məqsədi ağıldan istifadə edən, qanuna və hüquqlara əməl edən, ədalətli, gözəl tərbiyəli, fikir azadlığına və yaşamaq hüququna hörmət göstərən, mərhəmətli, bağışlayan insan yetişdirməkdir.

Ş.Əhmədoğlu daha sonra vurğulayıb ki, islam sivilizasiyasının bir parçası olan Türkiyə müsəlman ölkələri arasında strateji mövqeyinə görə mühüm missiyaya malikdir. Məruzəçi belə bir tədbirin Türkiyə ilə dərin tarixi və mədəni əlaqələrə malik olan qardaş Azərbaycanla birlikdə keçirilməsini məqsədəuyğun hesab etdiyini vurğulayıb. Bildirib ki, simpoziumda 14 ölkədən və Türkiyənin müxtəlif universitetlərindən 100-dən artıq alim məruzə ilə çıxış edəcəkdir.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı Mövlud Erten bildirib ki, texnologiyanın inkişafı ilə dünya kiçilmişdir. Dövlətlər və qitələr arasındakı sərhədlər indi yalnız fizikidir. Ona görə də "birgəyaşayış" dediyimiz ifadə fiziki ölçülərini çoxdan aşmış, onun paradiqması da dəyişmişdir.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycanda müxtəlif dinlərin, fərqli etnik qrupların yüzillərboyu sülh şəraitində, çətin anlarda bir-birlərinə dəstək verərək yaşadıqlarını müasir və tarixi nümunələrlə izah edib, ölkəmizdə multikultural həyatın 23 müxtəlif ölkədə akademik şəkildə öyrənildiyini və mühazirələrdə izah edildiyini vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov vurğulayıb ki, Qurani-Kərimin bir yerində birgəyaşamanın nəzəri prinsiplərinə rast gəlirik. İslam mədəniyyətinə nəzər saldıqda, beytül-hikmənin Abbasilər dövründə qurulduğunu görürük. Beytül-hikmənin əsas vəzifələrindən biri də islam sivilizasiyalarından başqa, elmi və fəlsəfi kitabları, xüsusən də qədim yunan mədəniyyətinə aid kitabları ərəb dilinə tərcümə etmək idi. Bundan əlavə, Əndəlüs nümunəsi ən parlaq amillərdən biridir. Əndəlüs müsəlmanlarla yanaşı, yəhudi və xristianların da islam mədəniyyətinə töhfə verdiyi bir məkandır. Bu gün İslam dünyasında məzhəblərin toqquşmasını müşahidə edirik. Buna əsas səbəb məzhəb kimliyini dini kimlikdən üstün tutmaqdır. Məzhəblərin olması çox təbiidir, amma dini kimlikdən üstün tutmaq yanlışlıqdır. Bunlar birgəyaşayış ənənəmiz qarşısında duran ən mühüm problemlərdən biridir.

Daha sonra digər çıxışçılar bu simpoziumun gənclərə islam sivilizasiyasında birgəyaşayış ənənəsi haqqında bir çox bilgilərin çatdırılması üçün önəmli platforma rolunu oynayacağına ümid etdiyini bildiriblər.

Qeyd edək ki, simpoziumun ilk iki günündə cəmiyyət, təhsil və islamın əsas mövzuları çərçivəsində eyni vaxtda 103 məruzə baş tutacaq.

*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, oktyabrın 6-da ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Xaçmaz şəhərində yerləşən Tarix-Diyarşünaslıq Muzeyinin inzibati binasında vətəndaşları qəbul edib.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, mineral xammal, işlə təmin olunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə oktyabr ayının pensiyaları ödənilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən oktyabrın 6-da Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə oktyabr ayının pensiyaları ödənilib. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yaxın günlərdə isə respublikamızın digər bölgələri üzrə oktyabr ayının pensiyaları, həmçinin güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları ödəniləcək.

# Reabilitasiya xidmətləri göstərilən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə görüş olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Bakı Reabilitasiya Mərkəzində reabilitasiya xidmətləri göstərilən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə görüş olub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə agentliyin əməkdaşları, hərbi ekspertlər, QHT nümayəndələri və müharibə veteranları iştirak ediblər.

Görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun əldə etdiyi tarixi zəfərdən, qəhrəman hərbçilərimizin göstərdikləri şücaətlərdən bəhs olunub. Həmçinin Vətən müharibəsindən sonra icra olunan genişmiqyaslı sosial dəstək proqramı çərçivəsində görülən işlər qeyd edilib.

Bildirilib ki, bu proqram çərçivəsində aparılan işlərin bir istiqaməti olaraq şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 1 990 şəxs 43,1 min reabilitasiya vasitəsi, o cümlədən 439 hərbçi 458 ədəd yüksək-texnologiyalı müasir protezlə təmin olunub.

QHT nümayəndələri müəssisədə əlilliyi olanlara, habelə müharibə ilə əlaqədar əlilliyi olanlara göstərilən reabilitasiya xidməti ilə də tanış olublar.

Reabilitasiya kursu keçən müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı, həmçinin keyfiyyətli bərpa-müalicə xidmətləri ilə əhatə olunduqlarını vurğulayıb, göstərilən yüksək qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# ANAMA bir daha vətəndaşları təhlükəli ərazilərdə diqqətli olmağa çağırıb

**Oktyabrın 6-da Tərtər rayonunun Çaylı kəndi yaxınlığında minalardan təmizlənməyən ərazidə mina hadisəsi baş verib.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) məlumat verilib.

İlkin məlumata əsasən OZM tipli qəlpələnən piyada əleyhinə minanın partlayışı nəticəsində rayonun Həsənqaya kənd sakini 1989-cu il təvəllüdlü Yaquar Əliheydər oğlu Hadıyev həlak olub.

Qeyd edək ki, bu il martın 9-da Yaquar Hadıyev həmin ərazidə baş verən piyada əleyhinə minanın partlayışı nəticəsində zərər çəkib, sol ayağı topuqdan aşağı amputasiya edilib.

Unutmayın, işğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursat təhlükəsi hələ də davam etməkdədir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Almaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir
İordaniya ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycan üçün önəmlidir
Azərbaycan və Səudiyyə Ərəbistanı arasında qardaşlıq əlaqələri yüksək səviyyədədir
İlham Əliyevin şərtləri
Sülhün yeganə təminatıdır
Azərbaycan tarixinin ən böyük sərkərdəsi
Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan və Davit İşxanyan...
Bu cinayətkarlar da artıq Bakı həbsxanasındadırlar
Qisas qiyamətə qalmadı
Zəfərin Laçın yolu
"Şər ittifaqı"na sərt zərbə
Terror əmrini verənlərin sonu
Mina "tarlaları" terrorçuların mənfur xislətinin göstəricisidir
Menendezlərin yeni qalmaqalı
azerbaijan-news.az

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# *Baş Prokurorluq:* "Tərtər sakininin minaya düşməsi ilə əlaqədar araşdırma aparılır"

Oktyabrın 6-sı saat 21 radələrində Tərtər rayonunun Həsənqaya kəndi ərazisində 1992-ci il təvəllüdlü Zaləddin Həsənlinin minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri istintaq hərəkətləri aparılıb.

Hazırda qeyd edilən faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

# Tərtər sakinləri minaya düşərək həlak olublar

Oktyabrın 6-da saat 17 radələrində Tərtər rayonunun Çaylı kəndi ərazisində mina partlayışı baş verib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, rayonun Həsənqaya kənd sakini 1989-cu il təvəllüdlü Yaquar Əliheydər oğlu Hadıyev piyada əleyhinə minaya düşməsi nəticəsində həlak olub.

* * *

Oktyabrın 6-da saat 20:30 radələrində Tərtər rayonunun Həsənqaya kəndi ərazisində kənd sakini 1986-cı il təvəllüdlü Zaməddin Həsənlinin minaya düşməsi barədə polisə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, Z.Həsənli minaya düşməsi nəticəsində ayağından xəsarət alıb. O, dərhal xəstəxanaya çatdırılıb. Hər iki hadisə ilə əlaqədar araşdırma aparılır.

*AZƏRTAC*

# Ticarət mərkəzində baş vermiş yanğınla bağlı cinayət işi başlanıb

Oktyabrın 6-da Masallı şəhərində yerləşən "Cavid-F" MMC-yə məxsus ticarət mərkəzinin ərazisində yanğın hadisəsi baş verməsi barədə daxil olmuş məlumat əsasında dərhal Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları hadisə yerinə çıxıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluq və Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətləri birgə məlumat yayıblar.

Qeyd olunub ki, görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində yanğın söndürülüb.

Hadisə nəticəsində ayrı-ayrı sahibkarlara məxsus ticarət obyektləri içərisindəki müxtəlif çeşidli mallarla birlikdə yanğının təsirinə məruz qalıb, 7 nəfər şəxs isə yanıq xəsarətləri ilə Masallı rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib, hazırda müalicələri davam etdirilir.

Fakta görə FHN-in Əməliyyat-istintaq idarəsində Cinayət Məcəlləsinin 225.2-ci maddəsi ilə (yanğın təhlükəsizliyi qaydalarını pozma) cinayət işi başlanıb. Yanğının səbəbini və dəymiş ziyanın həcminin müəyyən edilməsi üçün iş üzrə məhkəmə yanğın-texniki, məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizaları təyin edilib. Hazırda zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Ağdamın Sırxavənd, Xocalının Təzəbinə və Ballıca kəndlərində çətənə kolu plantasiyaları aşkarlanıb

Ağdamın Sırxavənd kəndi ərazisində 10 hektara yaxın ərazidə kultivasiya üsulu ilə yetişdirilən çətənə kolu plantasiyası aşkarlanıb.





Vaxtilə ərazi separatçılar tərəfindən mühafizə olunurmuş. Burada gözətçi qülləsi də var. Axtarış zamanı ərazidən 4 ədəd avtomat silah da aşkarlanıb.

Qeyd edək ki, Sırxavənd kəndi Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatçılardan təmizlənib.

* * *

Xocalının Təzəbinə kəndinin ərazisində 10 hektardan artıq ərazidə kultivasiya üsulu ilə yetişdirilən çətənə plantasiyası aşkarlanıb.

Çətənə plantasiyası erməni separatçıları tərəfindən kəndin əkin sahəsində salınıb.

Mütəxəssislər hesab edirlər ki, həmin bu narkotik vasitə, yəni çətənə kolu sativa növüdür. Sativa növü dünya bazarında daha çox alınan və tələbata ehtiyacı olan növdür. Qara bazarda qurudulmuş bu növ çətənənin bir kiloqramının qiyməti 8-10 min manat arasında dəyişir.

Qeyd edək ki, Təzəbinə Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatçılardan təmizlənib.

* * *

Xocalının daha bir kəndində kultivasiya üsulu ilə yetişdirilən çətənə plantasiyası aşkarlanıb.

Xocalının Təzəbinə kəndindən sonra Ballıca kəndinin ərazisində də çətənə plantasiyası aşkarlanıb. Erməni separatçıları 5 hektarlıq ərazidə narkotik yetişdirilməsi ilə məşğul olublar.

Qeyd edək ki, bundan öncə Xocalı Hava Limanının yaxınlığında 100 hektarlıq ərazidə, həmçinin Xocalının Təzəbinə və Ağdamın Sırxavənd kəndlərində hər birində 10 hektara yaxın ərazidə kultivasiya üsulu ilə yetişdirilən çətənə kolu plantasiyaları aşkarlanıb.

*AZƏRTAC*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və ictimai təşkilatları Tağı Əhmədova qardaşı

**VƏLİ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqbal Cabbarov ailəsi ilə birlikdə Sadıxovlar ailəsinə ataları

**OQTAY SADIXOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5348**
**Sifariş 2557**

**Qiyməti 40 qəpik**